Xalqın qəzeti!

# Xalq qəzeti

№ 70 (31039) 24 aprel 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan xalqının ağsaqqallıq ənənəsi milli irsimizin ən mühüm dayaqlarından biridir

## *Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının iştirakçılarına*



**Hörmətli qurultay iştirakçıları!**

Sizi Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının işə başlaması münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan xalqının qədim mənəvi-əxlaqi dəyərlərinə söykənən ağsaqqallıq ənənəsi milli irsimizin ən mühüm dayaqlarından biridir. Ağsaqqallara hörmət həm Azərbaycan şifahi xalq ədəbiyyatında, həm də yazılı ədəbiyyatında fundamental bir dəyər kimi daim ön planda yer alır. Təsadüfi deyil ki, xalqımızın tarixi keçmişini, adət-ənənələrini əks etdirən "Kitabi-Dədə Qorqud" dastanında ağsaqqal nəsihətinə və sözünə ehtiram ən yüksək əxlaqi keyfiyyət kimi təsvir olunub.

Xalqımızın tarixi ənənələrini rəhbər tutaraq üzərilərinə düşən vacib missiyanı daim uğurla həyata keçirən ağsaqqallarımız cəmiyyətdə əxlaqi-mənəvi dəyərlərin qorunub saxlanmasının və nəsillərarası varisliyin təminatçısı olaraq çıxış edirlər. Eyni zamanda milli dövlətçilik ənənələrinin davam etdirilməsi və vətəndaş həmrəyliyinin möhkəmləndirilməsində ağsaqqallarımızın müstəsna xidmətləri vardır.

Məhz ağsaqqallarımızdan vətənpərvərlik və fədakarlıq tərbiyəsi alan gənclərimiz Vətən müharibəsində şanlı Zəfərimizin əldə olunmasında mühüm rol oynayıblar. 30 ildən çox torpaq həsrəti ilə yaşamış, müharibənin ağrı-acısını görmüş böyüklərimizin gənc nəslə aşıladığı milli qürur və Vətən sevgisi sayəsində xalqımızın müasir hərb tarixinə yeni bir səhifə yazıldı.

Sevindirici haldır ki, bu gün ağsaqqallarımız ölkə həyatının bütün sahələrində fəal iştirak edirlər. Dünyada artan təhdidlər, xüsusilə də qloballaşma və sosial şəbəkə platformalarının zərərli təsirləri nəticəsində bir çox ölkələrdə milli-mənəvi və ailə dəyərlərinin deformasiyaya uğraması Azərbaycanda mövcud olan ağsaqqallıq institutunun əhəmiyyətini və rolunu daha qabarıq şəkildə vurğulayır. Gənclərimizi milli vətənpərvərlik və öz köklərinə bağlı ruhda yetişdirmək, onları düzgün yola istiqamətləndirmək ağsaqqallarımız qarşısında duran əsas vəzifələrdən biridir.

Keçən əsrin sonlarında yaranan və sıralarında həyatını cəmiyyətə xidmətə həsr etmiş tanınmış xadimləri birləşdirən Azərbaycan Ağsaqqallar Şurası böyük yol keçərək bu gün də ölkəmizin inkişafına töhfə verir. Şura ölkənin ictimai-siyasi və humanitar inkişafında, cəmiyyət həyatının aktual məsələlərinin həllində və gənc nəslin tərbiyəsində iştirak edir.

İnanıram ki, IX Qurultayda aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar Ağsaqqallar Şurasının fəaliyyətinin təkmilləşdirilməsinə, ölkənin ictimai-siyasi həyatında təşkilatın rolunun daha da güclənməsinə xidmət edəcəkdir.

Qurultayın işinə uğurlar, hər birinizə isə möhkəm cansağlığı, uzun ömür, dəyərli ictimai fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 aprel 2026-cı il**

## Azərbaycanın sabitlik, sülh və tərəqqi formulu



Səhifə ⇨ 3

## N.S.İbrahimovun Lənkəran Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.13-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Natiq Səhrab oğlu İbrahimov Lənkəran Dövlət Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 aprel 2026-cı il**

## Aİ daxilində konsensus böhranı



Səhifə ⇨ 3

## Yeni Dehlinin "cəza mexanizmi"




Səhifə ⇨ 4

## Aİ – Gürcüstan: inteqrasiyadan sanksiyaya



Səhifə ⇨ 4

## Müstəqil Azərbaycanın investisiya salnaməsi




Səhifə ⇨ 9

## Yaxın Şərq sülh və savaş arasında



Səhifə ⇨ 15

## Azərbaycan – Türkiyə hərbi alyansı qardaşlığın dayağını möhkəmləndirir



Səhifə ⇨ 5

## Ermənistanda parlament seçkiləri– geosiyasi rəqabətin yeni hədəfi



Səhifə ⇨ 5

## Dini fırıldaqçılıq və məğlubların növbəti antisülh oyunu



Səhifə ⇨ 4

## Ərazi bütövlüyümüzün tam bərpa edildiyi gün




Səhifə ⇨ 6

## Qarabağ və Şərqi Zəngəzur "ağıllı" memarlıq meydanıdır



Səhifə ⇨ 6

## Tikilməmiş binanın mənzilləri necə satışa çıxarılır?



Səhifə ⇨ 12

# Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayı





**Aprelin 23-də Bakıda Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayı keçirilib.**

Məclisdən əvvəl qurultay iştirakçıları Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Azərbaycan Ağsaqqallar Şurası İdarə Heyətinin üzvlərinin, görkəmli alimlərin, ictimai-siyasi xadimlərin, respublikamızın tanınmış ziyalılarının, ağsaqqalların, şəhid ailələrinin üzvlərinin, gənclərin, eləcə də şuranın 81 şəhər və rayon təşkilatının nümayəndələrinin iştirakı ilə keçirilən qurultayda Dövlət Himni səsləndirildikdən sonra torpaqlarımızın azadlığı uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin və ötən dövr ərzində dünyasını dəyişmiş ağsaqqalların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra qurultay öz işinə başlayıb.

Əvvəlcə Şuranın sədri Eldar Quliyev Prezident İlham Əliyevin Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayına ünvanladığı təbrik məktubunu oxuyub.

Qurultayın gündəliyi səsə qoyularaq təsdiq edildikdən sonra Eldar Quliyev Şuranın 5 illik fəaliyyətinə dair hesabatı tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Qurultayda Azərbaycan Ağsaqqallar Şurası İdarə Heyətinin üzvləri – AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, akademik Ziya Səmədzadə, professorlar Aqiyə Naxçıvanlı və Vaqif Şadlinski, eləcə də Yasamal Rayon Ağsaqqallar Şurasının sədri Fuad Məmmədov, gənc fəal, Dövlət İdarəçilik Akademiyasının tələbəsi Nəzrin Abdullayeva, Nərimanov Rayon Ağsaqqallar Şurasının sədri Arif Hümbətov, Xətai Rayon Ağsaqqallar Şurasının sədri Mürvət Əsgərov, Gəncə Şəhər Ağsaqqallar Şurasının sədri Nurəddin Məmmədov, Bərdə Rayon Ağsaqqallar Şurasının sədri Yaşar Zamanov, Beyləqan Rayon Ağsaqqallar Şurasının sədri Etibar İmanov və başqaları çıxış ediblər.

Natiqlər ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət kursundan, davamlı inkişaf prosesindən, əldə olunan uğurlardan, eləcə də möhtəşəm Zəfərdən, Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işlərindən, soydaşlarımızın doğma torpaqlarına qayıdışından bəhs ediblər.

Bu davamlı inkişaf fonunda ölkəmizdəki ictimai-siyasi və sosial-mədəni proseslərdə yaxından iştirak edərək dövlətimizin və xalqımızın milli mənafeyinə xidmət göstərən Azərbaycan Ağsaqqallar Şurasının səmərəli fəaliyyətindən söz açılıb. Qeyd olunub ki, şuranın 81 şəhər və rayon təşkilatının 35 mindən çox üzvü milli-mənəvi dəyərlərimizin qorunması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi, cəmiyyətimizdə sağlam ictimai münasibətlərin formalaşdırılması istiqamətində bilik və təcrübələrini əsirgəmir.

Natiqlər ağsaqqalların və ziyalıların daim Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı ilə əhatə olunduğunu vurğulayıblar.

Qurultayda daha sonra təşkilati məsələlərə baxılıb. Səsvermə yolu ilə professor Eldar Quliyev yenidən Azərbaycan Ağsaqqallar Şurasına sədr seçilib, yeni üzvlər qəbul olunmaqla İdarə Heyətinin və Nəzarət-Təftiş Komissiyasının tərkibi formalaşdırılıb.

Şuranın Nizamnaməsi əlavə və dəyişikliklər edilməklə yeni redaksiyada qəbul olunub. Qurultay nümayəndələri adından Prezident İlham Əliyevə müraciət qəbul edilib, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırıma Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayının keçirilməsi ilə bağlı məlumat məktubunun göndərilməsi qərara alınıb.

Bununla da Azərbaycan Ağsaqqallar Şurasının IX Qurultayı öz işini yekunlaşdırıb.

***XQ***

# Latviya Prezidenti Edqars Rinkeviçs Heydər Əliyev Mərkəzində

**Azərbaycanda səfərdə olan Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs aprelin 23-də Heydər Əliyev Mərkəzində olub.**



Qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzinin binası haqqında məlumat verilib.

Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Buradakı Heydər Əliyev Muzeyində Ulu öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur.

Prezident Edqars Rinkeviçs əvvəlcə Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə - 1969-cu ildən 2003-cü ilə qədər rəsmi istifadəsində olan avtomobillərə baxıb.

Ümummilli liderin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər və multimedia zalı qonaqda böyük maraq doğurub.

"Azərbaycan inciləri" sərgisi ilə də tanış olan Edqars Rinkeviçsə bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirildiyi bildirilib. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələrinin sərgiləndiyi, qədim çalğı alətlərimizin orijinal şəkildə - səsli formada təqdim olunduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

"Klassik avtomobillər sərgisi" ilə də tanış olan Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs daha sonra xatirə kitabına ürək sözlərini yazıb.

***XQ***

# Latviya Prezidentinin Azərbaycana səfəri başa çatıb

**Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin Azərbaycan Respublikasına rəsmi səfəri aprelin 23-də başa çatıb.**



Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Latviya Prezidenti Edqars Rinkeviçsi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola saldılar.

***XQ***



# Hikmət Hacıyev Slovakiyanın Bakıdakı səfiri ilə görüşüb

**Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Slovakiyanın Bakıdakı səfiri Elçin Qasımov iki ölkə arasında münasibətləri müzakirə ediblər.**

Bu barədə slovakiyalı səfir görüşün yekunlarına dair "X" sosial şəbəkə hesabında yazıb.

"Biz Slovakiya və Azərbaycan arasında ikitərəfli münasibətlərin yüksək səviyyəsini müsbət qiymətləndirdik. Bu, qarşıdan gələn çoxsaylı yüksək səviyyəli səfərlərlə təsdiqlənir. Əməkdaşlığımızın daha da möhkəmləndirilməsini səbirsizliklə gözləyirəm", - deyə o bildirib.

# Baş Prokurorluqda kollegiya iclası

**Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə cari ildə görülən işlərə və qarşıda duran aktual məsələlərə həsr olunan geniş kollegiya iclası keçirilib.**



İclası giriş nitqi ilə açan Baş prokuror bildirib ki, dünyada və regionda müşahidə olunan mürəkkəb geosiyasi vəziyyət fonunda Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban Əliyevanın yaxından iştirakı ilə ölkədə ictimai-siyasi sabitliyin qorunması, hüquqi islahatların davam etdirilməsi, iqtisadi inkişafın dayanıqlılığının təmin olunması və Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsi istiqamətində ardıcıl siyasətin uğurla davam etdirilməsi nəticəsində ölkədə sabitlik təmin edilməklə Azərbaycanın beynəlxalq nüfuzu daha da artıb.

Eyni zamanda, prokurorluq orqanlarının aidiyyəti dövlət qurumları, o cümlədən hüquq-mühafizə orqanları ilə birgə fəaliyyəti nəticəsində qanunun aliliyinin təmin edilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlər həyata keçirilib.

İclasda, həmçinin, bu müddət ərzində prokurorluq orqanlarında görülmüş işlər, əldə edilmiş nailiyyətlərdən bəhs edilərək xidməti fəaliyyətin təkmilləşdirilməsi, keyfiyyətinin daha da artırılması istiqamətində qarşıda duran əsas prioritetləri, o cümlədən Cinayət və Cinayət-Prosessual məcəllələrində cinayət mühakimə icraatının elektron qaydada aparılması, elektron formada sübutlarla, onların toplanması, mühafizəsi və digər məsələlərlə bağlı edilmiş dəyişikliklərlə əlaqədar prosessual fəaliyyətdə tətbiqi zəruri əhəmiyyət kəsb edən təşkilati və hüquqi məsələlər diqqətə çatdırılıb.

Daha sonra Geniş Kollegiya iclasının gündəliyinə uyğun olaraq bir sıra aktual məsələlər müzakirə olunub. İclasda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanları rəhbərlərinin üçüncü yüksək səviyyəli görüşünün təşkili ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə Baş prokurorun müavini Heydər Məmmədov məruzə ilə çıxış edib.

İclasa yekun vuran Baş prokuror cari ildə prokurorluq orqanlarının qarşısında duran kifayət qədər məsuliyyətli məsələlərin həlli istiqamətində hər bir prokurorluq əməkdaşının öz bilik və təcrübəsini səfərbər edəcəyinə əminliyini ifadə edib.

# WUF13 günlərində Bakı məktəblərində dərslər necə keçiriləcək?

## *Paytaxtın beynəlxalq məclislər zamanı təhsil təcrübəsi*

**Bakının Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına ev sahibliyi etməsi sosial–iqtisadi müstəvidə də çevik idarəetmə modelinin növbəti nümayişi olacaq. Bu miqyasda beynəlxalq tədbirin təşkili ölkənin imicinə yeni çalarlar qazandırır, əməkdaşlıq platformalarını genişləndirir.**

Lakin bu prosesin fonunda ən həssas sahələrdən biri kimi təhsil sisteminin fasiləsizliyinin qorunması xüsusi diqqət tələb edir. Azərbaycanın təhsil siyasətində seçilən yanaşma xüsusi diqqətə tələb edir. Elm və təhsil naziri Emin Əmrullayevin Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) keçirildiyi dövrdə Bakı şəhərində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi məqsədilə imzaladığı əmr məhz bu məqama xidmət edir.



Nazirin göstərişinə uyğun olaraq, WUF13-ün keçiriləcəyi tarixlərdə paytaxtdakı təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilində bəzi dəyişikliklər ediləcək. Ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qrupları və ibtidai sinifləri üzrə mayın 18-dən 22-dək tətil (1-5 may tarixləri əvəzinə) müəyyən ediləcək. Bununla yanaşı, Pirallahı, Qaradağ, Suraxanı, Sabunçu və Nizami rayonları istisna olmaqla, Bakı şəhərinin digər rayonlarında fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin V-XI siniflərində dərslər mayın 18-dən 22-dək distant formada keçiriləcək. Eyni zamanda Bakı şəhərində yerləşən peşə, orta ixtisas və ali təhsil müəssisələrində də tədrisin mayın 18-dən 22-dək distant (məsafədən) formada təşkili əmrdə qeyd olunub.

Ümumiyyətlə, forum günlərində dərslərin distant formata keçirilməsi, eyni zamanda, təhsilin davamlılığını təmin edən strateji qərardır. Bu yanaşma nəticəsində şagirdlər proqramdan geri qalmır, əksinə, yeni tədris üsullarına uyğunlaşaraq əlavə bacarıqlar qazanırlar. Müasir təhsil mühitində rəqəmsal alətlər tədris prosesini tamamlayan və onu daha çevik edən əsas komponentlərdən biridir. Xüsusilə distant tədris modellərinin tətbiqi şagird və tələbələrin texnoloji bacarıqlarını inkişaf etdirməklə yanaşı, təhsil sisteminin dəyişən şəraitə uyğunlaşma qabiliyyətini də gücləndirir. Həmçinin atılan addımlar mahiyyət etibarilə qısa zaman kəsiyini əhatə edir və konkret situasiyaların tələblərinə uyğun şəkildə tənzimlənir. Əsas məqsəd isə tədris planının ümumi məzmununa və icrasına uzunmüddətli təsir göstərmədən, prosesin fasiləsizliyini təmin etməkdir.

Üstəlik, sözügedən proses ölkəmizin üçün heç də yad deyil. Belə ki, 2024-cü ilin noyabr ayında Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (COP29) 29-cu Konfransı da tədris günləri ilə üst-üstə düşürdü. Bu beynəlxalq tədbirlə əlaqədar Nazirlər Kabineti Bakı və ətraf rayonlarda yerləşən təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı əlavə qərarlar qəbul etmişdi. Qərara əsasən, ölkə üzrə ümumi təhsil müəssisələrində payız tətilinin qrafiki dəyişdirilmiş, istirahət müddəti noyabrın 12–22-nə keçirilmişdi. Bu dəyişiklik, əvvəlki dövrlərdə ənənəvi tətil bölgüsünün sabit saxlanılması praktikasından fərqli olaraq, böyük beynəlxalq tədbirin yaratdığı təşkilati və təhlükəsizlik tələblərinə uyğunlaşdırılmışdı.

Eyni zamanda, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yerləşən peşə, orta ixtisas və ali təhsil müəssisələrində dərs prosesi həmin günlərdə distant formatda təşkil olunmuşdu. Ənənəvi auditoriya dərsləri ilə müqayisədə bu model tədrisin fiziki fasilə olmadan rəqəmsal mühitdə davam etdirilməsini təmin etmişdi.

Elm və Təhsil Nazirliyinə isə tədris proqramlarının tam mənimsənilməsinin təmin edilməsi məqsədilə müvafiq təşkilati və metodiki tədbirlərin görülməsi tapşırılmışdı. Bu yanaşma klassik dərs sistemindən fərqli olaraq, çevik idarəetmə və rəqəmsal tədris mexanizmlərinin tətbiqinə əsaslanmışdı.

Digər tərəfdən, dünyaca məşhur "Formula 1"in Bakıda keçirilməsini də nümunə kimi göstərmək olar. Məsələn, ötən il "Formula 1" üzrə Azərbaycan Qran-prisi 19-21 sentyabr tarixlərini əhatə edirdi. Bu zaman zərfində yarışın keçirildiyi ərazi ətrafındakı tədris ocaqları – 6 nömrəli məktəb, 132-134 saylı təhsil kompleksi, Elitar gimnaziya və digər müəssisələrdə tədris 1 həftə distant formada təşkil edildi.

Onu da qeyd edək ki, bu məsələ təkcə ölkəmizə xas deyil. Dünyanın bir çox inkişaf etmiş ölkələrində Olimpiya oyunları, Avropa və Dünya çempionatları və ya iri dövlət sammitləri kimi beynəlxalq tədbirlər zamanı tədris sistemində müəyyən dəyişikliklər edilir. Bu dəyişikliklər əsasən nəqliyyat yükünü azaltmaq, təhlükəsizliyi təmin etmək və ya könüllülük fəaliyyətlərinə şərait yaratmaq məqsədi daşıyır.

Yəni Bakı da əvvəllər oxşar idarəetmə modelindən istifadə edərək müsbət nəticə əldə etməyi bacarmışdı. Paralel olaraq, şəhərdə iri beynəlxalq tədbirlərin keçirilməsi təhsil prosesində fasiləsizlik prinsipinin qorunması ilə müşayiət olunmuşdu.

***N.ABDALOV***
***XQ***

# Azərbaycanın sabitlik, sülh və tərəqqi formulu

## *Bu model ölkəmizə regionun lider dövləti mövqeyini qazandırıb*

**Müasir beynəlxalq münasibətlər sistemi normativ qeyri-müəyyənliyin dərinləşdiyi reallıqla üz-üzədir. Böyük güclər arasında rəqabətin sərtləşməsi, regional münaqişələrin uzanması və beynəlxalq hüququn selektiv tətbiqi fonunda "sülh" anlayışı getdikcə daha çox siyasi ritorikanın predmetinə çevrilir. Belə bir mürəkkəb konfiqurasiyada Azərbaycanın irəli sürdüyü sülh və tərəqqi formulu qlobal səviyyədə diqqətçəkən alternativ yanaşma kimi formalaşır.**



Formulu fərqləndirən əsas xüsusiyyət onun praktik mahiyyət daşımasıdır. Bakı üçün sülh iqtisadi inteqrasiya, kommunikasiya xətlərinin açılması, qarşılıqlı asılılığın yaradılması və siyasi dialoqun institusional əsaslara keçirilməsi deməkdir. Bəs Azərbaycanın təqdim etdiyi sülh modeli nə dərəcədə universaldır və onu digər münaqişə zonalarına tətbiq etmək mümkündürmü? Cavab birmənalı deyil. Çünki Bakı modeli spesifik regional reallıqlar üzərində qurulub. Amma onun əsas prinsipləri – su-



verenliyin bərpası, postmünaqişə reabilitasiyası və iqtisadi reinteqrasiya – qlobal səviyyədə tətbiq oluna biləcək normativ çərçivə yaradır. Amma bu cümlələrin arxasında daha dərin bir siyasi məntiq dayanır.

Məsələ burasındadır ki, sülhün arxasında dayanan məntiq Cənubi Qafqazın spesifik tarixi və geosiyasi reallıqları ilə məhdudlaşmır, əksinə, müasir beynəlxalq sistemdə münaqişələrin təkrarlanan struktur problemlərinə toxunur. Burada diqqətçəkən məqam suverenliyin bərpasıdır. Bu, beynəlxalq hüququn fundamental prinsiplərindən biri kimi qəbul olunsa da, praktikada çox vaxt yarımçıq və selektiv tətbiq edilir. Azərbaycan təcrübəsi bu prinsipi real siyasi və inzibati nəzarətin bərpası kimi ortaya qoyur. Yəni suverenlik faktiki idarəetmə reallığı kimi işlək hala gətirilir. Eyni məntiq postmünaqişə reabilitasiyasına da aiddir. Burada əsas diqqət dağıntıların regionun iqtisadi, institusional və sosial baxımdan yenidən funksionallaşdırılmasına yönəlir. Üçüncü mühüm element isə iqtisadi reinteqrasiyadır. Təcrübə göstərir ki, qarşılıqlı iqtisadi asılılıq formalaşmadıqca, sabitlik də dayanıqlı olmur. İqtisadi reinteqrasiya, eyni zamanda, regionların ümumi iqtisadi xəritəyə yenidən daxil edilməsini nəzərdə tutur. Nəticədə, münaqişədən sonrakı ərazilər iqtisadi dövriyyənin aktiv iştirakçısı kimi sistemə inteqrasiya olunur. Həmin yanaşmanın strateji mahiyyəti ondadır ki, sülh iqtisadi rasionalizm üzərində qurulan davamlı bir balans kimi formalaşır. Deməli, sülh iqtisadi zərurət statusu qazanır.

***

İndi sual daha da aktuallaşır: əgər bu prinsiplər doğrudan da universal xarakter daşıyırsa, niyə onlar hər yerdə eyni effektivliklə tətbiq edilmir? Cavab sadə görünməsə də, mahiyyət etibarilə siyasi iradə, güc balansı və geosiyasi imkanların hər regionda eyni olmaması ilə bağlıdır. Bəzi münaqişələrdə problem kimlik, ideologiya və tarixi travmalarla daha da mürəkkəbləşir. Digər hallarda xarici aktorların dərin müdaxiləsi yerli həll modellərinin manevr imkanlarını ciddi şəkildə məhdudlaşdırır və sülh prosesini kənar təsir obyektinə çevirir. Böyük güclərin, regional aktorların və ya beynəlxalq koalisiyaların prosesə dərin müdaxiləsi yerli tərəflərin qərarvermə müstəqilliyini zəiflədir. Belə şəraitdə sülh danışıqları müxtəlif maraq qruplarının təsir və balans oyunları arasında formalaşır. Nəticədə yerli həll modelləri kənar geosiyasi hesablamaların filtrindən keçərək formalaşır və bu da sülh prosesini daha mürəkkəb və qeyri-sabit edir. Məhz bu nöqtədə Azərbaycan modelinin fərqi aydın görünür. Bakı sülhü formalaşdıran və idarə edən aktor kimi çıxış edir.

***

Sülh modelinin yalnız münaqişə bitdikdən sonra işləyən bir "bərpa mexanizmi" olub-olmaması, yoxsa münaqişəni bitirən alətə çevrilməsi sualı əslində müasir diplomatiyanın ən kritik debatlarından biridir. Azərbaycan təcrübəsi bunu eyni prosesin fərqli mərhələləri kimi birləşdirir. Burada əsas məntiq ondan ibarətdir ki, siyasi və iqtisadi mexanizmlər paralel şəkildə işlədikdə sülh prosesi yönləndirən faktor kimi çıxış edir. Lakin bu yanaşmanın universal tətbiqi ilə bağlı ciddi məhdudiyyətlər də mövcuddur. Azərbaycan modeli "hazır resept" xarakteri daşımır və müxtəlif regionlara avtomatik şəkildə köçürülə bilməz. Onun işləməsi üçün müəyyən geosiyasi şərtlərin eyni anda mövcudluğu vacibdir. İlk növbədə, güc balansında real dəyişiklik imkanı olmalıdır ki, tərəflər status-kvonu yenidən nəzərdən keçirməyə məcbur qalsınlar. İkincisi, dövlət institutlarının funksionallığı minimum səviyyədə təmin olunmalıdır ki, qəbul edilən razılaşmalar icra mexanizminə çevrilə bilsin. Üçüncü vacib şərt isə regional aktorlar arasında, ən azı, minimal razılaşma mühitinin formalaşmasıdır. Tam konsensus olmasa belə, idarəolunan ziddiyyətlər sistemi sülhün işləməsi üçün zəruri çərçivə yaradır. Bütün bu şərtlər olmadan Azərbaycan modeli konseptual olaraq cəlbedici görünsə də, praktik müstəvidə tətbiq oluna bilən universal mexanizmə çevrilmir.

***

Geosiyasi reallıqdan strateji təşəbbüsə keçid isə Azərbaycan xarici siyasətinin xarakterik dönüş nöqtələrindən biridir. Burada əsas məqam ondan ibarətdir ki, Cənubi Qafqaz uzun illər "münaqişənin idarəedilmə aləti" kimi funksionallaşmış bir region olub. Postmünaqişə diplomatiyası bu keçidin ilk və mühüm sütununu təşkil edir. Müharibədən sonra əsas məsələ revanşist ritorikadan uzaqlaşaraq hüquqi çərçivəyə əsaslanan sülh gündəliyinin formalaşdırılmasıdır. Regional platformaların təşviqi isə bu strategiyanın ikinci qatını formalaşdırır. "3+3" kimi formatlar regiondaxili dialoqu kənar təsirlərin dominantlığından çıxararaq daha çox yerli aktorların iştirak etdiyi mexanizmə çevirməyi hədəfləyir.

İnfrastruktur diplomatiyası isə bu iki siyasi xəttin iqtisadi davamıdır. Zəngəzur dəhlizi kimi layihələr regionun iqtisadi xəritəsini yenidən kodlaşdıran strateji alətdir. İqtisadi layihələrdə əsas məqsəd qarşılıqlı asılılıq sistemini institusionallaşdırmaqdır. Yəni yollar, dəhlizlər və enerji xətləri, eyni zamanda, siyasi sabitliyin maddi bazasına çevrilir.

***

Diplomatik praqmatizm və çoxvektorlu balans Azərbaycanın xarici siyasətində sistemli davranış modelidir. Bu model klassik "soyuq müharibə" tipli ikili bölgü məntiqindən fərqli olaraq daha çevik və adaptiv xarakter daşıyır. Azərbaycanın Avropa ilə enerji təhlükəsizliyi sahəsində qurduğu tərəfdaşlıq strateji qarşılıqlı asılılıq mexanizmidir. Avropa üçün enerji şaxələndirilməsi nə qədər vacibdirsə, Azərbaycan üçün də bazarların sabitliyi və uzunmüddətli müqavilələr bir o qədər əhəmiyyətlidir. Rusiya ilə münasibətlər isə klassik "rəqabət və əməkdaşlıq paralelliyi" üzərində qurulub. Burada açıq qarşıdurmadan qaçma və eyni zamanda, regional reallıqların diktə etdiyi praqmatik dialoq mövcuddur. Çin ilə əməkdaşlıq isə daha çox qlobal iqtisadi transformasiya kontekstində "Bir kəmər, bir yol" təşəbbüsü ilə inteqrasiya olunmuş strateji iqtisadi xəttdir. Çoxvektorlu diplomatik arxitekturaya ABŞ ilə münasibətlər də ayrıca strateji ölçü əlavə edir. Azərbaycan–ABŞ əlaqələri əsasən enerji təhlükəsizliyi, regional sabitlik və təhlükəsizlik dialoqu kontekstində formalaşır. Bu münasibətlər Vaşinqton üçün Cənubi Qafqazda sabitlik faktoru, Bakı üçün isə beynəlxalq siyasi balansın mühüm elementi kimi çıxış edir.

Bəs belə çoxvektorlu siyasət uzunmüddətli perspektivdə nə qədər dayanıqlıdır? Cavab birbaşa və sadə deyil. Çünki bu modelin əsas riski böyük güclər arasında rəqabətin kəskinləşməsidir. Geosiyasi qütbləşmə dərinləşdikcə, "aralıq mövqe"ni qorumaq daha çətinləşir və neytral balans məkanı daralır. Azərbaycanın bu modeldə nisbi üstünlüyü onun funksional geoiqtisadi keçid məkanı olmasıdır. Yəni Azərbaycan özünü enerji dəhlizlərinin, nəqliyyat xətlərinin və regional bağlantıların mərkəzi kimi təqdim edir.

Beləliklə, Azərbaycanın təqdim etdiyi sülh və tərəqqi formulu göstərir ki, kiçik və orta dövlətlər belə düzgün strateji yanaşma ilə regional sistemləri dəyişdirmək gücünə malikdir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Aİ daxilində konsensus böhranı

## *Milli maraqlar və veto mexanizmi qurumun çevikliyini zəiflədir*



**Avropa İttifaqının gücü daim iqtisadi inteqrasiyada, ortaq bazarda, hüquqi mexanizmlərdə və siyasi koordinasiyada axtarılıb. Çünki həmin model İkinci Dünya müharibəsindən sonra parçalanmış Avropanın yenidən qurulması üçün effektiv hesab olunurdu. Müharibədən çıxmış qitə üçün əsas prioritet yeni qarşıdurmaların qarşısını almaq, iqtisadi asılılıqlar yaratmaqla sülhü möhkəmləndirmək idi. Eyni məntiqlə qurulan sistemdə təhlükəsizlik böyük ölçüdə ABŞ-ın çətiri altına verilmiş, Avropanın daxilində isə konsensus və kompromis mədəniyyəti əsas prinsipə çevrilmişdi. Uzun illər bu yanaşma işləyirdi. Lakin dünya dəyişdikcə, modelin çevikliyi və operativliyi azalmağa başladı.**

Bugünkü Avropa İttifaqının üzləşdiyi əsas çətinliklərdən biri onun daxili vahidlik prinsipinin praktik siyasətdə tez-tez pozulmasıdır. Daha dəqiq desək, 27 üzv dövlət sadəcə kağız üzərində birləşib. Reallıqda isə milli maraqlar, siyasi fərqlər, iqtisadi prioritetlər və geosiyasi yanaşmalar birliyi zəiflədir. Xüsusilə xarici siyasət və təhlükəsizlik məsələlərində parçalanma daha açıq görünür. Ukraynaya yardım, Rusiyaya qarşı sanksiyalar, Yaxın Şərqdəki münaqişələrə münasibət, enerji təhlükəsizliyi və müdafiə məsələləri ətrafında yaşanan fikir ayrılıqları göstərir ki, Aİ daxilində vahid strateji düşüncə hələ formalaşmayıb. Maraqlıdır ki, artıq bu reallıq açıq şəkildə ifadə edilir. Danimarkanın keçmiş Baş naziri və NATO-nun sabiq Baş katibi Anders Foq Rasmussen "Politico"ya bildirib ki, Avropa bu gün daimi böhran rejimindədir və onun qərar qəbuletmə arxitekturası buna uyğun dizayn edilməyib.

Əslində, problem təkcə qərarların gec qəbul olunması ilə bitmir. Daha ciddi məsələ odur ki, bəzən qərar vermək üçün lazım olan siyasi iradə ortaya çıxmır. Konsensus mexanizmi nəzəri olaraq bütün üzvləri eyni masa arxasında saxlasa da, böhran anlarında bu mexanizm operativ reaksiya yerinə blokada yaradır. Yəni bir ölkənin vetosu bütöv ittifaqın işini dayandıra bilir. Son illər Avropa Şurasının sammitləri bunun çoxsaylı nümunələrini ortaya qoyub. Liderlər müharibələr, enerji böhranı, iqtisadi təzyiqlər və təhlükəsizlik riskləri fonunda təcili qərarlar verməli olduqları halda, sadəcə, texniki detalları müzakirə edirlər. Bu da tez-tez tənqid hədəfinə çevrilir. Məsələn, Yaxın Şərqdəki gərginliyin Avropanın enerji təchizatına risk yaratdığı zamanda karbon kvotalarının incə mexanizmləri üzərində saatlarla mübahisə aparılması məhz reallığın simvoluna çevrilmişdi.

Ümumən, İttifaqın daxilində vahidlik prinsipi siyasi mədəniyyət kimi də tam oturuşmayıb. Şərqi Avropa ölkələrinin təhlükəsizlik yanaşması ilə Qərbi Avropanın prioritetləri fərqlənir. Baltikyanı ölkələr Rusiya təhlükəsini əsas amil kimi görür. Cənubi Avropa dövlətləri miqrasiya və enerji sabitliyini daha önəmli sayır. Fransa strateji muxtariyyət anlayışını önə çəkir. Almaniya isə çox vaxt daha ehtiyatlı iqtisadi rasionalizm nümayiş etdirir. Bu fərqli baxışlar ortaq strateji xəttin formalaşmasını çətinləşdirir. Məhz buna görə vahidlik prinsipi deklarativ xarakter daşıyır. Liderlər ortaq bəyanatlar qəbul etsələr də, həmin bəyanatların arxasında bəzən real siyasi birlik olmur.

Mənzərə Ukrayna məsələsində xüsusilə nəzərə çarpır. 90 milyard avroluq yardım paketinin aylarla blokda qalması Aİ daxilində siyasi koordinasiya böhranının göstəricisi idi. Kiyev resurs gözləyərkən Brüsselin uzun danışıqlarda ilişməsi Avropanın geosiyasi güc kimi imicinə zərbə vurdu. Eyni hal sanksiya siyasətində də müşahidə edildi. Ona görə də Anders Foq Rasmussenin qeyd etdiyimiz "Avropanın qərarvermə arxitekturası daimi böhran rejiminə uyğun deyil" fikirləri məhz bu reallığı ifadə edir. Çünki böhranlar artıq norma halına gəlib. Öncəki dövrdə maliyyə böhranı vardı, sonra pandemiya, ardınca müharibə, enerji şoku, Yaxın Şərq gərginliyi, transatlantik qeyri-müəyyənlik...

Ötən həftə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen beynəlxalq məsələlər üzrə yekdillik tələbinin "sistemli blokada" yaratdığını deyərək milli veto hüququnun, xüsusilə xarici siyasətdə ləğvinə çağırıb. Paradoks da buradadır. Birliyi qorumaq üçün yaradılmış mexanizm bəzən birliyin özünü zəiflədir. Bununla belə, məsələ veto hüququnun ləğvi ilə yenə də həll olunmur. Üzv dövlətlər Brüsselə səlahiyyət verməyə ehtiyatla yanaşırlar. Çünki milli suverenlik hələ də həssas mövzudur. Xüsusilə müdafiə və xarici siyasət sahəsində bu həssaslıq daha güclüdür. Nəticədə, islahat zərurəti qəbul olunsa da, islahatın özü ləngiyir. Belə olan halda, Avropa İttifaqının klassik paradoksu yaranır. Daha dəqiq desək, hamı dəyişiklik istəyir, amma heç kim dəyişiklikdən doğacaq siyasi riskləri öz üzərinə götürmək istəmir. Nəzərə alınmalıdır ki, vahidlik ortaq risk qavrayışı, ortaq prioritetlər və strateji məsuliyyət deməkdir. Onlar olmayanda formal konsensus real birlik yaratmır. Bu gün Aİ məhz bu sınaqdan keçir. Geosiyasi gərginlik artdıqca, bu sınaq daha da sərtləşəcək. Çünki gələcək böhranların daha mürəkkəb olacağı gözlənilir. Enerji təhlükəsizliyi, texnoloji rəqabət, müdafiə xərcləri, iqtisadi dayanıqlılıq və qlobal güc balansı ilə bağlı təzyiqlər artacaq. Əgər problem həllini tapmasa, ləng və parçalanmış qərarvermə modeli davamlı ola bilməyəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Hüseyn SULTANLI,**
**Beynəlxalq Münasibətlərin**
**Təhlili Mərkəzinin məsləhətçisi**

Avropa İttifaqına üzv dövlətlər arasında konsensusun olmaması dövlət davranışına dair anlayışımızla birbaşa bağlıdır. Aİ fəaliyyəti üzv ölkələrin köklü şəkildə fərqlənən mövqeləri səbəbindən çox vaxt ciddi şəkildə ləngiyib. Bu, həm Ukrayna kimi təcili reaksiya tələb edən xarici böhranlara, həm də müdafiə sektoru üzrə uzunmüddətli təşəbbüslərə aiddir. Nəticədə, Aİ cavab mexanizmlərində strateji qabaqlama imkanından məhrum olub, Brüssel isə tez-tez uzun sürən danışıqlar prosesində ilişib qalaraq real siyasi təsir imkanlarını məhdudlaşdırıb.

Problemin mərkəzində dövlət suverenliyi ilə beynəlxalq institutların rolu arasındakı mürəkkəb münasibət dayanır. Aİ nümunəsində üzvlük müəyyən milli qanunları üstələmək, üzv ölkələr adından ticarət sazişləri bağlamaq və kənd təsərrüfatı kimi sahələrdə milli sənayelərə təsir göstərən sektorial siyasətlər müəyyən etmək imkanı ilə müşayiət olunur. Bu xüsusiyyət Aİ-ni digər beynəlxalq təşkilatlardan fərqləndirir və alimlər onu üzv dövlətlərə birbaşa təsir göstərən məsələlərdə real qərarvermə səlahiyyəti olan "supramilli institut" kimi xarakterizə edirlər. Lakin bu xüsusiyyət xarici siyasət məsələlərinə tam şəkildə şamil edilmir. Aİ səviyyəsində hər hansı mühüm xarici siyasi qərar Aİ Şurasında yekdil təsdiq tələb edir. Bu razılıq olmadan sanksiyaların tətbiqi və ya missiyaların başlanması kimi addımlar mümkün deyil. Ona görə də üzv dövlətlərin milli maraqları və prioritetləri ilə Aİ institutlarının imkanları arasında gərgin qarşılıqlı təsir struktur xarakterli problem olaraq qalır.

Xarici siyasətdə milli veto hüququnun ləğvi kimi təkliflər müzakirə olunsa da, bunun praktikada reallaşmasını təsəvvür etmək çətindir. Konsensusun Aİ siyasətinin real hissəsinə çevrilməsi üçün üzv dövlətlərin mövqelərinin əsaslı şəkildə yaxınlaşdığı və bunun uzun müddət davam etdiyi mühit formalaşmalıdır.

# Dini fırıldaqçılıq və məğlubların növbəti antisülh oyunu

## *Yaxud dinsizlərin saxta müqəddəslik sığınacağı barədə bir neçə söz*

**Məsələnin qoyuluşu konkretdir: Azərbaycanla Ermәntan arasında sülhü istəməyən qüvvələr mənəvi məsələlər üzərində spekulyasiyaya baş vurublar. Yəni onlar məqsədlərinə çatmaq üçün hər istiqamət üzrə çalışdıqları kimi, bu sahəni də boş qoymurlar. Amma durumun xüsusi tərəfi var.**



Mahiyyət budur ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və onun ətrafındakı yeddi rayon Ermənistan tərəfindən işğal olunmuş və işğal 30 ilə yaxın davam etmişdi. BMT Təhlükəsizlik Şurasının təcavüzü pisləyən, erməni qoşunlarının dərhal əraziləri tərk etməsinə çağıran 4 qətnaməsi, eləcə də digər xarici qurumların çoxsaylı sənədləri fikrimizin sübutudur. 2020-ci ilin 44 günlük müharibəsində isə Azərbaycan nəinki haqqı çatanı özünə qaytardı, eyni zamanda, beynəlxalq hüququ bərpa etdi.

Hazırda ölkəmiz işğaldan azad olunmuş torpaqlarda geniş bərpa-quruculuq işləri aparır. Nəticədə yeni tikililər inşa olunmaqla yanaşı, köhnələri bərpa olunur. O cümlədən müqəddəs yerlər də. O yerlər ki, həqiqətən tarixi əhəmiyyəti daşıyırlar. Bəribaşdan deyək ki, Xankəndidə 2006-cı ildə tikilmiş bir kilsə bu mənada fərqlənmir və fərqlənə bilməz.

Ümumən, Azərbaycan dövləti tərəfindən dünyanın mədəni irs siyahısında yer alan heç bir ziyarətgah və dini məbəd sökülmür və belə bir halın yaşanması əsla mümkün deyil. Əgər hansısa tarixi tikilini, yaxud dini abidəni dağıtmaq niyyəti olsaydı, ilk növbədə, Bakının mərkəzindəki erməni kilsəsi yerlə-yeksan edilərdi.

Bəli, hazırda Ermənistan müxalifəti, habelə onun xaricdəki, xüsusən Rusiyadakı havadarları Qarabağdakı erməni mədəni mirasının, müqəddəs yerlərinin dağıdıldığına dair vay-şivən qaldırıblar. Daha doğrusu, həmişə işə saldıqları ritorikaya yenidən baş vurublar. Məsələn, Rusiyanın Erməni İttifaqı adlandırılan təşkilat yekə bir bəyanat yayıb.

Əlbəttə, bəyanat müəllifi olan, Rusiyanın Cənubi Qafqazdakı jandarm varlığını saxlamasını arzulayan xəstə təfəkkür sahiblərinin dirijor çubuğu ilə idarə olunan sərsəm düşüncəli şovinistlərin hansı məqamları qabartdıqları önəmli deyil. Çünki belələrinin aydın məqsədi var. Məqsədi lap əvvəldə vurğuladıq, həmçinin məsələnin digər xüsusi tərəfinin olduğunu diqqətə çatdırdıq. Keçək məhz həmin tərəfə.

***

Məlumdur ki, Ermənistan iqtidarı ölkədəki kilsə amilinə zərbə vurmaqdadır. O amilə ki, sanki qara yaraya çevrilib. Proses artıq neçə illərdir davam edir. Ancaq hazırda, bir növ, bıçaq sümüyə dirənib. Çünki baş nazir Nikol Paşinyan və komandasının üzvləri yaxşı bilirlər ki, müxalif qüvvələrin dayağı kilsədir.

Tarix göstərir ki, erməni kilsəsi yalnız ruhani missiya ilə məhdudlaşmayıb, siyasətə, daha doğrusu, terrora və məkrə bulaşıb. Onun mahiyyətində dayanan budur. Hazırda Paşinyana qarşı çıxanlar həmin məkr düşüncəsini yayanlardır. Yəni kilsə məhz belələrinin tapındıqları istinadgahdır. Axı bəzən vətənpərvərlik alçaqların son sığınacağı olur. İndiki durumda din də hay siyasi populistlərinin istinadgahıdır. Halbuki, onların ruhaniyyətdən və bəşəri dəyərlərdən çox-çox uzaq olduqlarının sübuta ehtiyacı yoxdur.

Sözümüz ondadır ki, erməni iqtidarının antikilsə kursunda bəlli, özü də aşkar motiv var. Paşinyan və tərəfdarları "qara yaranı" kəsib atmaq istəyirlər. Müxalifət isə Nikolu, az qala, dinin düşməni qiyafəsində təqdim edir və müvafiq olaraq, onu Ermənistanın mənəvi dəyərlərinə, adət-ənənələrinə xəyanətdə günahlandırır. Beləliklə, əks düşərgə iqtidarı sadə, inanclı hayların gözündən salmaq yolu tutur və hesab edir ki, bu ritorika ona seçkidə uğur qazandıracaq.

Ancaq sözügedən ritorikanı, belə demək mümkünsə, qüvvətləndirmək lazımdır. Bu yerdə dövriyyəyə "Azərbaycanın erməni mədəni irsinə təcavüzü" nağılı girir. Deməli, bütün daşlar yerinə oturur. Tam əminliklə deyə bilərik ki, hazırda sözügedən nağıl həm də sülh yolunda olan Paşinyan iqtidarını qarşıdan gələn parlament seçkilərində zəif salmaq məqsədi daşıyır. Təxminən belə: baş nazir erməni kilsələrini dağıdan Azərbaycanla barış istəyir və bu şəxsin seçki qalibi olmasına imkan tanımaq yolverilməzdir.

Hay müxalifəti və onun xaricdəki havadarları hesab edirlər ki, bu cür təbliğat aparmaqla inanclı elektoratı iqtidardan üz döndərmək mümkündür. Yanaşmanın nə dərəcədə uğur qazandıracağını zaman göstərəcək. Amma uğura spektik yanaşılmasını zəruri edən bəzi məqamlar var. Məsələ ondadır ki, erməni cəmiyyəti həqiqəti görür və kilsənin hazırkı stukturunun təmsilçilərindən diksinir. Eynilə ölkənin keçmiş prezdentləri Robert Koçaryandan və Serj Sarkisyandan diksindiyi kimi. Fikrimizin çoxsaylı sübutları var...

***

Dünya da həqiqəti görməlidir. Elə başlıca prinsipi də. Prinsip isə budur ki, öz torpaqlarında abadlıq və quruculuq işləri aparan Azərbaycan dövləti tarixi və dini mahiyyət daşıyan abidəni yox, təməlində erməni separatizminə dəstək kimi sərsəm ideoloji motiv dayanmış bütün tikililəri yelə bir edəcək. Üstəlik, daha bir prinsip var. Azərbaycan hakimiyyəti ölkənin ərazilərində inşası özü ilə razılaşdırılmadan ərsəyə gəlmiş bütün tikililəri sökmək səlahiyyətinə malikdir. Heç kəs separatçılardan kilsə, məbəd, bina yaxud nə isə qondarmağı xahiş etməmişdi, özbaşınalıq isə yolverilməzdir. Hər şey bu qədər sadədir.

Digər tərəfdən, bu gün Azərbaycanı qınayanlar çox da uzaq olmayan keçmişə nəzər salmalıdırlar. Daha doğrusu, güzgüyə baxıb özlərini görməlidirlər. Nəzərə almalıdırlar ki, işğal illərində azərbaycanlılara məxsus məzarlıqları sistemli şəkildə təhqir edənlər onlar olmuşdular. Ağdamda, Füzulidə, Zəngilanda, Kəlbəcərdə və Cəbrayılda onlarla qəbiristanlıq dağıdılmış, qəbirlər qazılıb, daşlar oğurlanmışdı. Bundan başqa, bəzi məscidlər donuz və ya inək saxlanılan yerlərə çevrilmişdi ki, bu, dini təhqirin ən ağır formasıdır. Həmçinin işğal illərində alban məbədlərinin mənimsənilməsi və saxtalaşdırılması aparılmış, bu məbədlər erməniləşdirilmiş, onların orijinal izləri silinmiş və ya dəyişdirilmişdi. Yəni yaxşı olar ki, bəziləri vay-şivən qaldırmaqdansa, bar-bar bağırmaqdansa, məhz bu reallığı düşünsünlər.

Sonda bir məqamı da diqqətə çatdıraq. Zaman-zaman erməni iqtidarı və ona yaxın çevrələr tərəfindən Azərbaycanın Qarabağda və digər yerlərdə erməni mədəni və dini mirasını məhv etdiyinə dair təbliğat aparılıb. Hətta bir vaxtlar məsələyə dair beynəlxalq məhkəmələrə müraciətlərin edildiyini də görmüşük. Rəsmi İrəvan istəyib ki, beynəlxalq məhkəmə, tutalım, Ağdamdakı hansısa tikilini erməni abidəsi olaraq təsdiqləsin. Aydın idi ki, bu gediş perspektivə hesablanmışdı. Axı sadə məntiq var: torpaq üzərindəki tikili ermənilərə məxsusdursa, həmin torpağa da iddia etmək mümkündür.

Hazırda Paşinyan iqtidarı bu sayaq ritorikadan uzaqdır. Ona görə uzaqdır ki, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyır, tanımaqdan başqa yolu yoxdur. Erməni müxalifəti və havadarlarının Qarabağdakı erməni mədəni irsi oyununun mahiyyətində isə ərazi iddiası dayanır. Deməli, bir daha aydın olur ki, bu qaragüruh hakimiyyətə gəlsə, müharibə qaçılmazdır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Aİ – Gürcüstan: inteqrasiyadan sanksiyaya

**Avropa İttifaqı ilə Gürcüstan arasında münasibətlər ən mürəkkəb və ziddiyyətli mərhələsinə daxil olub. Bir zamanlar Şərq Tərəfdaşlığı çərçivəsində inteqrasiyanın "uğur hekayəsi" kimi təqdim edilən Tbilisi bu gün Brüssellə açıq siyasi qarşıdurma həddinə yaxınlaşan münasibətlər modeli ilə üz-üzədir. Münasibətlərin bu səviyyədə gərginləşməsi təsadüfi deyil. Burada həm daxili siyasi transformasiyalar, həm də dəyişən geosiyasi reallıqlar mühüm rol oynayır.**



Aİ-nin Gürcüstana qarşı sərt mövqe tutmasının əsas səbəbi rəsmi Tbilisinin qəbul etdiyi qanunvericilik dəyişiklikləri ilə bağlıdır. Xüsusilə "xarici təsirin şəffaflığı" və "ailə dəyərlərinin müdafiəsi" ilə bağlı aktlar Brüsseldə ciddi narahatlıq doğurub. Avropa institutları bu addımları vətəndaş cəmiyyətinin zəiflədilməsi və postsovet məkanında artıq presedentləri olan idarəçilik modellərinə yaxınlaşma kimi qiymətləndirir. Bu çərçivədə maliyyə yardımlarının dayandırılması və vizasız rejimə məhdudiyyətlərin tətbiqi sadəcə texniki qərarlar deyil, siyasi siqnallardı. Xüsusilə diplomatik və xidməti pasport sahibləri üçün vizasız rejimin ləğvi Aİ-nin Gürcüstana münasibətdə yeni mərhələyə keçdiyini göstərir. Bu addımın sıravi vətəndaşlara da şamil olunması ehtimalı isə vəziyyəti daha da pisləşdirəcək. Belə bir ssenari Gürcüstan cəmiyyətində Avropaya inteqrasiyanın real faydaları ilə bağlı suallar doğuracaq, iqtisadi və sosial sahələrdə ciddi çətinliklər yaradacaq. Tələbələr, kiçik biznes nümayəndələri və əmək miqrantları üçün Avropaya çıxış imkanlarının məhdudlaşdırılması ölkənin uzunmüddətli inkişaf trayektoriyasına da təsir göstərəcək. Rəsmi Tbilisi isə baş verənləri fərqli prizmadan şərh edir.

*(ardı 5-ci səhifədə)*

**Son günlər beynəlxalq hüquq müdafiə təşkilatlarının və BMT-nin İnsan Hüquqları Şurasının diqqət mərkəzində olan səs-küylü məsələlərdən biri Şotlandiya vətəndaşı, siqh əsilli bloger və insan hüquqları müdafiəçisi Caqtar Sinq Cohalın Hindistanda qeyri-qanuni həbsdə saxlanılmasıdır. Artıq bununla bağlı BMT-nin 10 müstəqil eksperti Cohalın dərhal azad edilməsi tələbi ilə birgə bəyanat yayıb. 3089 gün (səkkiz ildən çox) həbsdə olan Caqtar Sinq Cohalın məhkəmə işinin hələ də yekunlaşmaması Hindistanın antiterror qanunvericiliyindən siyasi alət kimi istifadə etdiyini göstərir.**

# Yeni Dehlinin "cəza mexanizmi"

## *Hindistan hökumətinin icma cinayətləri yeni müstəmləkəçilik təfəkküründən qaynaqlanır*

2017-ci ilin noyabrında Hindistana öz toyuna gələn Caqtar Sinq Cohal Pəncab polisi tərəfindən mülki geyimli şəxslər vasitəsilə qaçırılaraq həbs edilib. Ona qarşı sağçı hindu liderlərinə qarşı terror aktlarının planlaşdırılmasında iştirak və "Xalistan Azadlıq Qüvvələri" (KLF) adlı qruplaşmanı maliyyələşdirmək kimi ağır ittihamlar irəli sürülüb. Lakin bu ittihamların hüquqi əsasları son dərəcə zəif olub. Cohal ilk 10 gün ərzində vəkili və ailəsi ilə əlaqədən tamamilə məhrum edilib. Bu müddət ərzində o, elektroşok cəzasına məruz qalıb, pis şəraitdə saxlanılıb və ölümlə hədələnib. İttihamların böyük qismi məhz işgəncələr altında alınmış və məhkəmədə hüquqi qüvvəsi olmayan "etiraflara" əsaslanır.




Ötən il martın 4-də Pəncabın Moqa dairə məhkəməsi 7 illik araşdırmadan sonra Cohala qarşı irəli sürülən terror ittihamları üzrə ona bəraət qazandırdı. İttiham tərəfi bu günə qədər hər hansı sübut, dəlil, elektron yazışma, bank köçürməsi və ya videogörüntü təqdim edə bilməyib. Bununla belə, bəraət almasına baxmayaraq, Hindistanın Milli İstintaq Agentliyi (NIA) eyni məzmunlu saxta "etiraflara" əsaslanan əlavə 8 oxşar iş açaraq onu həbsdə saxlamağa davam edir.

Cohalın hədəf seçilməsi təsadüfi deyil. O, siqh icmasının fəal üzvü və beynəlxalq səviyyədə tanınmış blogerdir. Onun əsas fəaliyyəti Hindistan hökumətinin siqh icmasına qarşı həyata keçirdiyi sistemli zorakılıqları (xüsusən 1984-cü il hadisələrinin ardınca yaşananları) işıqlandırmaq, etnik və dini azlıqlara qarşı tətbiq edilən ayrı-seçkilik siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq və dövlət səviyyəsində baş verən insan hüquqları pozuntularını sənədləşdirmək olub. Bu baxımdan, Cohalın həbsi Hindistan dövlətinin fikir azadlığına qarşı dözümsüzlük siyasətinin tərkib hissəsidir.

Ümumiyyətlə, Yeni Dehli son illər vətəndaş cəmiyyəti fəallarına, jurnalistlərə və azlıqların hüquqlarının müdafiəçilərinə qarşı UAPA (Qanunsuz Fəaliyyətlərin Qarşısının Alınması Aktı) kimi sərt qanunlardan istifadəni intensivləşdirib. Cohalın davası göstərir ki, dövlət beynəlxalq rəyə baxmayaraq, siyasi fəalları susdurmaq üçün məhkəmə sisteminin ləngliyindən qəsdən silah kimi istifadə edir. Hindistan Milli Cinayət Qeydiyyatı Bürosunun (NCRB) statistikası göstərir ki, 2014-2020-ci illər arasında bu qanunla 10.552 nəfər həbs edilsə də, onlardan yalnız 2,2 faizinin günahı məhkəmədə sübuta yetirilib. Bu isə onu göstərir ki, bu ölkədə qanun cinayətkarları cəzalandırmaqdan daha çox, insanları uzun illər məhkəmə hökmü olmadan həbsdə saxlamaq məqsədi daşıyır. Xüsusilə 2019-cu ildə edilən düzəlişdən sonra hökumətə hər hansı bir fəalı və ya jurnalisti məhkəmə qərarı olmadan birbaşa "terrorçu" elan etmək səlahiyyəti verilib. Sözügedən qanun çərçivəsində girov müqabilində azadlığa çıxmaq faktiki olaraq qeyri-mümkünə çevrilib və istintaq orqanlarına şəxsi ittiham irəli sürmədən 180 gün ərzində dəmir barmaqlıqlar arxasında saxlamaq icazəsi verir ki, bu da beynəlxalq hüquq normalarına tamamilə ziddir.

Birləşmiş Millətlər Təşkilatına məxsus İnsan Hüquqları Şurasının İşgəncələrin qarşısının alanması sahəsində ixtisaslaşmış xüsusi məruzəçiləri tərəfindən səsləndirilən bəyanatlar məsələnin beynəlxalq əhəmiyyətini bir daha təsdiqləyir. Son hesabatlara görə, Cohalın saxlanıldığı Tihar həbsxanasında vəziyyəti daha da ağırlaşıb. Onun ailə üzvləri ilə əlaqəsi məhdudlaşdırılıb, gigiyenik vasitələrə çıxışı məhdudlaşdırılıb və hazırda o, təkadamlıq kamerada saxlanılır. Cohal Böyük Britaniya (Şotlandiya) vətəndaşı olduğu üçün bu məsələ rəsmi Londonu da narahat edir. 2025-ci ilin mayında 100-dən çox britaniyalı deputat ölkənin XİN başçısı Deyvid Lemmiyə müraciət edərək Cohalın bəraət qərarından sonra onun dərhal azad edilməsi üçün təcili diplomatik tədbirlər görməyə çağırıb.

***

Xüsusilə qeyd olunmalıdır ki, neokolonializmə qarşı mübarizə və hüquqları pozulmuş xalqların səsinin beynəlxalq arenada eşidilməsi istiqamətində çıxış edən Bakı Təşəbbüs Qrupunun (BTQ) bu məsələni qabartması Azərbaycanın beynəlxalq insan hüquqları müstəvisində oynadığı fəal rolun təzahürüdür. Bu, həm də ölkəmizin qlobal insan hüquqları arxitekturasında prinsipial mövqeyə malik olduğunu deməyə əsas verir. Azərbaycan həm Qoşulmama Hərəkatına uğurlu sədrlik dövründə, həm də BTQ vasitəsilə ikili standartlardan əziyyət çəkən fəalların, repressiyaya məruz qalan etnik və dini azlıqların universal tribunasını yaradır.

Caqtar Sinq Cohalın işi artıq qlobal insan hüquqları mexanizmlərinin effektivliyinin, bir növ, sınağına çevrilib. Əgər bir dövlət terrorla mübarizə adı altında bəraət almış və cinayəti sübuta yetirilməyən şəxsləri illərlə həbsdə çürüdürsə, bu, həmin ölkədə dövlət maşınının cəzalandırma institutunun fəaliyyətinə sübutdur. Beynəlxalq ictimaiyyətin və xüsusilə Britaniya diplomatiyasının bu məsələdə atacağı sonrakı addımlar isə Hindistanın gələcəkdə siyasi opponentlərlə necə davranacağına birbaşa təsir edəcək.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Züriyyə QARAYEVA,**
**politoloq**

Bu məsələ beynəlxalq hüquq və dövlət suverenliyi arasında klassik ziddiyyətin növbəti nümunəsi kimi çıxış edir. BMT İnsan Hüquqları Şurası ekspertlərinin bəyanatı göstərir ki, məsələ artıq təkcə bir şəxsin hüquqları çərçivəsindən çıxaraq sistemli hüquq pozuntularına çevrilib. Xüsusilə məhkəmə prosesinin illərlə uzanması, vəkillə əlaqənin məhdudlaşdırılması və işgəncə iddiaları beynəlxalq hüququn əsas prinsipləri ilə ziddiyyət təşkil edir. Əgər doğrudan da 2025-ci ildə bəraət qərarı verilibsə, buna baxmayaraq saxlanmanın davam etməsi hüquqi legitimliyi ciddi şəkildə sual altına alır və bu, Hindistanın hüquq sisteminə beynəlxalq etimadı zəiflədə bilər.

Digər tərəfdən, Hindistan kimi böyük və mürəkkəb təhlükəsizlik mühiti olan dövlətlər terrorizmə qarşı mübarizə arqumentini ön plana çəkərək belə halları milli təhlükəsizlik çərçivəsində əsaslandırmağa çalışır. Problem ondadır ki, antiterror qanunvericiliyinin geniş və elastik tətbiqi bəzən siyasi və ya etnik həssas qruplara qarşı alətə çevrilə bilər. Bu isə xüsusilə siqh icması kimi azlıqların hüquqlarının qorunması məsələsini daha da həssas edir. Nəticə etibarilə, bu hadisə qlobal səviyyədə bir sualı yenidən gündəmə gətirir: təhlükəsizliklə insan hüquqları arasında balans harada qurulmalıdır və bu balans pozulduqda beynəlxalq mexanizmlər nə dərəcədə təsirli ola bilir?

# Azərbaycan – Türkiyə hərbi alyansı qardaşlığın dayağını möhkəmləndirir

## *Müdafiə diplomatiyamız regionda strateji mövqeyimizi yüksəldir*




**Azərbaycan və Türkiyə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq, Türkiyənin Qars şəhərində baş tutan Heydər Əliyev-2026 birgə təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib. Bu manevrləri orduların formalaşmaqda olan hərbi-siyasi birliyinin nümayişi saymaq olar. Regional təhlükəsizlik sistemlərinin mütəmadi sınaqdan çıxarılması kənar təhdidlərin qarşısının alınması üçün əsas amilə çevrilib. Silahlı qüvvələrin nümayiş etdirdiyi uzlaşma Ankara və Bakının xarici siyasət strategiyalarının tam şəkildə üst-üstə düşməsini sübut edir. Manevrlərin coğrafi məkanı olaraq məhz Qarsın seçilməsi 1921-ci il tarixli sazişin 2026-cı il reallıqlarında fiziki, həmçinin strateji baxımdan aktual qaldığını göstərir.**

Antalya Diplomatiya Forumu çərçivəsində səsləndirilən bəyanatlar cərəyan edən hərbi fəaliyyətlərin siyasi-nəzəri əsasını tam şəkildə formalaşdırır. Forumda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qlobal səviyyədə mövcud olan güc dəyişikliklərini təhlil edərək olduqca vacib doktrinal ismarışlar verdi. O, çıxışında Türkiyənin artıq milli hərbi texnologiyalar istehsal edən güc mərkəzinə çevrildiyini, müdafiə sənayesinin Türkiyənin xarici siyasətində əsas alətlərdən hesab edildiyini, bu sahədə regional tərəfdaşlarla, xüsusilə Azərbaycanla müştərək layihələrin genişləndirilməsinin prioritet olduğunu vurğulayıb. Söylənilən fikirlər dövlət strategiyasının rəsmi elanıdır. Müasir münaqişələrin xarakteri qabaqcıl texnologiyalara malik olmağı tələb edir. Müdafiə sənayesinin inteqrasiyası vasitəsilə tərəflər xarici

Müstəqil qərar qəbuletmə mexanizmi məhz silahlanma və texnoloji infrastrukturun yad təsirlərdən izolyasiya edilməsi nəticəsində əldə olunur. Orduların peşəkarlıq səviyyəsinin artırılması mütəmadi qaydada elmi-nəzəri təhlillərlə dəstəklənir.

"Yüksək Səviyyəli Müşahidəçi Günü" çərçivəsində icra eilən taktiki tapşırıqlar bilavasitə siyasi rəhbərliklərin qarşıya qoyduğu hədəflərin reallaşmasını ifadə edir. Müasir pilotsuz uçuş aparatlarının, rəqəmsal komanda idarəetmə sistemlərinin, kəşfiyyat monitorinq cihazlarının müştərək fəaliyyət planına daxil edilməsi regionun təhlükəsizlik memarlığını yeniləyir. Tərəflər açıq şəkildə bəyan edirlər ki, kənar təzyiqlər heç zaman qəbul edilməyəcək, habelə milli maraqların müdafiəsi üçün ən sərt addımların atılması ehtimalı tam realdır.



asılılıqları sıfıra endirərək suveren qərarların qəbulu üçün manevr məkanını əhəmiyyətli dərəcədə genişləndirirlər.

Müdafiə sənayesi sektorunun xarici siyasət vasitəsinə çevrilməsi dövlətlərin rəqabət mühitində əldə etdiyi ciddi çəkindirmə prosesidir. Silah ixracatçısından texnologiyanı inkişaf etdirən mərkəzə dönmə prosesi siyasi müstəqilliyin yüksək formasıdır. Ankara və Bakı koordinasiyalı addımlar ataraq hərbi infrastrukturun tam assimilyasiyasını həyata keçirir, eyni standartlar əsasında fəaliyyət göstərən ordu birləşmələri yaradırlar. Təlimlərin ardıcıl xarakter daşıması kadrların operativ reaksiyalarını eyni tezliyə gətirir. Qarsda həyata keçirilən ssenarilər şərti düşmənə qarşı müştərək planlaşdırma, strateji kəşfiyyatın paylaşılması, habelə asimmetrik təhdidlərin zərərsizləşdirilməsini ehtiva edir.

Cənubi Qafqaz, Yaxın Şərq, həmçinin Qara dəniz hövzəsində müşahidə edilən xroniki münaqişələr və nizamsızlıq şəraitində sabitlik adasının formalaşdırılması mühüm siyasi tapşırıqdır. Antalya Diplomatiya Forumu gələcəyə hesablanmış proqnozların və xarici siyasət prioritetlərinin elan edildiyi intellektual mərkəz kimi məhz mövcud gərginliklərin idarə olunması metodologiyasını təklif edib. Türkiyənin xarici siyasət doktrinası potensial böhranların idarə edilməsi, lazımi anda qətiyyətli hərbi mövqenin nümayiş olunması ilə sülhün qorunmasını nəzərdə tutur. Azərbaycanın müdafiə strategiyası da məhz müvafiq fəlsəfəyə söykənir: regiondankənar qüvvələrin müdaxilə cəhdlərinin qarşısını almaq məqsədilə mükəmməl təchiz edilmiş, yüksək motivasiyalı, müasir komanda-nəzarət mexanizmləri ilə təmin olunmuş hərbi qüvvələrin formalaşdırılması. Qarsda icra olunan manevrlər həmin doktrinanın tələblərini ödəyir.

Müasir siyasətdə hərbi çəkindirmə potensialının təminatı yalnız texnoloji üstünlük və orduların operativ uyğunluğu vasitəsilə izah edilir. Hərbi təlimlərdə yüksək dağlıq ərazilərdə idarəetmə bacarıqlarının inkişaf etdirilməsi fiziki relyefin yaratdığı çətinliklərin hərbi logistikaya, həmçinin taktiki addımlara təsirini minimuma endirmək məqsədi güdür. Taktiki uğurlar qlobal arenada masaya əyləşən diplomatın ən ciddi vasitəsidir. Azərbaycan ilə Türkiyə arasında müdafiə texnologiyalarının ötürülməsi, müştərək istehsal müəssisələrinin qurulması strateji asılılığı sıfıra endirən fundamental addımlardandır.

Qlobal miqyasda institusional təşkilatların fəaliyyətsizliyi, BMT və oxşar qurumların təhlükəsizlik zəmanəti verə bilməməsi fonunda regional hərbi-siyasi ittifaqlar yeganə effektiv təminat sisteminə çevrilib. Rəsmi Ankara və Bakının nümayiş etdirdiyi model beynəlxalq hüququn təməl prinsiplərini fiziki güclə qorumaq məcburiyyətini sübut edir. Müttəfiqlik əlaqələrinin mütəmadi olaraq səhra təlimlərində yoxlanılması orduların intellektual potensialını artırır. Antalya Diplomatiya Forumunda qaldırılan problemlər sırasına diqqət yetirdikdə aydın olur ki, gələcəyin qeyri-müəyyənlikləri içərisində milli dövlətlərin ən böyük sığortası onların müdafiə qüdrətidir. Xarici siyasətdəki effektivlik bilavasitə ordunun modernizasiyasına bağlıdır. Hərbi təlimlər iki müttəfiq dövlətin asimmetrik müharibə qaydalarına tam şəkildə adaptasiya olunduğunu nümayiş etdirir.

2030-cu ilə qədər hədəflənən strateji konsepsiyalarda müdafiə sənayesi ilə siyasi iradənin tandem halında inkişafı əsas xətt kimi müəyyən edilib. Texnoloji sıçrayışın hərbi müstəvidə tətbiqi eyni vaxtda diplomatik manevrlərin miqyasını da tənzimləyir. Təlimlərin mürəkkəb coğrafi şəraitdə keçirilməsi silahlı qüvvələrin müxtəlif döyüş ssenarilərində reaksiyalarını təkmilləşdirir. Gələcək illərdə qlobal və regional xarakterli təlatümlərin daha da kəskinləşməsi ehtimal olunur. Belə qəliz şəraitdə dayanıqlılığın təmin edilməsi yalnız operativ idarəetmə mexanizmlərinə malik hərbi güc vasitəsilə mümkündür. Fəaliyyətlərin koordinasiyası göstərir ki, siyasi rəhbərliklər zaman və məkan daxilində tam anlaşıyış içərisindədir.

"Yüksək Səviyyəli Müşahidəçi Günü" çərçivəsində icra edilən taktiki addımlar siyasi doktrinaların səhifələrindəki müddəaların reallığa transformasiyasıdır. Türkiyə dövlət başçısının qlobal tribunalarda rəsmən elan etdiyi vizyon poliqonlardakı nizam-intizam, dəqiqlik, həmçinin qarşılıqlı etimad əsasında gücə çevrilir. "Müstəqil xarici siyasət, müstəqil müdafiə sənayesi, mükəmməl ordu" konsepti formalaşmaqda olan dövrün qüsursuz strateji yanaşmasıdır. Bu yanaşma hər iki dövləti xarici asılılıqdan tamamilə xilas edib. Qarsda reallaşan hərbi manevrlər həm də beynəlxalq güclərə regional vəziyyətlə bağlı dəyişməz reallıqları xatırladan siyasi xəbərdarlıq strukturudur.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

**İyunun 7-də Ermənistanda keçiriləcək növbəti parlament seçkiləri ölkədaxili siyasi mübarizə olmaqdan çıxaraq daha geniş geosiyasi maraqların toqquşma nöqtəsinə çevrilir. Çünki seçkilərin nəticəsi ölkənin xarici siyasət prioritetlərini və təhlükəsizlik siyasətini, bütövlükdə gələcək kursunu yenidən formalaşdıra bilər. Bu baxımdan, iyunun 7-si yalnız Ermənistan üçün deyil, bütövlükdə region üçün tarixi-siyasi dönüş nöqtəsi kimi dəyərləndirilir.**

# Ermənistanda parlament seçkiləri– geosiyasi rəqabətin yeni hədəfi

Azərbaycan da daxil olmaqla region dövlətləri prosesi diqqətlə izləyirlər. Ölkəmizlə bağlı məsələ aydındır. Ermənistan və Azərbaycan arasında 30 ildən çox davam etmiş münaqişə başa çatıb, silahlar susub, sərhədyanı bölgədə aylardır ki, atəş səsləri eşidilməsir. Sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında saziş paraflanıb, faktiki olaraq sülh bərqərar olub. İki ölkə arasında ticarət başlayıb. Bununla belə, hələ qarşıda görüləsi çox iş var. İlk növbədə Ermənistanda referendum keçirilməli, Konstitusiyadan Azərbaycana ərazi iddialarına əsas verən Müstəqillik Bəyannaməsinə istinad çıxarılmalıdır. Bundan sonra sülh sazişinə yekun imzalar atılması üçün hər hansı əngəl qalmır. Bütün bunların baş verməsi üçün Ermənistanda hakim "Mülki müqavilə" partiyasının seçkilərdə yenidən qələbə qazanması, Nikol Paşinyanın yenidən baş nazir seçilməsi zəruridir. Çünki onun seçki prosesindəki əsas rəqibləri – milyarder Samvel Karapetyanın "Güclü Ermənistan" partiyası, Robert Koçaryanın "Ermənistan" bloku və Qaqik Sarukyanın "Çiçəklənən Ermənistan" partiyası müharibə tərəfdarıdır. Həmin qüvvələrin Qarabağ hərəkatını tədricən aktivləşdirməyə çalışacağı gözləniləndir. Bu isə indiyədək əldə edilmiş irəliləyişlərin üstündən xətt çəkilməsinə, yeni gərginliyə və müharibəyə səbəb ola bilər.

***

Rusiya üçün rəsmi İrəvanın siyasi istiqaməti strateji tərəfdaşlıq baxımından xüsusi əhəmiyyət daşıyır. Seçkilərdə hansı siyasi qüvvənin qalib gəlməsi Rusiyanın regiondakı mövqeyi və təsir imkanları baxımından mühüm nəticələr doğura bilər. Əgər hazırkı hakimiyyət seçkiləri qazanarsa, Moskva İrəvanla mövcud institusional və təhlükəsizlik əməkdaşlığının davamlılığını daha real hesab edə bilər. Bu ssenari Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində münasibətlərin nisbətən sabit qalması və Avrasiya İqtisadi İttifaqı, Gömrük İttifaqı çərçivəsində iqtisadi əlaqələrin əvvəlki xətt üzrə davam etməsi demək olar. Lakin bir sıra ekspertlər Avropa İttifaqına üzvlük yolu tutmuş Paşinyanın yenidən qalib gəlməsini Rusiyanın Ermənistandakı təsir alətlərinin zəifləməsi kimi qiymətləndirirlər. Eyni zamanda, Ermənistanın xarici siyasətində diversifikasiya cəhdləri Rusiya üçün risk kimi qəbul olunur. Bu halda enerji, ticarət və təhlükəsizlik sahələrində yeni danışıqlar mərhələsi ortaya çıxa bilər. Rusiya üçün ən arzuolunan ssenari tam qopma deyil, balanslaşdırılmış və proqnozlaşdırıla bilən münasibətlər modelinin qorunmasıdır. Seçkilərin nəticəsi Moskvanın regional vasitəçilik roluna da birbaşa təsir göstərə bilər. Buna görə də Kremlin diqqəti yalnız qalib gələn qüvvəyə deyil, həm də onun gələcək siyasi kursunun istiqamətinə yönəlmiş olur.

Avropa İttifaqı və ABŞ isə seçkiləri təkcə daxili siyasi proses kimi deyil, həm də demokratik institutların möhkəmləndirilməsi və islahatların davamlılığı baxımından önəmli mərhələ kimi qiymətləndirirlər. Bu ölkələr seçkilərin şəffaf və ədalətli keçirilməsini siyasi legitimliyin əsas şərti hesab edirlər. Qərb üçün əsas məsələ vətəndaşların iradəsinin azad şəkildə ifadə olunmasıdır. Eyni zamanda, seçki prosesinin beynəlxalq standartlara uyğunluğu diqqətlə izlənir. ATƏT və digər müşahidə missiyalarının hesabatları bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Avropa İttifaqı Ermənistanın demokratik institutlarını gücləndirməsini regionda sabitlik amili kimi qiymətləndirir. ABŞ isə bu prosesi daha geniş geosiyasi kontekstdə, yəni Rusiya təsirinin balanslaşdırılması prizmasından da nəzərdən keçirir. Qərb ölkələri üçün seçkilərin nəticəsi siyasi plüralizmin qorunub-qorunmaması ilə birbaşa əlaqəlidir. Əgər proses şəffaf keçərsə, bu, Ermənistanın Qərblə əməkdaşlığını dərinləşdirməsi üçün əlavə imkanlar yarada bilər. Eyni zamanda, iqtisadi yardım və investisiya proqramlarının davamlılığı da demokratik inkişafla əlaqələndirilir. Qərb institutları üçün seçkilərin nəticəsi islahatların geri dönməz olub-olmadığını göstərən mühüm siqnaldır. Bununla yanaşı, media azadlığı və vətəndaş cəmiyyətinin rolu da xüsusi diqqət mərkəzindədir. Seçkilərin legitimliyi həm daxili sabitlik, həm də beynəlxalq etimad üçün əsas faktor kimi qəbul olunur. Bu səbəbdən ABŞ və Aİ prosesi yaxından izləyərək siyasi qiymətləndirmələrini ona uyğun formalaşdırırlar. Nəticə etibarilə, bu seçkilər Ermənistanın Qərblə münasibətlərinin gələcək trayektoriyasına da təsir göstərə bilər.

***

Bütövlükdə, 7 iyun seçkiləri Rusiya və Qərb arasında rəqabətin daha bir meydanına çevrilib. Aydın məsələdir ki, Moskva Rusiyayönümlü siyasi qüvvələrin, konkret olaraq, R.Koçaryanın və ya S.Karapeytanın qalib gəlməsinin tərəfdarıdır. Aprelin 1-də Kremldə N.Paşinyanla görüş zamanı Rusiya Prezidenti Vladimir Putin açıq şəkildə demişdi: "Biz çox istərdik ki, bütün siyasi partiyalar, siyasətçilər seçkilər zamanı daxili siyasi proseslərdə iştirak edə bilsinlər. Bəzilərinin azadlıqdan məhrumetmə yerlərində olduğunu bilirəm, baxmayaraq ki, onların Rusiya pasportu var. Bu sizin qərarınızdır, biz qarışmırıq, amma istərdik ki, onlar heç olmasa, daxili siyasi prosesdə iştirak edə bilsinlər".



Qərb, bir qədər də dəqiqləşdirsək, Aİ buna imkan verməmək üçün hakimiyyətə öz dəstəyini göstərmək istiqamətində konkret addımların atılmasına keçib. Aprelin 21-də Aİ ölkələrinin xarici işlər nazirləri Brüsseldə Ermənistana yeni mülki missiyanın göndərilməsi barədə qərarı təsdiqləyiblər. Sənədə görə, missiya Ermənistanın hibrid təhdidlərə qarşı dayanıqlılığını gücləndirməyə yönələcək və nazirliklərə, eləcə də təhlükəsizlik qurumlarına strateji və praktiki məsləhətlər, həmçinin dəstək verəcək. Bu məsləhətlər informasiya manipulyasiyalarının qarşısının alınması, kiberhücumların aşkarlanması və cavab verilməsi, eləcə də qanunsuz maliyyə axınlarının müəyyən edilməsi kimi sahələri əhatə edəcək. Missiya 2 illik mandatla fəaliyyət göstərəcək və "Avropa İttifaqının Ermənistan Respublikasındakı Tərəfdaşlıq Missiyası" adlanacaq.

Göründüyü kimi, 7 iyun seçkiləri ətrafında mürəkkəb geosiyasi mühit formalaşıb. Bu mühit Ermənistanın daxili siyasi balansını daha da həssas vəziyyətə gətirir. Xarici aktorların artan marağı ölkə daxilindəki siyasi qütbləşməni dərinləşdirə bilər. Bu isə seçki nəticələrinin yalnız səsvermə qutularında deyil, həm də beynəlxalq münasibətlər müstəvisində qiymətləndiriləcəyini göstərir. Eyni zamanda, informasiya məkanında aparılan rəqabət seçki kampaniyasının gedişinə ciddi təsir imkanları yaradır. Cəmiyyət daxilində fərqli xarici istiqamətlərə yönəlmiş siyasi baxışların güclənməsi qərarvermə prosesini daha da çətinləşdirir. Nəticə etibarilə, seçkilər Ermənistanın gələcək siyasi oriyentasiyasını müəyyən edən kritik mərhələyə çevrilir. Bu şəraitdə həm daxili, həm də xarici faktorların qarşılıqlı təsiri seçkinin strateji əhəmiyyətini daha da artırır.

*Səxavət HƏMİD*
*XQ*

# Aİ – Gürcüstan: inteqrasiyadan sanksiyaya

*(əvvəli 4-cü səhifədə)*

Hakimiyyət nümayəndələri, o cümlədən baş nazir İrakli Kobaxidze və digər siyasi fiqurlar Avropa rəsmilərinin bəyanatlarını daxili işlərə müdaxilə kimi qiymətləndirirlər. Aİ-nin Gürcüstandakı səfiri Pavel Gerçinskinin çıxışları ətrafında yaranan polemika da bu gərginliyin nəticəsidir. Tbilisi belə açıqlamaları təzyiq aləti kimi təqdim edir və Brüsselin ritorikasının tərəfdaşlıq çərçivəsini aşdığını bildirir. Bu narrativin daha sistemli ifadəsini isə siyasi elita daxilində görmək mümkündür. Hakim komandanın aparıcı nümayəndələrindən biri olan Mamuka Mdinaradze açıq şəkildə bildirir ki, Aİ ilə münasibətlərin taleyi yalnız Gürcüstandan asılı deyil, burada "Avropa bürokratiyasının ədaləti" həlledici amildir. Onun fikrincə, Gürcüstan Avropa dəyərlərinə sadiq qalmaqla yanaşı, öz gələcəyini daha çox "ənənəvi və xristian Avropası" çərçivəsində görür. Bu yanaşma əslində ideoloji fərqlərin dərinləşdiyini göstərir: Brüsselin liberal-demokratik gündəliyi ilə Tbilisinin daha konservativ və suverenlik yönümlü diskursu arasında getdikcə artan məsafə formalaşır.

Mdinaradzenin LGBT və digər sosial məsələlərlə bağlı açıqlamaları da ideoloji ziddiyyətin bir hissəsidir. Onun açıqlaması göstərir ki, Gürcüstan hakimiyyəti Avropa ilə inteqrasiyanı selektiv şəkildə qəbul etməyə çalışır. Yəni iqtisadi və siyasi əməkdaşlıq saxlanılır, lakin sosial-mədəni sahədə milli prioritetlər üstün tutulur. Bu isə Aİ-nin məsələyə yanaşması ilə ziddiyyət təşkil edir. Son açıqlamalar göstərir ki, rəsmi Tbilisi mümkün sanksiyalar qarşısında geri çəkilmək niyyətində deyil. Hakim "Gürcü arzusu" partiyasının baş katibi və Tbilisi meri Kaxa Kaladze bildirib ki, Aİ ölkələrinin böyük əksəriyyətinin Gürcüstana qarşı məhdudlaşdırıcı tədbirlər tətbiq etməyə hazır olması barədə səslənən fikirlər hakimiyyəti narahat etmir. Onun sözlərinə görə, ölkə rəhbərliyi Gürcüstanın və onun xalqının maraqlarını qoruyan siyasət yürüdür və bu məsələdə kompromisə getmək niyyətində deyil. Kaladze vurğulayıb ki, "ölkənin gələcəyi və milli maraqları" əsas prioritetdir və mümkün sanksiyaların sayı və ya forması bu kursu dəyişməyəcək. O, həmçinin qeyd edib ki, Aİ Gürcüstandan "xarici agentlər haqqında" qanundan imtina etməyi tələb edir, lakin bu tələbin niyə irəli sürüldiyini əsaslandırmır. Kaladzenin fikrincə, eyni tip qanunların bəzi Avropa ölkələrində müzakirə edildiyi halda, Gürcüstana qarşı fərqli yanaşma tətbiq olunması ikili standartların





göstəricisidir: "Ona görə də hamı çox yaxşı başa düşməlidir ki, bizə suveren dövlət kimi barmaq silkələyən 'ağalar' yox, dostlar və tərəfdaşlar lazımdır", – deyə o əlavə edib.

Onu da qeyd edək ki, Aİ-yə üzv 26 ölkə Gürcüstana qarşı tədbirlərin görülməsi ilə bağlı ümumi mövqeyə yaxındır, lakin bu qərarı bloklayan ölkələr də var. Bu fakt Aİ daxilində Gürcüstan məsələsində yekdil mövqenin olmadığını göstərir. Sanksiyaların qəbul edilməsinin qarşısını uzun müddət Viktor Orban alıb, daha sonra Robert Fico bu mövqeyə qoşulub. İtaliya və Almaniya kimi ölkələr Gürcüstana qarşı genişmiqyaslı sanksiyaların Aİ-nin imicinə zərbə vuracağını düşünür. Bu səbəbdən daha çox fərdi sanksiyalar variantı müzakirə olunur ki, bu da dialoq kanallarını zəiflədə bilər.

Regionda paralel proseslər də diqqət çəkir. Ermənistan Aİ ilə vizasız rejim istiqamətində irəlilədiyi halda, Azərbaycan mövcud sadələşdirilmiş viza əməkdaşlığını davam etdirir. Bu isə Cənubi Qafqazda inteqrasiya modellərinin fərqləndiyini və Gürcüstanın əvvəlki lider mövqeyinin sarsıldığını göstərir. Ümumiyyətlə, Aİ–Gürcüstan münasibətləri artıq klassik inteqrasiya çərçivəsindən çıxaraq daha geniş geosiyasi və ideoloji qarşıdurma müstəvisinə keçib. Burada yalnız siyasi qərarlar deyil, həm də dəyərlər, identiklik və suverenlik anlayışları toqquşur. Mövcud dinamika göstərir ki, yaxın perspektivdə münasibətlərin sürətlə normallaşması ehtimalı zəifdir və proseslərin istiqaməti daha çox Brüsseldə və Aİ daxilində formalaşan siyasi konsensusdan asılı olacaq.

*P.ƏFƏNDİ*
*XQ*

# Ərazi bütövlüyümüzün tam bərpa edildiyi gün

## *3 il əvvəl Laçın sərhəd-keçid məntəqəsində Azərbaycan Bayrağı ucaldıldı*




**2023-cü il aprelin 23-də ölkəmizin suveren ərazisində, Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-keçid məntəqəsi quruldu. Yeni yaradılan sərhəd-keçid məntəqəsində Azərbaycan Bayrağının ucaldılması mərasimi keçirildi və Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə məruzə edildi. Eləcə də bu barədə Rusiya sülhməramlı kontingenti və Rusiya–Türkiyə Monitorinq Mərkəzinin komandanlıqlarına məlumat verildi.**

Bu sərhəd-buraxılış məntəqəsinin yaradılmasını zəruri edən amillər göz qabağında idi. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın şərtlərinə zidd olaraq Ermənistandan Azərbaycan ərazisində qalmış qeyri-qanuni erməni silahlı birləşmələrinin tör-töküntüsü üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələr daşınırdı. Üçtərəfli bəyanata əsasən Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingenti İrəvanın bu təxribatçı hərəkətlərinin qarşısını almaq əvəzinə, Xankəndidəki separatçı rejimin himayədarı funksiyasını yerinə yetirirdi. Azərbaycan rəhbərliyi bu cür qanunsuz və ölkəmizin təhlükəsiliyinə təhdid yaradan fəaliyyətlə heç cür barışa bilməzdi. Bakı bunun qarşısının alınması üçün özünün suveren hüququndan istifadə etdi.

2023-cü il avqustun 26-da "Laçın Şəhəri Günü" tədbirindəki çıxışında Prezident İlham Əliyev həmin hadisəni belə xarakterizə etdi: "Bu il aprelin 23-də Laçın rayonunda, Azərbaycan–Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsi qoyulmuşdur. Sərhəd-buraxılış məntəqəsinin qurulması ərazi bütövlüyümüzün tam bərpası deməkdir və bunu biz beynəlxalq hüquq çərçivəsində etdik. Biz öz ərazimizi qoruyuruq, öz sərhədlərimizi qoruyuruq və qoruyacağıq".

***

Bu addımın atılması həqiqətən də böyük siyasi iradə, cəsarət tələb edirdi. Çünki o zaman Azərbaycana qarşı şimaldan və cənubdan, xüsusilə də Qərbdən siyasi, ideoloji təzyiqlər edilir, hətta hədə-qorxu gəlinirdi. Amma rəsmi Bakı bütün bu təzyiqlərə baxmayaraq, haqqı çatdığını almaq əzmini, ədaləti bərpa etmək gücünü bütün dünyaya nümayiş etdirdi. 44 günlük müharibədə Azərbaycanın qazandığı qələbəni həzm edə bilməyən ermənipərəst qüvvələr tarixi ərazilərimizin erməni işğalından azad olunması, suverenliyimizin tam bərpa edilməsi faktını heç cür qəbul etmək istəmirdilər. Azərbaycanın hərbi-siyasi qələbəsi nəticəsində regionda yaranmış yeni reallıqla barışmayan Ermənistan və onun himayədarları müəyyən illüziyalara qapılaraq ölkəmizə qarşı ərazi iddialarından, revanşist xəyallarından əl çəkmirdilər.

Rəsmi İrəvan üçtərəfli Bəyanatda boynuna götürdüyü öhdəliklərini yerinə yetirmir, icra etməli olduğu müddəaları kobud şəkildə pozurdu. Bakını daha çox qıcıqlandıran isə Ermənistanın humanitar məqsədli Laçın dəhlizindən öz çirkin hərbi-siyasi məqsədləri üçün istifadə etməsi idi. Beləliklə, İrəvanın aşkar görünən qanunsuz əməlləri və saymazlığı Bakının səbir kasasını daşırdı və onu ciddi tədbirlər görməyə sövq etdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və peşəkarlığı ilə həyata keçirilən əməliyyat nəticəsində Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaradıldı. Bununla da Azərbaycan sərhədlərinin bütövlüyü təmin olundu.

Faktla barışmaq istəməyən, reallığı həzm edə bilməyən Ermənistan və onu himayə edən qüvvələr Azərbaycanı, guya, sərhəddə vəziyyəti gərginləşdirməkdə, bölgədə humanitar böhran yaratmaqda ittiham edirdilər. Amma Bakının bu addımı – ölkənin təhlükəsizliyinin pozulmasına yönəlik təhdidlərə qarşı suveren ərazisində sərhəd-buraxılış məntəqəsini qurması – beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq atılan tam qanuni addım idi. Bunu Prezident İlham Əliyev 2023-cü il mayın 1-də ABŞ dövlət katibi Antoni Blinkenlə telefon danışığında birmənalı şəkildə vurğulayıb: "Azərbaycan–Ermənistan sərhədində Laçın sərhəd-buraxılış məntəqəsinin qurulması Azərbaycanın suveren hüquqları çərçivəsində və bütün beynəlxalq qaydalara uyğun olaraq təmin edilib. Məqsəd hərəkətin məhdudlaşdırılması deyil, əksinə, nəzarətin təmin edilməsidir və artıq bu məntəqə vasitəsilə gediş-gəliş həyata keçirilir. Qarabağ bölgəsində yaşayan erməni əhalinin hüquqları Azərbaycan Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlər çərçivəsində təmin olunacaqdır".

***

Laçın sərhəd-keçid məntəqəsi Azərbaycan ərazisinə Ermənistandan silah, sursat, mina və terrorçuların daşınmasının, təbii sərvətlərin qanunsuz çıxarılmasının qarşısının alınmasında müstəsna rol oynadı. Burada ermənilərin xaricdəki havadarlarının əli ilə təbii sərvətlərimizin kənara daşınmasına, bu zaman təbiətə vurduqları ziyana görə ekofəalların davamlı etiraz aksiyasının əhəmiyyətini də qeyd etməliyik. Ermənistanla sərhəddə məntəqənin yaradılmasının az sonra Qarabağda qalmış qanunsuz erməni silahlı birləşmələrin çıxarılmasında, həmçinin separatçıların tərk-silah olunmasında böyük önəmini də unutmamalıyıq. Ermənistan fasiləsiz olaraq beynəlxalq təşkilatlara müraciətlər edir, dünya ictimaiyyətini çaşdıran məlumatlar yayırdı. İrəvan əsassız olaraq rəsmi Bakını Qarabağda yaşayan erməniləri "humanitar blokadaya" saldığı, Xankəndidə və ətraf ərazilərdəki ermənilərin "acından öldükləri" barədə dezinformasiyaları tirajlayır, beynəlxalq təşkilatları Azərbaycana təzyiq göstərməyə çağırırdı. İntəhası bu cəhdlər heç bir fayda vermədi. Çünki Azərbaycan bu addımı beynəlxalq hüququn tələblərinə uyğun atmışdı. Bunu Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanın sərhəd-keçid məntəqəsinin aradan qaldırılması ilə bağlı müvəqqəti tədbir görmək tələbini rədd edən 2023-cü il 6 iyul tarixli yekdil qərarı da təsdiqləmiş oldu. Avqustun 16-da isə BMT Təhlükəsizlik Şurasının Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın–Xankəndi yolunun guya "bağlanmasından" sonra yaranan "humanitar böhran"ın müzakirə olunduğu təcili iclasında da Ermənistan və onun xaricdəki himayədarları məqsədlərinə çatmadılar. Fəqət digər yandan Ermənistanın "böyük bacısı" Fransa siyasi təxribatlardan əl çəkmir, iki ölkə arasında sülh və normallaşma prosesini pozmağa cəhdlər edirdi. Onun bu məqsədlə həyata keçirdiyi SPAYKA "humanitar yardım" təxribatı da baş tutmadı. Azərbaycan Fransadan göndərilən "humanitar yükü" haqlı olaraq Qarabağa buraxmadı. Bunun yerinə Bakı özü Xankəndiyə yardım göndərdi. Əgər Qarabağda yaşayan ermənilər aclıqdan əziyyət çəkirdilərsə, Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən göndərilən həmin humanitar yardımı qəbul edər, Ağdam–Xankəndi yolundan Qarabağ bölgəsinə yüklərin çatdırılmasına etiraz etməzdilər. Aydın idi ki, Ermənistan hakimiyyəti, Xankəndidəki separatçılar və onların havadarları yolun açılmasında maraqlı deyildilər. "Humanitar böhran" üzərində edilən manipulyasiyalar vasitəsilə məğlub düşmən yeni hərbi təxribatlar üçün süni səbəblər yaratmağa çalışırdı. O günlərdə Prezident, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, "müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Ermənistan və onun arxasında dayananlar bizə qarşı müxtəlif fitnələr ortaya atırlar. Heç bir şey bizi yolumuzdan döndərə bilməz".

Artıq hər şey arxada qalıb. 30 ilə yaxın davam edən erməni işğalı nəticəsində xarabalığa çevrilən, minalarla zəhərlənən torpaqlarımızda bərpa-quruculuq işləri aparılır; beynəlxalq hava limanları, körpülər, evlər, məktəblər, xəstəxanalar, sosial obyektlər inşa edilir, yollar çəkilir, kəndlər, şəhərlər salınır. Yurd həsrəti ilə yaşamış keçmiş məcburi köçkünlər dədə-baba yurdlarına qayıdır. Bu gün tək Həkəri çayı üzərindəki sərhəd-keçid məntəqəsində deyil, Qarabağın və Şərqi Zəngəzurun həyatın yenidən canlandığı hər qarışında üçrəngli bayrağımız qürurla dalğalanmaqdadır.

***İ.HƏSƏNQALA***
***XQ***

# Qarabağ və Şərqi Zəngəzur "ağıllı" memarlıq meydanıdır

**İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın Azərbaycanın 2030-cu ilədək müəyyən olunmuş beş Milli Prioritetindən biri kimi təsdiqlənməsi, illər öncə Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın qəbul edilməsi Qarabağ və Şərqi Zəngəzurun dirçəlişində mühüm rol oynayır.**









Qarabağ və Şərqi Zəngəzur hazırda Azərbaycanın postmünaqişə dövründə həyata keçirilən ən genişmiqyaslı bərpa və yenidənqurma proseslərinin mərkəzində dayanır. İşğaldan azad edilmiş ərazilər tamamilə yeni iqtisadi, sosial və məskunlaşma modelinin qurulduğu strateji bir məkana çevrilib. Bu regionlar hazırda ölkə üzrə ən iri dövlət investisiyalarının yönəldiyi əsas inkişaf zonaları kimi çıxış edir. Nəqliyyat və logistika dəhlizlərinin yaradılması, avtomobil və dəmir yolu şəbəkələrinin yenidən qurulması, elektrik enerjisi və su təchizatı sistemlərinin bərpası, həmçinin rəqəmsal infrastrukturun formalaşdırılması paralel şəkildə aparılır.

Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzurda şəhər və kəndlərin yenidən salınması xüsusi planlama əsasında həyata keçirilir. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları çərçivəsində müasir yaşayış standartları tətbiq olunur, ekoloji tarazlıq və enerji səmərəliliyi prioritet istiqamət kimi müəyyənləşdirilir. Qısa zaman ərzində dağıdılmış infrastrukturun yenidən qurulması, yeni şəhər planlarının hazırlanması və icrası, beynəlxalq standartlara uyğun yaşayış və iqtisadi mühitin formalaşdırılması bu prosesin kompleks və sistemli xarakterini göstərir.

Azərbaycan işğaldan azad olunmuş ərazilərin bərpası və məskunlaşdırılması istiqamətində fəaliyyətini 2026-cı ildə də yüksək templə davam etdirir. Maliyyə Nazirliyinin məlumatına görə, cari ilin birinci rübündə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələr üzrə 386,2 milyon manat vəsait istifadə olunub. Bu məbləğ illik nəzərdə tutulan vəsaitin 11 faizinə bərabərdir və əsasən sifarişçi təşkilatların təqdim etdiyi kassa sifariş sənədləri əsasında icra edilib.

Xərclərin strukturuna diqqət yetirdikdə, əsas prioritetin infrastruktur layihələri olduğu aydın görünür. Belə ki, ayrılmış vəsaitin 355,2 milyon manatı məhz bu istiqamətə yönəldilib. Bunun 185 milyon manatı avtomobil yollarının layihələndirilməsi, tikintisi və yenidən qurulmasına, 142,2 milyon manatı yeni yaşayış komplekslərinin inşasına sərf olunub. Turizm infrastrukturunun yaradılması və digər tədbirlər üçün isə 28 milyon manat ayrılıb. Bununla yanaşı, sosialyönümlü layihələr də diqqətdən kənarda qalmayıb: səhiyyə və mədəniyyət sahələrinə 10,7 milyon manat, ərazilərin minalardan təmizlənməsi işlərinə isə 20,3 milyon manat vəsait yönəldilib.

Bərpa və yenidənqurma prosesləri ilə paralel olaraq Böyük Qayıdış proqramı çərçivəsində məskunlaşma da davam edir. 2025-ci il ərzində işğaldan azad olunmuş ərazilərə ümumilikdə 3893 ailə, yəni 15781 nəfər köçürülüb. Artıq bu gün həmin ərazilərdə 30 minə yaxın keçmiş məcburi köçkün yeni inşa edilmiş evlərlə təmin edilərək daimi yaşayışa başlayıb. Ümumilikdə isə bölgədə yaşayanların sayı 70 mini ötüb. Bu rəqəmə tikinti sektorunda çalışanlar, dövlət qurumlarının əməkdaşları və digər sahələrdə fəaliyyət göstərən şəxslər də daxildir.

Dövlətin bu istiqamətdə maliyyə siyasəti də diqqətçəkicidir. "2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinə əsasən, işğaldan azad olunmuş ərazilərin bərpası üçün 3,5 milyard manat vəsait nəzərdə tutulub ki, bu da ümumi büdcə xərclərinin 8,4 faizini təşkil edir. Ümumilikdə isə 2020–2026-cı illər ərzində bu ərazilərin bərpasına dövlət büdcəsindən 25 milyard manatdan çox vəsait ayrılıb. Ayrılan resursların böyük hissəsi infrastrukturun qurulmasına yönəldilib ki, bu da regionun uzunmüddətli iqtisadi potensialının formalaşdırılmasına hesablanıb.

Eyni zamanda, məskunlaşma prosesi mərhələli şəkildə davam edir. Aprelin 21-də növbəti köç karvanları Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə və Ağdam şəhərinə yola salınıb. Qırmızı Bazara 17 ailə, yəni 74 nəfər, Ağdama isə 92 ailə – 332 nəfər köçürülüb. Bu ailələr uzun illər ölkənin müxtəlif bölgələrində müvəqqəti məskunlaşmış şəxslərdən ibarət olub.

Qarabağın bərpası və dirçəldilməsi prioritetlərinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işləri, regionun sənaye potensialının reallaşdırılması, iqtisadi sistemə reinteqrasiyası və əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində mühüm addımlar atılır. Prezidentin müvafiq fərmanları ilə Ağdam şəhərində Ağdam Sənaye Parkı, Cəbrayıl rayonunda isə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Bu sənaye parklarında fəaliyyət göstərən sahibkarlara müxtəlif stimullaşdırıcı mexanizmlər tətbiq olunur. Ağdam Sənaye Parkında istehsal olunan məhsullar işğaldan azad edilmiş ərazilərdə aparılan tikinti-quraşdırma işlərində geniş tətbiq edilir, eyni zamanda, daxili bazarda da satışa çıxarılır. Paralel olaraq, bu məhsulların ixracı istiqamətində də ilk uğurlar əldə olunub. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında isə logistika və ticarət mərkəzlərinin, anbar komplekslərinin, topdan və pərakəndə satış obyektlərinin, TIR parkının, gömrük məntəqəsinin, eləcə də yanacaqdoldurma stansiyası və müxtəlif texnikaların təmir-servis sahələrinin yaradılması nəzərdə tutulur. Strateji logistik mövqedə yerləşməsi bu sənaye parkının sahibkarlar üçün cəlbediciliyini artıran əsas amillərdən biri kimi qiymətləndirilir.

Qeyd edək ki, dövlət artıq növbəti mərhələ üçün də strateji planlaşdırmaya başlayıb. Prezidentin sərəncamına əsasən, 2027–2030-cu illəri əhatə edəcək "Böyük Qayıdışa dair II Dövlət Proqramı" hazırlanır. Bu proqram çərçivəsində yüz minlərlə vətəndaşın doğma torpaqlarına qayıdışı nəzərdə tutulur.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Xalid KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

İşğaldan azad olunmuş ərazilər uzun illər ərzində ciddi dağıntılara məruz qalıb. Bu ərazilərdə hazırda əsas problemlərdən biri təhlükəsizlik məsələsidir; xüsusilə mina təhlükəsi hələ də qalmaqdadır və bu, genişmiqyaslı fəaliyyətləri məhdudlaşdıran əsas amillərdəndir.

Digər tərəfdən, bu ərazilərdə həyatın bərpası mərhələli şəkildə həyata keçirilir. Dövlət ilkin olaraq əsas infrastrukturun qurulmasına diqqət yetirir: yollar çəkilir, elektrik, su, qaz və internet xətləri yaradılır ki, insanların həmin ərazilərdə yaşaması mümkün olsun. Hazırda əsas məqsəd ilkin məskunlaşmanı təmin etmək və yaşayış üçün zəruri şəraiti formalaşdırmaqdır.

Torpağın iqtisadi baxımdan dəyər qazanması üçün onun effektiv istifadəsi vacibdir. Bu isə, ilk növbədə, kənd təsərrüfatının inkişafını tələb edir. Əkinçilik, heyvandarlıq, arıçılıq və quşçuluq kimi sahələr bu baxımdan əsas istiqamətlər hesab olunur. Lakin hələlik bu sahələrdə genişmiqyaslı istehsaldan danışmaq tezdir; bu proses zamanla, əhalinin və biznes subyektlərinin bölgəyə qayıdışı ilə paralel inkişaf edəcək.

Bununla yanaşı, bölgə faydalı qazıntılarla da zəngindir. Xüsusilə Zəngilan, Kəlbəcər və Ağdərə istiqamətlərində qızıl və mis yataqları mövcuddur. Bu resursların istismarı gələcəkdə iqtisadi aktivliyin artmasına mühüm töhfə verə bilər. Bu sahədə təcrübə artıq Azərbaycanın digər bölgələrində – məsələn, Gədəbəy və Daşkəsəndə tətbiq olunur və oxşar yanaşmaların burada da həyata keçirilməsi mümkündür.

Regionun digər mühüm potensial istiqaməti turizmdir. Qarabağ və Şərqi Zəngəzur həm təbii gözəllikləri, həm də müalicəvi və coğrafi xüsusiyyətləri baxımından turizm üçün əlverişlidir. Lakin bu potensialın reallaşması üçün müvafiq infrastruktur – hotellər, istirahət mərkəzləri və xidmət obyektləri – formalaşdırılmalıdır.

Bundan əlavə, bölgənin zəngin su ehtiyatları və əlverişli iqlim şəraiti alternativ enerji mənbələrinin inkişafı üçün də imkanlar yaradır. Xüsusilə su və günəş enerjisindən istifadə perspektivli istiqamətlər sırasındadır. Ümumilikdə, işğaldan azad olunmuş ərazilərdə hazırda əsas prioritet ilkin yaşayış şəraitinin yaradılmasıdır. İqtisadi fəaliyyət, biznes təşəbbüsləri və genişmiqyaslı istehsal isə mərhələli şəkildə formalaşacaq. Bu proses həm dövlətin həyata keçirdiyi layihələr, həm də özəl sektorun və vətəndaşların aktiv iştirakı ilə tədricən genişlənəcək.

# Qədim Bərdə cavanlaşır, gözəlləşir

**"Şəhərsalma və Memarlıq İli" çərçivəsində qədim Nüşabə yurdu olan Bərdə rayonunda aparılan genişmiqyaslı quruculuq və abadlıq işləri şəhərin simasını önəmli dərəcədə gözəlləşdirir.**

Şəhərin infrastrukturunda yeniliklər müşahidə olunur; küçələrə yeni asfalt örtüyü çəkilir, səkilərə minlərlə kvadratmetr müasir tamet döşənir və köhnə bordürlər yeniləri ilə əvəz edilir. Məsələn, Səhrab Zöhrabbəyov küçəsindən başlayaraq H.Aslanov, Elməddin Yusifov, Vaqif və Koroğlu küçələrinə qədər uzanan geniş bir



ərazidə həm piyada rahatlığı, həm də vizual gözəllik təmin olunub.

Şəhidlərimizin adını ucaldan Elməddin Lətifov, Devran Naibov və Oruc Cəfərov küçələrində, həmçinin Atatürk və Füzuli küçələrində salınan 24 min kvadratmetrə yaxın yeni asfalt örtüyü hərəkətin rahatlığını və təhlükəsizliyini tam bərpa edib.

Abadlıq marafonu həm də binaların və həyətlərin yenilənməsi ilə davam edir. Çoxmərtəbəli yaşayış binalarının fasadları rənglənmiş, bloklara yeni plastik pəncərələr quraşdırılmışdır. Xüsusilə Üzeyir Hacıbəyov-4 ünvanındakı doqquzmərtəbəli binanın müasir liftlə təmin olunması və binaların dam örtüklərinin əsaslı təmiri



sakinlərin məişət qayğılarını aradan qaldırıb. "Abad həyət" layihəsi çərçivəsində qeyri-qanuni tikintilərdən təmizlənən həyətlərdə uşaqlar üçün oyun sahələri, böyüklər üçün isə rahat söhbətgahlar və yeni işıqlandırma sistemləri qurulub.

Şəhərin mənəvi rəmzi olan Şəhidlər xiyabanı və Ulu öndərin adını daşıyan istirahət parkı da bu yeniliklərdən payını alıb; fəvvarələr, oturacaqlar və gecə işıqları yenilənərək sakinlərin ixtiyarına verilib. Şəhid Fərman Rzayevin həyat yoldaşı Rahilə Rzayeva qeyd edir ki, Prezident İlham Əliyevin tapşırıqları əsasında Bərdədə aparılan bu işlər şəhəri cəlbedici bir məkana çevirib. Bu quruculuq salnaməsi Bərdənin qədimliyini müasir memarlıqla birləşdirərək gələcəyə doğru inamla irəlilədiyini nümayiş etdirir.

***Vəli VƏLİYEV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 107** **17 aprel 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın təsdiq edilməsi haqqında" 2004-cü il 24 may tarixli 75 nömrəli , "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması, qorunması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2007-ci il 25 yanvar tarixli 13 nömrəli və "Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" 2024-cü il 31 yanvar tarixli 62 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 245-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 avqust tarixli 466 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

**1.** "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 391 (Cild I); 2024, № 12 (II kitab), maddə 1455) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları" üzrə:

1.2.1. 2-ci hissə üzrə:

1.2.1.1. 2.3-cü bəndin ikinci cümləsindən "mərkəzi və yerli icra hakimiyyəti orqanları və onların struktur bölmələrinə," sözləri çıxarılsın;

1.2.1.2. 2.8-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Qanunun 11.7-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərinin formalaşdırılması, toplanması, istifadəsi və uçotunun aparılması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən qaydada həyata keçirilir.";

1.2.2. 3-cü hissə üzrə:

1.2.2.1. 3.4.2.6-cı abzasda "və iqtisadi təsnifata uyğun olaraq paraqraf" sözləri "təsnifata uyğun olaraq bölmə, köməkçi bölmə, paraqraf və iqtisadi təsnifata uyğun olaraq bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddə" sözləri ilə əvəz edilsin;

1.2.2.2. 3.4.2.9-cu abzas aşağıdakı redaksiyada verilsin:

"3.4.2.9. daxili və xarici dövlət borcuna xidmətlə bağlı xərclərin yuxarı hədləri, o cümlədən faiz xərcləri;";

1.2.2.3. 3.4.3-cü yarımbəndə "istiqamətləri" sözündən sonra "və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydaya uyğun ortamüddətli dövr üçün hədəf göstəriciləri" sözləri əlavə edilsin;

1.2.2.4. 3.4.5.1-ci və 3.4.5.2-ci abzaslar aşağıdakı redaksiyada verilsin:

"3.4.5.1. xarici dövlət borcuna xidmətlə bağlı xərclərin yuxarı hədləri, o cümlədən faiz xərcləri;

3.4.5.2. daxili dövlət borcuna xidmətlə bağlı xərclərin yuxarı hədləri, o cümlədən faiz xərcləri;";

1.2.3. 5-ci hissə üzrə:

1.2.3.1. aşağıdakı məzmunda 5.5-4-cü bənd əlavə edilsin:

"5.5-4. Qanunun 6.4-cü və 6.5-ci maddələrinə uyğun olaraq, dövlət büdcəsində nəzərdə tutulmuş məqsədli büdcə və ehtiyat fondlarından büdcə ili ərzində funksional, iqtisadi və inzibati təsnifata uyğun olaraq yönəldilən vəsaitlərin uçotu həmin vəsaitlərin ayrıldığı məqsədlərə uyğun funksional, iqtisadi və inzibati təsnifat üzrə aparılır.";

1.2.3.2. 5.9-cu bənd üzrə:

1.2.3.2.1. birinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Büdcə ili ərzində bu Qaydaların 5.5-ci bəndinə və 5.42-ci bəndinin altıncı abzasına uyğun olaraq dövlət büdcəsinin xərcləri üzrə aparılmış maliyyə əməliyyatları həmin ilin dövlət büdcəsinin icrasına dair aylıq, rüblük və illik hesabatlarda aparılmış dəyişikliyə müvafiq əks etdirilir və bu Qaydaların 3.4.2.17-ci və 3.4.2.18-ci abzaslarına uyğun olaraq təsdiq olunmuş göstəricilərdən kənarlaşma kimi qəbul edilmir.";

1.2.3.2.2. aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"Büdcə ili ərzində vahid xəzinə hesabının sərbəst qalığı bu Qaydaların 5.21-1.1–5.21-1.3-cü yarımbəndlərində göstərilən ödənişlər icra edilməklə bu Qaydaların 5.44-cü bəndi ilə müəyyən olunmuş qaydada idarə olunur (və ya) idarəetməyə verilir.";

1.2.3.3. 5.13-cü bənddən "dövlət xəzinədarlığı tərəfindən qabaqcadan dövlət (büdcə) öhdəlikləri götürülür və bu öhdəliklər çərçivəsində satınalmalardan" sözləri çıxarılsın;

1.2.3.4. 5.20-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.20. Cari il üçün nəzərdə tutulan xərclərin maliyyələşdirilməsi həmin büdcə ili ərzində mümkün olmadıqda, belə xərclərin maliyyələşdirilməsi növbəti büdcə ilindəki ayırmalar hesabına təmin olunur.";

1.2.3.5. 5.21-ci bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"İlin sonuna bütün xəzinə hesablarının qalıqları (bu Qaydaların 5.21-1.2.2-ci və 5.21-1.2.3-cü abzaslarında nəzərdə tutulmuş vəsaitlərə münasibətdə yalnız onların xərclərinin maliyyələşdirilməsi məqsədilə) vahid xəzinə hesabına köçürülür.";

1.2.3.6. aşağıdakı məzmunda 5.21-1-ci bənd əlavə edilsin:

"5.21-1. Vahid xəzinə hesabının sərbəst qalığı aşağıdakı istiqamətlərə yönəldilir:

5.21-1.1 Qanunun 15.4-cü maddəsi tətbiq edildiyi halda, Qanunun 7-ci maddəsində göstərilən xərclərin maliyyələşdirilməsinə;

5.21-1.2. dövlət büdcəsi kəsirinin və onun daxilində aşağıdakı xərclərin (fərqin) maliyyələşdirilməsinə:

5.21-1.2.1. Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş qaydada şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsində nəzərdə tutulan daxilolmalardan büdcə ilinin sonuna artıq daxil olan vəsaitin müəyyən hissəsi hesabına yerli icra hakimiyyəti orqanlarının büdcədənkənar xərcləri;

5.21-1.2.2. Dövlət Əməyin Mühafizəsi Fondunun ilin sonuna qalan istifadə olunmamış vəsaiti hesabına onların xərcləri (hər il üçün təsdiq olunan dövlət büdcəsi haqqında qanuna uyğun olaraq proqnozlaşdırılan gəlirlərin məbləği proqnozlaşdırılan xərclərin məbləğindən, habelə faktiki daxilolmalarının məbləği xərclərin məbləğindən az olduqda);

5.21-1.2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillərin satışından əldə olunan və ilin sonuna qalan xərclənməmiş vəsait hesabına Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydaya uyğun olaraq xərcləri (hər il üçün təsdiq olunan dövlət büdcəsi haqqında qanuna uyğun olaraq proqnozlaşdırılan gəlirlərin məbləği proqnozlaşdırılan xərclərin məbləğindən, habelə faktiki daxilolmalarının məbləği xərclərin məbləğindən az olduqda).

5.21-1.3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmış məbləğdə Dövlət borcu və zəmanəti üzrə Təminat Fondunun vəsaitlərinin artırılmasına.";

1.2.3.7. 5.39-cu bənddə "aparırlar" sözü "aparılır" sözü ilə əvəz edilsin;

1.2.3.8. 5.42-ci bəndin beşinci abzasına "Fonduna" sözündən sonra "və Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fonduna" sözləri əlavə edilsin;

1.2.3.9. 5.44-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.44. Büdcə ili ərzində vahid xəzinə hesabının qalığı Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən idarə olunur və (və ya) idarəetməyə verilir. Qanunun 19.2-1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, vahid xəzinə hesabının qalığının idarəetməyə verilməsi qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.";

1.2.3.10. aşağıdakı məzmunda 5.45-ci bənd əlavə edilsin:

"5.45. "Büdcə ili ərzində yaranan büdcə artıqlığının (profisitin) Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən müəyyən edilən hissəsi həmin Nazirlik tərəfindən Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fonduna köçürülə bilər.";

1.2.4. həmin Qaydaların "Qeyd" hissəsi ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 13 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 57 (Cild I); 2025, № 9, maddə 864) ilə təsdiq edilmiş "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması, qorunması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları"nın 3.8-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"3.8. Fondun hesabında ilin sonuna qalan istifadə olunmamış vəsait vahid xəzinə hesabının sərbəst qalığına köçürülür.".

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 31 yanvar tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 129) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə Qaydası"nın 3.5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"3.5. Fondun hesabında ilin sonuna qalan istifadə olunmamış vəsait vahid xəzinə hesabının sərbəst qalığına köçürülür.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2026-cı ilin may ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| Baş nazirin birinci müavini<br>Eyyubov Yaqub Abdulla oğlu | 8 |
| Baş nazirin müavini<br>Mustafayev Şahin Abdulla oğlu | 4 |
| Baş nazirin müavini<br>Şərifov Samir Rauf oğlu | 5 |
| Aparatın rəhbəri<br>Məmmədov Rüfət Tofiq oğlu | 6 |
| İqtisadiyyat şöbəsinin müdiri<br>Həsənova Sevinc Telman qızı | 7 |
| Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri<br>Rüstəmli Ruslan Rüstəm oğlu | 1 |
| Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri<br>Paşayev Zakir İlqar oğlu | 12 |
| Hüquq və qanunvericilik şöbəsinin müdiri<br>Qasımlı Xalid Akif oğlu | 13 |
| Sosial məsələlər şöbəsinin müdiri<br>Rəhimov Niyazi Süleyman oğlu | 14, 26 |
| Humanitar məsələlər şöbəsinin müdiri<br>Həbibbəyli Ərəstü İsa oğlu | 15 |
| Sənaye və energetika şöbəsinin müdiri<br>Hacızadə Elşən Mahmud oğlu | 18 |
| Aqrar və ekologiya şöbəsinin müdiri<br>Qasımov Lətif Cəfər oğlu | 19 |
| Regionların inkişafı şöbəsinin müdiri<br>Məcidov İlkin Sabir oğlu | 20 |
| Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri<br>Mustafayev Feyruz Rəvayət oğlu | 21 |
| Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri<br>Pənahov Musa Sədi oğlu | 22 |
| Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri<br>Məmmədov Anar Rəhim oğlu | 25 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012) 492-19-23, (012) 492-88-96.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 108** **17 aprel 2026-cı il, Bakı şəhəri**

**"Hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə razılıq verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə razılıq verilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 113** **21 aprel 2026-cı il, Bakı şəhəri**

**"Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"-nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli Qərarında dəyişiklik edilməsi və çağrı mərkəzi mövcud olmayan dövlət orqanlarında (qurumlarında) çağrı xidmətlərinin təşkili barədə**

"Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı"nın 4.10-cu bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 239 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına və ikinci abzasına "Dövlət orqanlarında" sözlərindən sonra "(qurumlarında)" sözü əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları" üzrə:

1.2.1. adına "Dövlət orqanlarında" sözlərindən sonra "(qurumlarında)" sözü əlavə edilsin;

1.2.2. mətn üzrə ismin müvafiq hallarında "dövlət orqanı" sözlərindən sonra ismin müvafiq hallarında "(qurumu)" sözü əlavə edilsin;

1.2.3. mətn üzrə ismin müvafiq hallarında "dövlət orqanları" sözlərindən sonra ismin müvafiq hallarında "(qurumları)" sözü əlavə edilsin;

1.2.4. mətn üzrə ismin müvafiq hallarında "orqan" sözündən sonra ismin müvafiq hallarında "(qurum)" sözü əlavə edilsin;

1.2.5. 1.4.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.4.1. dövlət orqanı (qurumu) – mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər;";

1.2.6. aşağıdakı məzmunda 1.4.4-1-ci yarımbənd əlavə edilsin:

"1.4.4-1. uzaqdan cavablandırma – təmsilçinin Çağrı Mərkəzinin xidmət zalından kənarda canlı rejimdə xidmət göstərməsi;";

1.2.7. 2.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"2.6. Çağrı Mərkəzi canlı rejimdə müraciətlərin cavablandırılmasını çoxkanallı avadanlıqlardan istifadə edilməklə dövlət orqanları (qurumları) və onların tabeliyindəki orqan (qurum) üzrə vahid nömrə ilə, vahid xidmət zalında (təmsilçi yerlərinin sayı 20 nəfərdən çox olduğu hallar istisna olmaqla), fövqəladə hallarda istifadə olunan xidmətlər (və ya qanunvericilikdə nəzərdə tutulan hallar) üzrə fasiləsiz (24/7), digər xidmətlər üzrə iş günləri saat 09:00-dan 18:00-dək fasiləsiz olaraq həyata keçirir. Təmsilçi yerləri, müraciətlərin konfidensiallığı və sayı, məlumatların məxfiliyi, habelə əlilliyi olan əməkdaşlar nəzərə alınaraq daxil olan zənglərin uzaqdan cavablandırılması həyata keçirilə bilər. Zənglərin uzaqdan cavablandırılması bu Qaydaların tələbləri nəzərə alınmaqla və müvafiq texniki avadanlıqlar təmin edilməklə həyata keçirilir. Dövlət orqanları (qurumları) öz fəaliyyət xüsusiyyətlərindən asılı olaraq daha artıq iş vaxtı müəyyən edilməsi məsələsini nəzərdən keçirirlər. Təmsilçilərin həftəlik canlı rejimdə xidmət vaxtı 36 saatdan çox olmamalıdır.";

1.2.8. aşağıdakı məzmunda 2.11-1-ci bənd əlavə edilsin:

"2.11-1. Çağrı Mərkəzinə ölkə ərazisində sabit telefon (məftilli) telekommunikasiya şəbəkələrindən zənglərin ödənişsiz qaydada edilməsi təmin edilir.";

1.2.9. aşağıdakı məzmunda 12-ci hissə əlavə edilsin:

**"12. Uzaqdan cavablandırma üzrə tələblər**

12.1. Uzaqdan cavablandırma zamanı təmsilçi kompüter, zəruri proqram təminatı, qanunvericilik bazası, müraciət edənlər barədə asan və tez məlumat almaq imkanı olan məlumat bazası, səsboğucu funksiyaları olan qulaqlıq və mikrofon, hüquqi aktlar, metodiki göstərişlər, məlumat kitabçaları və digər zəruri vasitələrlə təmin edilməlidir.

12.2. Uzaqdan cavablandırma zamanı avadanlıq və proqram təminatı bu Qaydaların 11.3-cü bəndinin tələblərinə uyğun olmalıdır.".

**2.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"nın 2.11-1-ci bəndinin icrasını təmin etmək məqsədilə müvafiq telekommunikasiya operatorları ilə birgə zəruri tədbirlər görsün.

**3.** Çağrı Mərkəzi mövcud olmayan:

3.1. mərkəzi və yerli icra hakimiyyəti orqanları çağrı xidmətlərinin "108" Çağrı Mərkəzində təşkili məqsədilə müvafiq məlumatları (sənədləri) 3 ay müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə təqdim etsinlər və qoşulma ilə bağlı digər zəruri tədbirlər görsünlər;

3.2. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslər öz vəsaitləri hesabına (fəaliyyətlərindən əldə olunan gəlirlər nəzərə alınmaqla) 5 ay müddətində çağrı mərkəzlərini yaratsınlar və ya müqavilə əsasında çağrı xidmətlərinin göstərilməsini təşkil etsinlər.

**4.** Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi:

4.1. Çağrı Mərkəzi mövcud olmayan mərkəzi və yerli icra hakimiyyəti orqanlarının çağrı xidmətlərinin "108" Çağrı Mərkəzi vasitəsilə göstərilməsini təmin etsin;

4.2. bu Qərarın 4.1-ci bəndinin icrasını təmin etmək məqsədilə "108" Çağrı Mərkəzinin maddi-texniki təminatı üçün zəruri olan maliyyə vəsaiti ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərarın 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə zəruri maliyyə vəsaitinin ayrılmasını təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 111** **20 aprel 2026-cı il, Bakı şəhəri**

**"Qazpaylayıcı sistem operatoru tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi Qaydası"nın təsdiq edilməsi və "Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 215 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.5-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Qazpaylayıcı sistem operatoru tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

**2.** "Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 215 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 875 (Cild I); 2024, № 3, maddə 305) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# “Potensial imkanları quruculuq enerjisinə müdrik və təcrübəli lider çevirə bilir”



**Bu gün ölkə gündəminin ən aktual mövzuları Qərbi Azərbaycana Qayıdış konsepsiyası, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri, regional sülh prosesi, eləcə də Ermənistan–Azərbaycan–Türkiyə münasibətlərinin normallaşması kimi prioritet məsələlərdir. Həm bunlar, həm də postmünaqişə dövrünün gətirdiyi hibrid təhdidlər və müasir qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı suallarımızı Milli Məclisin deputatı, siyasi elmlər üzrə fəlsəfə doktoru, professor, Əməkdar jurnalist Hikmət Babaoğlu cavablandırır.**






**– Hikmət müəllim, həm peşəkar tarixçi, həm də əslən Qərbi Azərbaycandan olan ziyalı kimi doğma yurda qayıdış məsələsinin tarixi ədalət və beynəlxalq hüquq müstəvisində həllini necə görürsünüz?**

– Olduqca aktual və maraqlı sualınıza Azərbaycan Prezidentinin məşhur fikri ilə cavab vermək istəyirəm. “Bizim ədalətli və qəti Qələbəmiz göstərir ki, ədalət var, sadəcə, ona nail olmaq lazımdır. Onu qazanmaq üçün isə gündəlik çalışmaq və Qələbəni hər gün yaxınlaşdırmaq tələb olunur. Xüsusən əgər son qərar səndən asılıdırsa, həyatını ona həsr etməlisən”. Məncə, bu siyasi düstur Qərbi Azərbaycana qayıtmağımızın da strateji açarıdır və tarixi ədalət kontekstində ən optimal formulasıdır. Hazırda həm Qərbi Azərbaycan İcması, həm də bütövlükdə Azərbaycan cəmiyyətinin ictimai-fəal təbəqəsi bu istiqamətdə öz enerjisini səfərbər etməyi bacarıb. Çünki tarixi torpaqlarımıza qayıtmaq ümummilli məqsəd kimi müəyyənləşdirilib. Ona görə də Qarabağımıza qayıtdığımız kimi inanıram ki, bir gün Qərbi Azərbaycanımıza da qayıdacağıq. Məsələnin beynəlxalq hüquq tərəfinə gəldikdə isə, qeyd etməliyəm ki, həm ədalət və tarixi gerçəklik, həm də beynəlxalq hüquq bizim tərəfimizdədir. Azərbaycan Prezidenti 24 dekabr 2022-ci ildə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə qayıdış konsepsiyasının bütün istiqamətlər üzrə əsas prinsiplərini konseptual şəkildə ifadə etdi. Prinsiplərdə sülh yolu vasitəsilə beynəlxalq hüquqa uyğun, ləyaqətli və təhlükəsizlik təminatı ilə, Ermənistanın tamhüquqlu vətəndaşı olaraq doğma yurda qayıtmaq daxildir. Bu prinsiplər Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 13-cü maddəsində öz əksini tapıb.

Bir faktı nəzərə almaq lazımdır ki, Ermənistanın müstəqilliyi haqqında Bəyannaməyə görə, bu ölkə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin prinsiplərini rəhbər tutur. Belə olan halda, həm ölkə qanunvericiliyinə, həm də beynəlxalq hüquqa əsasən rəsmi İrəvan Bəyannamə ilə üzərinə düşən öhdəlikləri yerinə yetirməyə borcludur. Analoji norma bir qədər geniş formada Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsində də öz əksini tapıb. Həmin maddəyə əsasən, heç kəs öz ölkəsinə qayıtmaq hüququndan məhrum edilə bilməz. Bu sənəddə də “öz ölkəsi” ifadəsi milli mənsubiyyətə əsaslanmır, dövlətlə siyasi-hüquqi bağlılıq və həmin ölkənin ərazisində uzunmüddətli yaşayış amillərini nəzərdə tutur. Adıçəkilən Pakt hüquqi statusuna görə beynəlxalq müqavilədir və tərəflərin üzərinə məcburi öhdəliklər qoyur. Ermənistanın da Paktın iştirakçısı olduğunu nəzərə alsaq, sənədin 12-ci maddəsinin tələblərinə görə azərbaycanlıların ləyaqətli və təhlükəsiz qayıdış hüququ təmin edilməlidir.

**– Hazırda işğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdış sürətlə davam edir. Bu prosesi şərtləndirən amillər Azərbaycanın qlobal logistika və geoiqtisadi mərkəzə çevrilməsi strategiyası ilə hansı ortaq nöqtələrdə kəsişir?**

– Böyük Qayıdış xalqımızın 30 ildən çox gözlədiyi, həsrətini çəkdiyi ümummilli arzusu idi və Azərbaycanın yeni inkişaf modelini formalaşdırır. Böyük Qayıdışın birinci komponenti, təbii ki, vətəndaşlarımızın tarixi yurdlarına qayıtmasıdır. Lakin nəzərə alsaq ki, proses ölkə ərazisinin, təxminən, 20 faizini əhatə edir, burada tamamilə yeni iqtisadi münasibətlər sistemi yaranır. Bu isə Böyük Qayıdışı Azərbaycan iqtisadiyyatına qazandırılan yeni inkişaf modeli kimi dəyərləndirməyə əsas verir.

Həyata keçirilən işlər həmin modelin real nəticələrini açıq şəkildə göstərir. Logistika infrastrukturunun yaradılması, yolların çəkilməsi, enerji və kommunikasiyaların bərpası, eləcə də bu proseslərin əsasən yerli resurslar hesabına davamlı şəkildə təmin olunması yeni inkişaf yanaşmasının əsas göstəricilərindəndir. Harada Böyük Qayıdış prosesi həyata keçirilirsə, həmin ərazinin iqtisadi, coğrafi və əmək resursları potensialına uyğun fərdi inkişaf modeli formalaşdırılır.

Prosesin mühüm elementlərindən biri də yeni iş yerlərinin yaradılması və yerli istehsal müəssisələrinin fəaliyyətə başlamasıdır. Həmin müəssisələr ilk baxışdan lokal xarakter daşısa da, nəticə etibarilə Azərbaycanın ümumi iqtisadi sisteminin tərkib hissəsinə çevrilir. Nəzərə almaq lazımdır ki, işğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilən işlər Azərbaycanın gələcək beynəlxalq logistika və kommunikasiya işlərinin görülməsini də təmin edir. Dolayısı ilə hazırda Qarabağ və Şərqi Zəngəzurda dünyanın yeni “Quru Süveyş kanalı” adlandırılan Zəngəzur dəhlizi (TRIPP) marşrutunun əsasları qoyulur. Bu isə Çin–Sakit okean hövzəsindən tutmuş, Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr də daxil olmaqla Avropaya uzanan ən yeni yükdaşıma marşrutu qismində çıxış edir. Bu tip strateji layihələr yüz ildə bir dəfə mümkün olan tarixi fürsətlərdir. Azərbaycan isə bu tarixi imkanı özü yaradıb və yeni reallıqları strateji üstünlüyə çevirir.

**– Milli Məclisin İnsan hüquqları, İntizam komissiyası və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin üzvüsünüz. Postmünaqişə dövrünün yeni reallıqları və hibrid təhdidlərin artdığı bir vaxtda, ölkəmizin müdafiə qabiliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi və insan hüquqlarının qorunması istiqamətində hansı addımların atılmasını zəruri sayırsınız?**

– Bu gün də dünyada və regionumuzda ağır müharibələr baş verir. Münaqişə ocaqları bəzən illərlə, bəzi təcrübələrdə isə aylarla davam edir. Nəticədə, mülki infrastruktur dağılır, vətəndaşların iqtisadi vəziyyəti çətinləşir, ölkələrin milli valyutaları devalvasiyaya uğrayır. Lakin müharibənin bitməsi üçün real şərtlər formalaşmır. Bütün bunların baş verdiyi bir şəraitdə Azərbaycanın apardığı 44 günlük müharibə XXI əsr münaqişələri tarixində tam qələbə ilə yekunlaşan nadir nümunələrdən biridir. Çünki uzun, qısa və ya ortamüddətli müharibələr əksər hallarda gərginliyin səbəblərini aradan qaldıra bilmədiyi üçün yekun hərbi nəticəni də təmin edə bilmir.

Azərbaycan isə 44 gün ərzində 30 illik işğalçı Ermənistan üzərində tam və qəti qələbə qazandı. 100 il bundan əvvəl Ermənistan və Azərbaycan arasında daimi münaqişələrin baş verməsi üçün yaradılmış separatçı qurum aradan qaldırıldı. Prosesdə Azərbaycanın vətəndaşları nə sosial rifah, nə iqtisadi, nə də alıcılıq qabiliyyəti baxımından ciddi zərər görmədi. Əksinə, əldə edilən qəti qələbədən sonra ölkə dərhal yeni tarixi inkişaf mərhələsinə keçdi. Bu, heç şübhəsiz ki, Azərbaycan dövlətinin gücü və qüdrəti, eləcə də Prezident İlham Əliyevin uzaqgörən və strateji siyasəti ilə əlaqələndirilməlidir.

Müharibənin üstündən beş ildən çox vaxt keçməsinə baxmayaraq, biz hələ də islamafob və bəzi imperialist mərkəzlərin hibrid müharibə texnologiyaları ilə üzləşirik. Elə bu günlərdə Belçika və Niderland parlamentlərinin əleyhimizə qəbul etdiyi qərarlar ermənipərəst revanşistlərin informasiya müharibəsinin bir komponenti kimi qiymətləndirilə bilər. Ancaq hibrid müharibələrin başqa bir tərkib hissəsi isə sosial şəbəkələrdə aparılan subliminal və manipuliyasiya müharibələridir. Məsələ belə olduqda real ictimai münasibətlərimizin inikası olan virtual-ictimai əlaqələrin də hüquqla tənzimlənməsi üçün yeni qanunvericilik bazası yaratmaq məsələsi aktuallaşır. Hazırda biz Milli Məclisdə köhnə qanunlara əlavə və dəyişikliklər etməklə bərabər, həm də tamamilə yeni qanun layihələri qəbul edərək müasir qanunvericilik bazası formalaşdırırıq. Mənə elə gəlir ki, hələ biz yolun başlanğıcındayıq və bu proses çox uzun sürəcək.

**– Azərbaycan–Ermənistan sülh prosesi son və həlledici mərhələyə qədəm qoyub. Sizcə, iyunun 7-də Ermənistanda keçiriləcək parlament seçkilərindən sonra siyasi rəhbərlikdən sülhə yönəlik hansı real addımları gözləmək olar?**

– Ermənistan və Azərbaycan arasında paraflanmış sülh sazişinin imzalanması üçün rəsmi Bakının yeganə tələbi Ermənistan Konstitusiyasından ərazi iddialarının çıxarılmasıdır. Tələb yerinə yetirilməyənədək sənədə son imzaların atılması olduqca çətin görünür. İki ölkə arasında razılaşdırılmış sülh layihəsinin 8 avqust 2025-ci il tarixində paraflanması mühüm siyasi hadisə idi. Lakin bu, hələ sülhün tam təmin olunduğu anlamına gəlmir. İnstitusional sülh həm hüquqi, həm də ictimai müstəvidə formalaşan bir prosesdir. Bu baxımdan, Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması, mümkün referendumun keçirilməsi və yekun sənədin imzalanması vacib şərtlərdir. Yalnız bundan sonra Bakı və İrəvan arasında rəsmi diplomatik münasibətlərin qurulması məsələsi gündəmə gələ bilər.

Prosesin hüquqi mahiyyəti ondan ibarətdir ki, tərəflər qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımalıdır. Ermənistan tərəfi nə qədər tez bu istiqamətdə zəruri siyasi və hüquqi addımları atarsa, sülhün institusional şəkildə bərqərar olması da bir o qədər sürətlənə bilər. Ona görə də 7 iyunda Ermənistanda keçiriləcək parlament seçkiləri və onun nəticələri həm də “sülh, yoxsa müharibə?” sualına cavab verməli olacaq. Hazırda Ermənistanda siyasi qüvvələrin mövcud balansı seçkilərdə sülhü dəstəkləyənlərin qalib gələcəyi ilə bağlı ehtiyatlı ümidlər yaradır. Düşünürəm ki, kənardan radikal müdaxilələr olmasa, biz seçkidən sonra sülhə bir qədər də yaxınlaşmış olacağıq

**– Türkiyə–Ermənistan normallaşma prosesi Azərbaycanla koordinasiyalı şəkildə aparılır. Nikol Paşinyan Ermənistan–Türkiyə sərhədinin açılmasından və Azərbaycanla sülh sazişinin imzalanması perspektivindən danışarkən məsələnin yalnız qarşılıqlı təmasların həyata keçirilməsi müddətindən asılı olduğunu vurğulayıb. Sizin fikrinizcə, bu təmas müddəti nə vaxt başa çatacaq?**

– Türkiyə və Ermənistan arasında sərhədlərin açılması və diplomatik əlaqələrin bərpası Azərbaycanla sinxron, koordinasiya edilmiş şəkildə həyata keçirilir. Sərhədin qismən açılması sülh ritorikasını gücləndirmək məqsədi daşıyır və sülhə doğru atılan mərhələ kimi qiymətləndirilməlidir. Ermənistan–Türkiyə sərhədinin açılması məsələsi Azərbaycanın regional sülh və nəqliyyat kommunikasiyalarının bərpası məntiqinə uyğun şəkildə tənzimlənir.

Ermənistan tərəfi sərhədin açılmasına siyasi və texniki cəhətdən hazır olduğunu, infrastrukturun qurulduğunu bildirib. Türkiyənin Əlican sərhəd-keçid məntəqəsində də hazırlıq işləri aparılır. Sərhədin ilkin mərhələdə üçüncü ölkə vətəndaşları və diplomatik pasport sahibləri üçün qismən açılması planları müzakirə olunur. Türkiyə tərəfi də Orta Dəhlizin təşviqi və Hörmüz boğazına alternativ ticarət marşrutu yaratmaq məqsədilə sərhədi açmağı məqbul hesab edir. Əslində bu, ölkəmizin də maraqlarına uyğundur. Ancaq bunun üçün yekun sülh sənədinin imzalanması vacibdir. Ümid edirik ki, belə də olacaq.

**– Bu gün Azərbaycanın qlobal miqyasda oynadığı rol təkcə dövlətimizin geosiyasi və iqtisadi resursları ilə məhdudlaşmır. Bu məsələdə Prezident İlham Əliyevin şəxsi nüfuzu və praqmatik diplomatiyası xüsusi rol oynayır...**

– Prezident İlham Əliyev tarixi zəfərimizin hərbi-siyasi və strateji memarıdır. Tarixdə hər bir qələbənin öz müəllifi olur. Bizim qələbəmizin müəllifi isə yaratdığı güclü ordusu ilə müzəffər Ali Baş Komandanımızdır! Güc nəzəriyyəsinə görə hər bir xalqın fiziki və mənəvi olmaqla milli gücü iki komponentdən ibarətdir. Ancaq bu gücü səfərbər edib milli maraqlara istiqamətləndirən böyük lider olmasa, həmin güc, sadəcə, potensial hesab edilir.

Potensial gücü gerçək gücə yalnız liderlər çevirə bilirlər. Biz istər 2003-cü ildən 2020-ci ilədək davam edən hücum diplomatiyası və alt qatlarda sirli qalan strateji sükut dövründə, istər hərbi sənayemizin təşkili ilə birlikdə ordumuzun şəxsi heyətinin peşəkarlardan komplektləşdirilməsi mərhələsində, istərsə də 44 günlük müharibə dövründə və ondan sonra davam edən postmüharibə və Böyük Qayıdış mərhələsində, bir sözlə, hər addımda Prezident İlham Əliyevin imzasını görürük. Ölkə başçısı həm siyasi-diplomatik, eləcə də qlobal “infoimperializmə” qarşı informasiya cəbhəsində qələbəmizin müəllifidir.

Azərbaycan xalqı öz düşmənlərinin nə qədər çox, nə qədər güclü olduğunu bəlkə də 30 illik işğal dövründə yox, 44 günlük müharibə və ondan ötən 5 ildə gördü. Bu həqiqətlərin fərqində olarkən biz qələbəmizin necə böyük və şanlı olduğunu bir daha yenidən dərk edirik. Başa düşürük ki, biz nəyə görə və kimlər tərəfindən birinci Qarabağ savaşında uduzdurulduq və İkinci Qarabağ savaşında qələbə əldə etmək nə qədər çətin bir milli vəzifə imiş. Əldə etdiyimiz zəfərin tarixiliyi və böyüklüyü də elə bu kontrastda ortaya çıxır. 2023-cü il sentyabrın 20-də 23 saatlıq antiterror tədbirlərində 100 il əvvəl – 1923-cü ildə yaradılan “muxtar vilayət” adlı terror və seperatçılıq yuvasını birdəfəlik dağıtdıq! Ona görə də bizim tarixi zəfərimizin hərbi strateji düsturu “44+1” formulasıdır. Qalibiyyət həmişə qibtə və həsəd yaradır. Ancaq ölkəsinin və dövlətinin imkanlarından daha böyük miqyasda tarixi qələbə əldə edən siyasətçiyə qeyri-adi lider deyirlər, onu qəhrəmanlaşdırırlar! Biz çox şanslıyıq ki, xalqımız İlham Əliyev kimi lider yetişdirib .

**– Hikmət müəllim, 60 illik yubileyiniz ərəfəsində – Azərbaycan Prezidentinin sərəncamı ilə “Şöhrət” ordeni ilə təltif olundunuz. Təbrik edirik. Həm tarixçi-alim, həm millət vəkili, həm də təcrübəli media işçisi kimi geriyə boylananda keçdiyiniz bu xidməti mərhələlərdən hansı sizin üçün daha üstün və doğmadır?**

– Məni “Şöhrət” ordeni ilə təltif etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin təşəkkürümü bildirirəm. Hesab edirəm ki, insanın ən üstün keyfiyyətləri əqli, vicdani və idraki xüsusiyyətləridir. Məhz bu keyfiyyətlər vasitəsilə insan özünü, dünyanı və ətraf mühiti dərk edir, obyektiv gerçəkliyi mənimsəyir. Düşünün ki, bir millət vəkilinin kiçik əməyini dövlət başçısı olduqca yüksək qiymətləndirir. Məncə, bu, ayrıcalıqdır və belə hissi yaşamağı bütün haqq edənlərə arzulayıram!

Tarix ədalətlidir, onu yaradanları əsla unutmur. Prezident İlham Əliyev böyük tarix yazdı və Azərbaycan tarixinin qızıl səhifələrində İlham Əliyevin adı böyük hərflərlə yazılacaq. Mənəvi-emosional kontekstdə isə Azərbaycan xalqı öz Prezidentini ürəyinə və milli yaddaşına əbədi olaraq həkk edib. Cənab Prezidentin bir əlində qılınc, yəni “dəmir yumruq”, digərində isə şəfqət, mərhəmət və qələmdir. Böyük filosof Nəsirəddin Tusinin də “Əxlaqi-Nasiri” əsərində yazdığı kimi, qılınc və qələm birlikdə dövlət deməkdir. Dəmir yumruq xalqımızı və dövlətimizi düşmənlərdən qoruyur, şəfqət və mərhəmət əli isə ona rifah, təhlükəsizlik və firavanlıq bəxş edir.

Mən xoşbəxt insanam ki, məhz Prezidentin imzaladığı sərəncamla “Şöhrət” ordeninə layiq görülmüşəm. Mən həm Əməkdar jurnalist, elmlər doktoru, professor, həm də millət vəkiliyəm. Bunların hamısı isə zehni əmək fəaliyyətini özündə əks etdirir. Yəni nəticə etibarilə mənim kiçik xidmətlərimin hamısı intellektual əməklə bağlıdır. Ona görə də hər biri mənə doğmadır. Ancaq dövlət mükafatı, eyni zamanda, həm də məsuliyyətdir. Buna qədər olduğu kimi, bundan sonrakı fəaliyyətimdə, şübhəsiz ki, bu böyük etimadı doğrultmağa, təltif edildiyim mükafata layiq olmağa çalışacağam.

*Müsahibəni qələmə aldı:*
***Tacir SADIQOV***
***XQ***

# Müstəqil Azərbaycanın investisiya salnaməsi

## *Ötən dövrdə ölkə iqtisadiyyatına 350 milyard dollarlıq kapital yatırılıb*

**Ölkəmizin son 20 ildəki iqtisadi təkamülü baza infrastrukturunun bərpasından tutmuş dərin texnoloji modernləşməyə və logistik qovşaqların yaradılmasına qədər geniş bir prosesi əhatə edir. Azərbaycan–Latviya biznes forumunda Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ötən dövrdə ölkə iqtisadiyyatına 350 milyard ABŞ dollarından çox investisiya qoyulub. Doğurdan da, Cənubi Qafqaz kimi geosiyasi proseslərin kəsişdiyi bir nöqtədə irihəcmli maliyyəni buraya yönləndirməyin özü belə iqtisadi manevr imkanlarınn peşəkarcasına istifadəsini göstərir.**




Ümumiyyətlə, hər bir maliyyə nəhənginin ilk investisiya tələbi ölkədəki sabitlik və hüquqi bazanın vəziyyəti ilə bağlıdır. Azərbaycanın investisiya uğuru biznes mühitinin əlverişliliyi və proqnozlaşdırıla bilən hüquqi baza ilə bağlıdır. 170 milyard dollarlıq xarici investisiyanın cəlb edilməsində beynəlxalq tərəfdaşların maraqlarının qanuni şəkildə qorunması faktı bu məsələdə xüsusi rol oynayır.

Digər tərəfdən, sözügedən xarici kapital Azərbaycanı Avropanın enerji xəritəsində mühüm oyunçuya çevirmişdir. Əsas investisiya sahəsi neft-qaz sektoru olsa da, bu vəsaitlər təkcə hasilata deyil, həm də mürəkkəb boru kəməri sistemlərinin qurulmasına yönəldilmişdir. Məsələn, Cənub Qaz Dəhlizi ümumi dəyəri təxminən 40 milyard dollardır, xarici və birgə investisiyaların ən ümdə nümunəsidir. Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi layihəsinin ümumi büdcəsi 4,7 milyard dollar təşkil etmişdir. TANAP - təxminən 8 milyard dollarlıq investisiya ilə ərsəyə gəlmiş, Türkiyə ərazisindən keçən əsas seqmenti təşkil edir. TAP isə 4,5 milyard avro dəyərindədir və Azərbaycan qazının ilk dəfə İtaliya, Yunanıstan və Albaniya bazarlarına çıxışını reallaşdırmışdır.

**HAŞİYƏ:** *Hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan təbii qaz alır ki, bu da qoyulan investisiyaların strateji əhəmiyyətini göstərir. Ölkə başçısının Latviya prezidenti ilə biznes–forumda iştirakı zamanı bildirdiyi kimi, biz ən böyük hasilatçı və ixracatçı deyilik, bizdən daha böyük oyunçular var. Lakin boru kəmərləri vasitəsilə qaz ixrac edən ölkələr arasında təchizat coğrafiyasına görə biz birinciyik.*

Azərbaycan hazırda Avrasiyanın əsas logistik mərkəzidir. Təkcə 2024-cü ilə qədər yolların tikintisi və təmirinə 4,96 milyard manat sərf edilmişdir. Son 20 ildə 15 min kilometrdən çox avtomobil yolu çəkilmişdir. Digər tərəfdən, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının 3 mərhələli tikintisi üçün təqribən 870 milyon manata qədər vəsait xərclənib. 2024-cü ilin sonunda limanın gücünü 25 milyon tona çatdırmaq üçün əlavə 20 milyon manat ayrılmışdır. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinə gəldikdə isə ümumi dəyəri 600 milyon dollardan çox olan plan regionda qarşılıqlı münasibətlərin güclənməsində əsas faktordur. Qeyd edək ki, ölkəmiz Gürcüstana bu xəttin inşası üçün 775 milyon dollar güzəştli kredit də ayırmışdır.

"Yaşıl enerji" sahəsi də investisiyaların əsas ünvanlarından biridir. Azərbaycan qarşıdakı onilliyə aydın və iddialı enerji gündəliyi ilə daxil olur. Strateji məqsəd 2030-cu ilə qədər bərpaolunan enerji mənbələrinin payını 30 faizə yüksəltməkdir. Bu hədəf iqtisadi transformasiyanın əsas istiqamətlərindən biri kimi formalaşır. Bu istiqamətdə həyata keçirilən layihələr artıq konkret nəticələrlə diqqət çəkir.

Ümumiyyətlə, Qaradağda inşa olunan 230 MVt gücündə günəş elektrik stansiyası xarici investisiyanın real təzahürü kimi çıxış edir. 262 milyon dollarlıq sərmayə ilə reallaşdırılan bu layihə Azərbaycanın "yaşıl enerji" xəritəsində mühüm yer tutur. Eyni zamanda, Xızı-Abşeron külək elektrik stansiyası da ölkənin enerji balansında yeni mərhələnin başlanğıcını simvolizə edir. 240 MVt gücə malik bu layihəyə yönəldilən 286 milyon dollarlıq investisiya alternativ enerji sektoruna artan beynəlxalq marağın göstəricisidir.

Regionlarda da bu proses sürətlə davam edir. Biləsuvar və Neftçalada ümumi gücü 760 MVt olan iki günəş elektrik stansiyasının tikintisi üçün 2024-cü ildə imzalanan 160 milyon dollarlıq kredit sazişi Azərbaycanın enerji təhlükəsizliyini şaxələndirmək niyyətinin bariz ifadəsidir.

Enerji sektorundakı bu dinamika sənaye sahəsində də paralel şəkildə müşahidə olunur. Ölkə üzrə fəaliyyət göstərən sənaye parkları və məhəllələrə indiyədək 8,1 milyard manatlıq investisiyanın yönəldilməsi qeyri-neft sektorunun inkişafına verilən prioriteti ortaya qoyur. Bu sahədə aparıcı mövqeni isə 5,5 milyard manatlıq investisiya həcmi ilə Sumqayıt Kimya Sənaye Parkı qoruyur.

Təkcə son 5 ilin iqtisadi panoramına nəzər saldıqda aydın görünür ki, Azərbaycan qlobal investisiya xəritəsində mövqeyini ardıcıl şəkildə möhkəmləndirir. Bu dövr ərzində ölkə iqtisadiyyatına ümumilikdə 29,3 milyard dollarlıq birbaşa xarici investisiyanın cəlb olunması iqtisadi etimadın və strateji sabitliyin göstəricisi kimi diqqət çəkir.

Xüsusilə 2024-cü il bu dinamikanın zirvə nöqtəsi kimi yadda qalıb. Həmin ildə Azərbaycana yönələn birbaşa xarici investisiyaların həcmi 7,05 milyard dollara yüksələrək son beş ilin ən yüksək səviyyəsinə çatıb. Bu artım əvvəlki illə müqayisədə 5,8 faizlik yüksəliş deməkdir və iqtisadi mühitin daha da cəlbedici hala gəldiyini açıq şəkildə nümayiş etdirir.

Müqayisə üçün qeyd edək ki, 2023-cü ildə ölkəyə daxil olan birbaşa xarici investisiyaların həcmi 6,66 milyard dollar təşkil etmişdi. Lakin cəmi bir il ərzində müşahidə olunan artım tempinin sürətlənməsi Azərbaycanın iqtisadi siyasətinin çevikliyini, investorlar üçün yaradılan əlverişli şəraitin real nəticələr verdiyini göstərir.

Ölkəmizə yönələn birbaşa xarici investisiya axınında əsas pay məhz Birləşmiş Krallığa məxsusdur. 2020–2024-cü illər ərzində bu ölkədən Azərbaycan iqtisadiyyatına 8,63 milyard dollarlıq sərmayə daxil olub ki, bu da iqtisadi əlaqələrin dərinliyindən xəbər verir. İnvestisiya sıralamasında ikinci pillədə qardaş Türkiyə qərarlaşıb. Son 5 ildə Türkiyədən ölkəmizə yönələn birbaşa investisiyaların həcmi 5,03 milyard dollara çatıb. Üçüncü sırada yer alan digər türk dövləti – Şimali Kipr isə 2,91 milyard dollarlıq investisiya ilə Azərbaycanın iqtisadi inkişafında iştirak edən əsas tərəfdaşlardan biri kimi ön plana çıxır.

Ümumilikdə isə son beş ildə Azərbaycan iqtisadiyyatına cəlb edilən 29,3 milyard dollarlıq birbaşa xarici investisiyanın böyük hissəsi – 88,3 faizi məhz on ölkənin payına düşür. Bu fakt göstərir ki, ölkənin investisiya mühiti müəyyən aparıcı iqtisadi mərkəzlər üçün xüsusilə cəlbedicidir və formalaşan tərəfdaşlıq şəbəkəsi getdikcə daha sistemli və dayanıqlı xarakter alır.

Azərbaycana yatırılan investisiyalara paralel olaraq ölkəmizin də xaricə olan vəsait qoyuluşu olduqca çoxdur. BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) "Qlobal İnvestisiya Hesabatı"nda deyilir ki, 2000-2024-cü illər ərzində Azərbaycanın xarici ölkələrə yatırdığı birbaşa investisiyaların həcmi 29 milyard 876 milyon ABŞ dolları təşkil edib. Bu göstərici 2000-2023-cü illərdə 28 milyard 644 milyon ABŞ dolları, 2000-2010-cu illərdə isə 5 milyard 790 milyon ABŞ dolları olub.

20 ildə qoyulan 350 milyard dollarlıq investisiya Azərbaycanın iqtisadi müstəqilliyini təmin etmiş və onu regional mərkəzə çevirmişdir. Xarici investisiyalar texnoloji bazanı yenilədiyi halda, daxili vəsaitlər sosial rifahın yüksəldilməsinə və strateji infrastrukturun. Şübhəsiz ki, bundan sonrakı dövrdə investisiya strategiyasından gözlənti ölkənin neftdən asılılığının azaldılmasından ibarətdir.

***Nurlan ABDALOV***
***XQ***

# Bakıda neft ticarəti və logistikası forumu




**Dünən Bakıda Xəzər və Mərkəzi Asiya regionlarında neftin ticarəti və logistikasına həsr olunmuş ikinci forum keçirilib. Forumun məqsədi regional neft ticarəti və logistikası sahəsində peşəkar dialoqun inkişaf etdirilməsi, təcrübə mübadiləsinin aparılması və işgüzar əlaqələrin qurulmasından ibarət olub. Toplantıda dəyişən qlobal mühitdə nəqliyyat və infrastruktur, maliyyə aspektləri və əməliyyatları, eləcə də ticarət strategiyaları, resurs bazası, emal və digər məsələlər barədə də geniş müzakirələr aparılıb.**

Forumda Azərbaycan Dövlət Neft Şirkətinin törəməsi – "SOCAR Trading" şirkətinin kommersiya məsələləri üzrə direktoru Tağı Tağızadə bildirib ki, dünya son 6 ildə "super dövr" adlandırıla biləcək mürəkkəb bir mərhələdən keçir. Səudiyyə Ərəbistanında baş verən hadisələrin, ardınca COVID-19 pandemiyası və Rusiya–Ukrayna münaqişəsinin qlobal iqtisadiyyata ciddi təsir göstərdiyini xatırladan T.Tağızadə hazırda dünyanın neft tədarükü üçün ən kritik nöqtə sayılan Hörmüz boğazındakı müharibə şəraiti ilə üz-üzə olduğunu diqqətə çatdırıb.

Qeyd olunub ki, hazırda Körfəz regionundan gündəlik 13-15 milyon barel civarında neft tədarükü çatışmazlığı müşahidə olunsa da, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələr alternativ boru kəmərləri və quru yolları vasitəsilə vəziyyətdən çıxış yolları tapıblar. Onun sözlərinə görə, bu addım "OPEC plyus", Beynəlxalq Enerji Agentliyi tərəfindən görülən tədbirlər, strateji neft ehtiyatlarından istifadə, neft emalı zavodlarının yüklənməsinin azaldılması və ayrı-ayrılıqda kiçik görünə biləcək digər addımlarla birlikdə, ümumilikdə, vəziyyətin və mövcud böhranın yumşaldılmasına kömək edir.

Bütün bunlara baxmayaraq, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin region üçün daha təhlükəsiz və dəyərli ixrac marşrutu olduğunu vurğulayan natiq deyib ki, neftin keyfiyyəti, daşınma müddəti, nəqliyyat xərcləri, qiymət formalaşması və sığorta xərcləri kimi amillər sözügedən kəməri region üçün daha təhlükəsiz və dəyərli ixrac marşrutuna çevirir.

Dünyanın hələ də iqtisadi inkişaf və texnoloji yeniliklərin təmin olunması üçün enerji və emal olunmuş məhsullardan asılı olduğunu bildirən T.Tağızadə daha sonra qeyd edib ki, məhz bu səbəbdən hazırkı vəziyyət bütün bazarlarda və ümumilikdə, qlobal iqtisadiyyatda ciddi təsir və dalğalanma yaradır.

Qazaxıstanın "Petrocouncil.kz" şirkətinin İdarə Heyətinin sədri Asılbek Cakiyev çıxışında ölkəsinin Xəzər dənizi vasitəsilə neft nəqli marşrutunun dəstəklənməsində, neft-kimya məhsullarının ixracını Orta Dəhliz vasitəsilə Azərbaycana yönləndirəcəyini diqqətə çatdırıb. Bu məsələdə əsas problemin Qazaxıstanın Xəzərdə infrastrukturun genişləndirilməsinə təkbaşına bir neçə milyard ABŞ dolları yatıra bilməməsindən ibarət olduğunu bildirən şirkət rəhbəri buna görə avropalı və amerikalı tərəfdaşlarla müvafiq işlərin aparıldığını bildirib: "Biz çox yaxşı başa düşürük ki, bütün Qazaxıstan neftinin 80 faizi yalnız bir boru kəməri ilə nəql olunur. Geosiyasi risklər həddən artıq çoxdur. Biz baş verən hadisələr qarşısında olduqca həssas olduğumuzu gördük. İstənilən halda bizim iki alternativ yolumuz var. Birinci və prioritet yol Xəzər vasitəsilə Azərbaycana gedən Orta Dəhliz, ikincisi isə Çinə gedən yoldur".

Asılbek Cakiyev qeyd edib ki, Qazaxıstanda neft-kimya və emal sahəsində planlaşdırılan layihələrin ümumi büdcəsi yaxın 5 il ərzində 15 milyard ABŞ dolları təşkil edəcək. Qeyd olunub ki, 2030-cu ilə qədər neft hasilatını ildə 100 milyon tona çatdırmaq kimi iddialı məqsədlər var. Bu gün ölkə dünyada 10 ən böyük neft və qaz istehsalçısı sırasında yer alır.

Pakistan Neft İnstitutunun rəhbəri Şəhriyar Omar söyləyib ki, Xəzər və Mərkəzi Asiya regionundan enerji ixracında əsas perspektiv istiqamət cənub bazarlarıdır. Onun sözlərinə görə, 5-10 ildən sonra Avropa bazarları–Qərb marşrutları region üçün əsas çıxış yolu olmayacaq: "Çünki Avropada əhali azalır və bu region fosil yanacaqlardan tədricən imtina edir. Region ölkələri diqqəti daha çox cənub istiqamətinə yönəltməlidir. Cənubda, təxminən, 2 milyardlıq, sürətlə artan əhali və inkişaf edən iqtisadiyyatlar mövcuddur. Bu isə gələcək üçün böyük bazar potensialı deməkdir".

Qonaq ölkəsinin bu baxımdan mühüm tranzit imkanları təqdim etdiyini vurğulayaraq deyib ki, Pakistandan Ərəb dənizinin isti sularına çıxış mümkündür. Bu ideyanın uzun illərdir ki, müzakirə olunmasına baxmayaraq, indiyə qədər real nəticə əldə edilmədiyini bildirən institut rəhbəri artıq şirkətlərin məhsullarını Qərbə və yaxud Şərqə deyil, Cənuba yönəldəcək infrastruktur layihələrinə investisiya etməyin vaxtının çatdığını diqqətə çatdırıb.

"SOCAR Trading" şirkətinin məsləhətçisi Mevlüt Çetinkaya isə bildirib ki, gələcəkdə xammalın çoxfunksionallığı və "yaşıl" enerjinin inteqrasiyası yeni neft-kimya zavodlarının texnoloji inkişafını müəyyən edən əsas amillər olacaq. Onun sözlərinə görə, birinci amil xammal bazasından istifadə imkanlarının genişləndirilməsi ilə bağlıdır. "Bu gün bir konkret xammal növü deyil, geniş resurs spektrindən istifadəyə imkan verən texnologiyalar hazırlanır. Bu, istehsalı daha çevik və bazardakı dəyişikliklərə daha davamlı edir", – deyə o qeyd edib.

Bununla yanaşı, şirkət rəsmisi bərpaolunan enerji mənbələrinin neft-kimya proseslərinə inteqrasiyasını ikinci əsas istiqamət adlandıraraq bildirib ki, burada söhbət "yaşıl enerji"nin istehsal zəncirlərində maksimum tətbiqindən gedir. Hazırda əsas texnoloji həllər məhz bu istiqamətdə cəmlənib, lakin onların tam kommersiyalaşdırılması üçün vaxt lazım olacaq. O əlavə edib ki, xam neftin birbaşa kimyəvi məhsullara emalı texnologiyalarına, eləcə də hidrogen energetikasının inkişafına xüsusi diqqət yetirilir, bu istiqamətlər neft emalı və neft-kimya sənayesinin inteqrasiyasının əsas elementləri kimi nəzərdən keçirilir.

"SOCAR Georgia Petroleum" şirkətinin kommersiya şöbəsinin rəhbəri Mirza Şavqulidze Gürcüstan tamamilə xarici yanacaqdan asılı olduğunu və idxalın əsasən Rusiya, Bolqarıstan, Rumıniya və Azərbaycanın payına düşdüyünü diqqətə çatdırıb. Onun sözlərinə görə, ümumi idxalın 48 faizini yanacaq təşkil etsə də, sonrakı yerlərdə Ai-95 və Aİ-92 markalı avtomobil benzini qərarlaşır.

Forum öz işini bu gün davam etdirəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# "Gədəbəy" və "Dəmirli" yataqlarında yeni emal texnologiyası

**Böyük Britaniyanın ölkəmizdə mis, qızıl və gümüş hasilatı ilə məşğul olan "Anglo Asian Mining plc" şirkəti "Gədəbəy" və "Dəmirli" yataqlarında emal güclərinin əhəmiyyətli dərəcədə yenilənməsi barədə məlumat yayıb.**



Qeyd olunub ki, "Gədəbəy" yatağında flotasiya fabrikinin modernləşdirilməsinin aprel ayının sonunadək başa çatdırılması planlaşdırılır. Ərazidə daha zəngin filizlərdən faydalı komponentlərin sürətlə çıxarılması üçün nəzərdə tutulmuş 9 ədəd yeni, yüksək səmərəli "Imhoflot" pnevmatik flotasiya şəbəkəsi quraşdırılıb. Avadanlıq "Gilar" yatağından çıxarılan yüksək tərkibli filizin emalı üçün nəzərdə tutulub. Ənənəvi flotasiya üsulları ilə müqayisədə onun qızıl və misin çıxarılma səviyyəsini artıracağı gözlənilir. Modernləşdirmənin ümumi dəyəri təxminən 1,8 milyon dollar təşkil edib.

Bundan əlavə, "Gədəbəy"də emal gücləri genişləndirilib: enerjiyə qənaət edən "Pulp Lifter" sistemi quraşdırılıb və lisenziyalı texniki xidmət üzrə yeni proqram tətbiq olunub. Yaxın vaxtlarda isə tullantı anbarının modernləşdirilməsi, o cümlədən optik lif texnologiyaları əsasında bəndin monitorinq sisteminin quraşdırılması planlaşdırılır.

Cari ilin birinci rübündə "Dəmirli" yatağında yeni reduktorun quraşdırılmasından sonra şar və SAG tipli üyütmə dəyirmanları istismara verilib və artıq sabit fəaliyyət göstərir. Şirkət, eyni zamanda, "Xarxar" və "Qaradağ" yataqları üzrə texniki-iqtisadi əsaslandırma işlərini davam etdirib. Hazırda "Qaradağ"da müstəqil ekspertlərin iştirakı ilə pilot işlər aparılır, "Xarxar" üçün isə filizlərin sınaqdan keçirilməsi planlaşdırılır.

Britaniya şirkətinin vitse-prezidenti Stiven Uestxed bu barədə deyib: "Biz "Gədəbəy" və "Dəmirli" yataqlarındakı obyektlərimizdə emal güclərinə qoyulan əhəmiyyətli investisiyalar barədə məlumat verməkdən məmnunuq. Bu, gələcəkdə gözlənilən istehsal artımından maksimum fayda əldə etmək və şirkətin inkişaf strategiyasını həyata keçirmək baxımından vacibdir".

***XQ***

# Çinlə əməkdaşlıq müzakirəsi

**Azərbaycan və Çin arasında nəqliyyat, logistika və texnologiya sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib.**



Bu barədə Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev "X" hesabında paylaşım edib. Bildirib ki, Çin Xalq Respublikasının Dövlət İnternet İnformasiya Ofisinin naziri Cuan Junven ilə görüş keçirdik. Görüş zamanı ölkələrimiz arasında nəqliyyat, logistika və texnologiya sahələrində əməkdaşlıq məsələlərini müzakirə edilib.

"İKT və innovasiya ekosisteminin inkişafı istiqamətində mövcud imkanlar barədə fikir mübadiləsi apardıq. Eyni zamanda, kibertəhlükəsizlik, tədqiqat, kadr hazırlığı və digər müvafiq sahələrdə birgə təşəbbüslərin həyata keçirilməsi, eləcə də bu istiqamətdə normativ-hüquqi bazanın genişləndirilməsi haqqında danışdıq", - paylaşımda qeyd edilib.

***XQ***

# 3 ayda "Yaşıl kart"la 9 min müqavilə qeydə alınıb

**2026-cı ilin yanvar-mart aylarında "İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqı (İSB) "Yaşıl kart" sistemi üzrə ixtisaslaşdırılmış təşkilat funksiyalarını uğurla davam etdirib. Hesabat dövründə "Yaşıl kart" sistemi çərçivəsində 9 min 34 müqavilə rəsmiləşdirilib. Ümumilikdə, 1 milyon 289 min 275 manat sığorta haqqı toplanıb.**




Bu barədə XQ-yə "İcbari Sığorta Bürosu"ndan verilən məlumatda bildirilib ki, "Yaşıl kart" müqavilələrinin 6 min 305-ü Azərbaycanda qeydiyyatdan keçən nəqliyyat vasitələri üzrə rəsmiləşdirilib və 382 min 668 manat sığorta haqqı yığılıb. Gürcüstan və Qazaxıstanda qeydiyyatdan keçən nəqliyyat vasitələri üzrə isə 2 min 729 "Yaşıl kart" müqaviləsi rəsmiləşdirilərək 906 min 607 manat sığorta haqqı toplanıb.

Cari ilin birinci rübündə Azərbaycan "Yaşıl kart" sahiblərinin təqsiri səbəbindən Türkiyə, Latviya, Litva, Polşa, Almaniya və digər ölkələrdə ümumilikdə, 73 yol-nəqliyyat hadisəsi üzrə 316 min 953 manat sığorta ödənişi həyata keçirilib. Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi isə 4 min 342 manat olub.

Gürcüstan və Qazaxıstan Respublikasında qeydiyyatdan keçən nəqliyyat vasitələrinin iştirakı ilə xarici ölkələrdə baş vermiş 25 hadisə üzrə 193 min 245 manat sığorta ödənişi həyata keçirilib. Bir hadisə üzrə orta sığorta ödənişi 7 min 730 manat təşkil edib.

"Yasil kart" sistemi üzv büroların qarşılıqlı zəmanəti əsasında, avtonəqliyyat vasitələri ilə xarici ölkələrə səfər edən sürücülərin mülki məsuliyyətini sığortalayan vahid təminat sistemidir. Sistemin məqsədi xarici avtonəqliyyat vasitələrinin iştirakı ilə baş verən yol-nəqliyyat hadisələri zamanı zərər çəkmiş şəxslərin tələblərinin hadisənin baş verdiyi ölkənin daxili qanunvericiliyi ilə nəzərdə tutulmuş şərtlərə və qaydalara uyğun olaraq tənzimlənməsidir.

Qeyd edək ki, İSB 2016-cı ildə Beynəlxalq Bürolar Şurasına üzv seçilib və beynəlxalq "Yaşıl kart" sistemində Azərbaycanı təmsil edir. 2023-cü il yanvarın 1-dən Gürcüstan və Qazaxıstanda qeydiyyatdan keçmiş nəqliyyat vasitələrinə də Azərbaycan "yaşıl kart"larının satışı həyata keçirilir.

***XQ***

# Ermənilər soyqırımına məruz qalmayıb, soyqırımı törədiblər

## 1918-ci ilin Mart qırğınları zamanı Azərbaycanda törədilən qətliamların mənzərəsi



**Vasif QAFAROV,**
*Milli Məclisin deputatı,*
*tarix elmləri doktoru*

**(əvvəli qəzetin 23 aprel tarixli sayında)**

### Şamaxı soyqırımı

Bir həftəlik fasilədən sonra, 1918-ci aprelin 10-da S.Lalayevin və T.Əmirovun başçılıq etdiyi erməni silahlı birləşmələri və qəzanın molokan əhalisindən ibarət silahlı dəstələr Şamaxı şəhərinə ikinci dəfə hücum edib və şəhəri tamamilə viran qoyublar. Müsəlmanlara məxsus bütün evlər, ticarət və mülki obyektlər talan edilib, dağıdılıb və yandırılıb, şəhərdə qalan müsəlman əhali tamamilə məhv edilib. Erməni silahlı birləşmələri S.Lalayevin əmri ilə əksəriyyəti qadın, uşaq və qocalardan ibarət olan şəhər sakinlərini məscidlərə yığıb və diri-diri yandırıblar. Mühasirəyə alınmış məscidlərdən çıxmağa və xilas olmağa çalışanları güllələyiblər. Müsəlman əhalini qorumaq üçün öz evində və "Yuxarıqala" məscidində 400-dək uşaqlı qadına sığınacaq vermiş Axund Cəfərqulu görünməmiş qəddarlıqla qətlə yetirilib, insanlar diri-diri yandırılıb.

FTK-nın hesablamalarına görə, təkcə Şamaxı şəhərində törədilən türk-müsəlman soyqırımları zamanı şəhərin 21 min 127 nəfər müsəlman əhalisindən 10 mini amansızcasına qətlə yetirilib, şəhərdən qaçaraq sağ qalan əhali isə qaçqın halında Azərbaycanın müxtəlif şəhər və qəzalarına dağılıblar. Şamaxı şəhəri tamamilə dağıdılıb və yandırılıb, türk-müsəlman əhaliyə 1 milyard rubl maddi ziyan vurulub. Arxiv sənədlərində qaçqın və köçkünə çevrilən əhali arasında soyuq, aclıq və xəstəlikdən ölənlərin sayının çox olduğu bildirilsə də, yekun rəqəm göstərilmir. Əslində davam etməkdə olan anarxiya və qarışıqlıq dövründə belə bir statistikanın aparılması mümkün olmayıb.

Şamaxı şəhəri ilə paralel olaraq Şamaxı qəzasının 110 müsəlman kəndinə hücum edən ermənilər bu kəndlərdən 106-nı tamamilə yandırıb və dağıdıb, 10 min 440 nəfər türk-müsəlmanı soyqırımına məruz qoyaraq ağır işgəncələrlə öldürüb, meyitlərin üzərində olmazın təhqiramiz hərəkətlər ediblər. Bir çox kəndlərdə çox az sayda insan qaçıb canını qurtara bilib, kənddə qalanlar son nəfərinədək öldürülüb, əhalinin əmlakı tamamilə talan edilib və yandırılıb. Məsələn, Nəvai kəndində 955 nəfər (555 kişi, 260 qadın, 140 uşaq), Qaqyalı kəndində 922 nəfər (360 kişi, 412 qadın, 150 uşaq), Dilman kəndində 585 nəfər (300 kişi, 235 qadın, 50 uşaq), Qubalı Bala-Oğlan kəndində 535 nəfər (250 kişi, 150 qadın, 135 uşaq), Ağsu kəndində 500 nəfər (200 kişi, 300 qadın və uşaq), Kelva kəndində 500 nəfər (250 kişi, 150 qadın, 100 uşaq), Ərəbqədim kəndində 378 nəfər (200 kişi, 100 qadın, 78 uşaq), Bağırlı kəndində 370 nəfər (80 kişi, 150 qadın, 140 uşaq), Tircan kəndində 360 nəfər (300 kişi, 40 qadın, 20 uşaq), Kuşi kəndində 332 nəfər (192 kişi, 115 qadın, 25 uşaq), Əngəxaran kəndində 235 nəfər (176 kişi, 28 qadın, 31 uşaq) öldürülüb və s.

Elə kəndlər də vardır ki, bu kəndlərdə erməni cəlladlarının əlindən canını qurtarmaq üçün meşə və dağlara qaçan insanlar arasında tələfat daha yüksək olub. Məsələn, Keşdiməz kəndində ermənilər tərəfindən 60 nəfər öldürülüb, 95 nəfər (59 kişi, 36 qadın) əsir götürülüb. Amma meşə və dağlara qaçan insanlardan soyuq və aclıqdan ölənlər 400 nəfər olub.Ləngəbiz kəndində 25 nəfər ermənilər tərəfindən öldürüldüyü halda, digər yerlərə qaçanlardan soyuq və aclıqdan ölənlər 505 nəfər olub. Təklə-Hacı Məmməd-Hüseyn kəndində 35 nəfər (28 kişi, 7 qadın) ermənilər tərəfindən öldürülüb, digər yerlərə qaçanlardan soyuq və aclıqdan ölənlərin sayı 400 nəfər olub. Çaylı-Ağa-Kişi-Bəy kəndində ermənilər tərəfindən 31 nəfər (24 kişi, 7 qadın) öldürülüb, digər yerlərə qaçanlar arasında isə soyuq və aclıqdan ölənlərin sayı 250 nəfər olub.

FTK-nın Şamaxı qəzasının erməni hücumuna məruz qalmış hər bir kəndi üzrə tərtib etdiyi yekun aktlara görə, 110 kənd üzrə öldürülən 10 min 440 nəfərin 5 min 23-ü kişi, 2741-i qadın, 1444-ü uşaq, 300-ü qadın və uşaq olaraq göstərilib, 932-sinin isə cinsi göstərilməyib, sadəcə, öldürülən insan sayı kimi verilib. Bunlardan başqa, ermənilərin hücumlarından canlarını qurtarmağa çalışan türk-müsəlmanların müəyyən bir qismi dağlara və meşələrə qaça bilsə də, burada da insan tələfatı yüksək olub. Təkcə dağlara və meşələrə qaçanlardan əksəriyyəti qadın, qoca və uşaq olmaqla 1855 nəfəri həyatını itirib. Bütövlükdə 110 kənd üzrə 12 min 295 nəfər türk-müsəlman öldürülüb, 276 nəfər (168 kişi, 58 qadın, 50 uşaq) ağır yaralanaraq şikəst edilib. 110 kəndin türk-müsəlman əhalisinə vurulmuş maddi ziyanın məbləği 631 milyon 208 min 132 rubl təşkil edir.

Bütövlükdə, Şamaxı qəzasında 22 min 295 nəfər öldürülüb və meyitlər üzərində olmazın təhqiramiz hərəkətlər edilib. Şamaxı qəzasının müsəlman əhalisinə vurulmuş maddi ziyanın məbləği 1 milyard 631milyon 208 min 132 rubl təşkil edir. Bütün bunlar FTK-nın təhqiqat və istintaq materialları ilə tam sübuta yetirilib. Şamaxı qəzasında erməni-bolşevik alyansı tərəfindən həyata keçirilən türk-müsəlman soyqırımı FTK-nın 22 cild istintaq materialı və 63 fotoşəkil əsasında sənədləşdirilib.

Bütün bunlardan məlum olur ki, 1918-ci il soyqırımları zamanı Bakı quberniyasının qəza mərkəzləri olan Bakı, Salyan, Göyçay, Quba, Lənkəran və Şamaxı şəhərləri və eyniadlı qəzalar üzrə 367 kənd tamamilə talan edilib, dağıdılıb və yandırılıb. FTK-nın təhqiqat və istintaq sənədlərinə görə, ümumilikdə Bakı quberniyası üzrə 41 min 24 nəfər türk-müsəlman qətlə yetirilib, 276 nəfər şikəst edilib, əhalinin əmlakına 1918-ci ilin qiymətləri ilə 3 milyard 322 milyon 829 min 191 rubl maddi ziyan vurulub.

Bu rəqəmlər təkcə FTK-nın təhqiqatları üzrə çıxarılan rəqəmlərdir. Nəzərə alsaq ki, 1918-ci il soyqırımlarının bütün Azərbaycan üzrə, o cümlədən də Bakı quberniyası üzrə nəticələrinin bir xeyli hissəsi adıçəkilən komissiyanın təhqiqatlarından kənarda qalıb, o zaman Azərbaycanın digər bölgələri kimi, Bakı quberniyasında da 1918-ci il soyqırımlarının miqyasının daha böyük olduğu üzə çıxar. 1918-ci il soyqırımları zamanı Bakı quberniyasında soyqırımı qurbanlarının sayı ən azı 5 min nəfərdən çox olub.



1918-ci il də Yelizavetpol (Gəncə) quberniyasının əsas etibarilə Ərəş, Nuxa (Şəki), Cavanşir, Cəbrayıl, Şuşa və Zəngəzur qəzaları ermənilər tərəfindən dağıdıcı hücumlara məruz qalıb. Bu qəzalarda azərbaycanlı əhaliyə qarşı soyqırımı törədilib. Qəzalar üzrə soyqırımının nəticələri aşağıdakı kimi olub:

### Ərəş soyqırımı

FTK-nın sənədlərinə görə, erməni silahlı birləşmələri 1918-ci ilin yanvar-iyun ayları ərzində Gəncə quberniyasının Ərəş qəzasının 69 kəndinə dağıdıcı hücumlar edib. Daşnak silahlı birləşmələri bu hücumlar zamanı qarşılarına çıxan istənilən türk-müsəlmanı qadın, qoca və uşağa belə fərq qoymadan xüsusi amansızlıqla qətlə yetirib, südəmər uşaqları nizələrə taxıb, hamilə qadınların qarınlarını yırtıb çağaları süngüyə keçirib, öldürdükləri insanların üz dərilərini soyub və sözlə ifadə edilməsi mümkün olmayan vəhşiliklər törədiblər. Müsəlmanlara məxsus mülk və evlər, mağaza və məscidlər, ictimai binalar talan edilib, dağıdılıb və yandırılıb.

FTK sənədlərində Ərəş qəzasında erməni hücumuna məruz qalan 69 kənddən 49-nun insan tələfatı və vurulan maddi ziyanlarla bağlı tərtib olunan yekun aktları vardır. 20 kəndin isə yekun aktları çıxarılmayıb, kəndlərin sadəcə adları qeyd olunub və bu kəndlərin tamamilə talan edilməsindən bəhs edilib. FTK-nın sənədlərə görə, Ərəş qəzasının 69 kəndində 500 nəfər (140 kişi, 83 qadın, 79 uşaq, 198 nəfərin isə yaşı və cinsi göstərilməyib) xüsusi amansızlıqla öldürülüb və meyitlər üzərində təhqiramiz hərəkətlər edilib. 15 nəfər ağır bədən xəsarəti alaraq şikəst olub. Ermənilərin əlindən canlarını qurtarmaq üçün meşə və dağlara qaçanlar arasında soyuq, aclıq və xəstəlikdən ölənlərin miqyası böyük olub, lakin onların dəqiq sayı ilə bağlı təhqiqat sənədlərində yekun rəqəm yoxdur.

FTK-nın hesablamalarına görə, 1918-ci ilin yanvar-iyun aylarında ermənilərin törətdiyi soyqırımları zamanı Ərəş qəzasının 49 kəndi üzrə müsəlman əhalisinə vurulan maddi ziyanın məbləği odövrkü qiymətlərlə 27 milyon 786 min 495 rubl təşkil edib. Yekun aktları tərtib olunmayan 20 kənd üzrə təxmini hesablamalara görə vurulmuş ziyanın məbləği 20 milyon rubldan çoxdur. Bu hesabla, ermənilərin törətdiyi soyqırımı və talanlar zamanı Ərəş qəzasının 69 kəndi üzrə türk-müsəlman əhalisinə vurulan maddi ziyanın məbləği 50 milyon rubl civarındadır.

### Nuxa soyqırımı

FTK-nın sənədlərində Gəncə quberniyasının Nuxa qəzasının erməni silahlı birləşmələrinin hücumuna, soyqırımı və talanlara məruz qalan 25 kəndinin adı qeyd edilir. Məruzədə ermənilərin müsəlmanları qəddarlıqla qətlə yetirməsi və onların törətdikləri bir çox vəhşiliklər haqqında geniş məlumat verilsə də, hücuma məruz qalan hər bir kənd üzrə öldürülənlər və vurulan maddi ziyanlarla bağlı yekun rəqəm əks olunmayıb.

Eyni zamanda, canlarını qurtarmaq üçün digər yerlərə qaçan əhali arasında ölüm faktları da təhqiqatdan kənarda qalıb. FTK-nın təhqiqat sənədlərində və hesabatlarında Nuxa qəzasında 30 müsəlmanın öldürülməsi ilə bağlı məlumat verilir. Əlbəttə ki, bu, yekun rəqəm deyildir. FTK-nın sənədlərinə istinadən təxmini hesablamalara görə, Nuxa qəzasının 25 kəndi üzrə müsəlman əhalisinə vurulan maddi ziyanın məbləği 50 milyon rubl civarında olub.

### Cavanşir soyqırımı

FTK-nın sənədlərində Gəncə quberniyasının Cavanşir qəzasının Kolanı icmasında 14 nəfərin xüsusi amansızlıqla qətlə yetirilməsi, şaqqalanması və meyitlərinin yandırılması ilə bağlı faktlar vardır. Bu insanlar xüsusi amansızlıqla öldürülüb və meyitlər üzərində təhqiramiz hərəkətlər edilib. Kəndlər tamamilə talan edilib və yandırılıb. Təxmini hesablamalara görə, Cavanşir qəzasının Kolanı icmasına daxil olan 12 kənddə 1000 nəfərdən artıq türk-müsəlman öldürülüb və əhalinin əmlakına 60 milyon rubldan artıq maddi ziyan vurulub.

### Cəbrayıl soyqırımı

FTK-nın sənədlərindən məlum olur ki, 1918-ci ildə Gəncə quberniyasının Cəbrayıl qəzasının 25-dən çox kəndi erməni silahlı birləşmələrinin hücumlarına məruz qalıb. FTK-nın aktlarında təsbit edilən Cəbrayıl qəzası üzrə erməni silahlı quldur dəstələri tərəfindən öldürülən türk-müsəlmanların sayı 55 nəfərdir. Təbii ki, bu rəqəm Cəbrayıl qəzası üzrə öldürülən insanların sayı ilə bağlı yekun rəqəm deyildir. Çünki FTK-nın üzvləri Cəbrayıl qəzasında lazımi səviyyədə təhqiqat və ermənilərin hücumlarından əziyyət çəkən insanların dindirilməsini həyata keçirə bilməyib. Məcburi köçkünə çevrilərək Azərbaycanın müxtəlif bölgələrinə səpələnən Cəbrayıl qəzasının müsəlman əhalisi FTK-nın təhqiqatından kənarda qalıb. FTK-ya təqdim edilən ərizələrə və komissiyanın yekun aktlarına görə, erməni silahlı birləşmələrinin hücumları və talanları nəticəsində Cəbrayıl qəzasının müsəlman əhalisinə vurulan maddi ziyanın məbləği 100 milyon rubldan çoxdur.

### Şuşa soyqırımı

1918-ci ildə erməni hücumlarına məruz qalan bölgələrdən biri də Gəncə quberniyasının Şuşa qəzası olub. FTK-nın təhqiqat materiallarında və yekun aktlarında göstərilir ki, erməni silahlı birləşmələrinin hücumları və törətdikləri vəhşiliklər nəticəsində Şuşa qəzasında 30-a yaxın kənd tamamilə dağıdılıb, yandırılıb və talan edilib. Şuşa qəzası üzrə öldürülənlərin sayı 100 nəfərdən çoxdur. Öldürülənlərin meyitləri üzərində ağlagəlməz vəhşiliklər edilib. İnsanlar süngülərlə dəlik-deşik edilib, başları kəsilib, kiçik yaşlı uşaqlar süngülərə taxılaraq vəhşicəsinə öldürülüb, insanlar tikə-tikə doğranıb, yandırılıb və meyitlər sözlə ifadə edilməsi mümkün olmayan təhqirlərə məruz qalıb. FTK-nın ümumiləşdirdiyi yekun hesabata görə, erməni silahlı birləşmələrinin törətdiyi soyqırımı və talanlar nəticəsində Şuşa qəzasına vurulan maddi ziyanın məbləği 100 milyon rubldan çox olub.

### Zəngəzur soyqırımı

1918-1920-ci illərdə erməni vəhşiliklərindən ən çox ziyan çəkən Azərbaycan bölgələrindən biri də Gəncə quberniyasının Zəngəzur qəzası olub. FTK-nın təhqiqat materiallarına görə, 1918-ci ilin avqust ayına qədər Zəngəzur qəzasının 115 kəndi ermənilər tərəfindən darmadağın edilərək, məhv edilib. Bütün kəndlər yandırılıb, əhalinin əmlakı talan edilib. FTK-nın məruzəsində qeyd edilir ki, ermənilər tərəfindən Zəngəzur qəzasının 115 kəndi üzrə 7729 nəfər, o cümlədən 3257 kişi, 2276 qadın və 2196 uşaq öldürülərək qətlə yetirilib, 2339 nəfər, o cümlədən 1060 kişi, 794 qadın və 485 uşaq yaralanıb, yekun olaraq qəzada hər iki cinsdən 10 min 68 insan öldürülüb və ya şikəst edilib.

Canını qorumaq üçün Zəngəzur qəzasından Azərbaycanın başqa ərazilərinə qaçan əhalinin sayı 50 min nəfəri keçib. Zəngəzur qəzasında Azərbaycana vurulan ziyanın məbləği 1 milyard rubldan çox olub. Məruzədə o da qeyd edilir ki, erməni vəhşiliklərinin bu dəhşətli martiroloqu – şəhidlərin siyahı kitabı, çətin ki, reallığa yaxın olsun, həqiqətdə bu rəqəmlər göstərildiyindən xeyli artıq olmalıdır, çünki qəzanı bürüyən vəhşi bir xaosun, qarışıqlığın içində, sayı bilinməyən və nəzarət edilməsi qeyri-mümkün olmayan qətllərin içində bir çox hadisələr: kütləvi qətllər, müsəlmanların kütləvi və panik qaçışı üzündən araşdırılmamış qalıb.

Bütün bunlardan məlum olur ki, 1918-ci il soyqırımları zamanı Gəncə quberniyasının Ərəş, Nuxa (Şəki), Cavanşir, Cəbrayıl, Şuşa və Zəngəzur qəzaları üzrə qəza mərkəzləri ilə yanaşı, ümumilikdə 276 kənd tamamilə talan edilib, dağıdılıb və yandırılıb. FTK-nın təhqiqat və istintaq sənədlərinə görə, ümumilikdə, Gəncə quberniyası üzrə 9 min 414 nəfər türk-müsəlman amansızlıqla qətlə yetirilib, 2 min 354 nəfər ağır bədən xəsarəti alaraq şikəst olub, əhalinin əmlakına 1918-ci ilin qiymətləri ilə 1milyard 360 milyon rubl maddi ziyan vurulub.

İrəvan quberniyasında azərbaycanlıların soyqırımı 1917-ci ilin sonlarından başlayaraq 1920-ci ilin sonlarınadək davam edib və bütün quberniya ərazisini əhatə edib. Ermənilərin törətdiyi soyqırımları zamanı miqyasına görə ən böyük itki və tələfatlara məruz qalan bölgələrimizdən biri məhz İrəvan quberniyası olub. 1917-ci ilin sonlarından 1918-ci ilin mart ayınadək erməni silahlı birləşmələri İrəvan quberniyasının İrəvan qəzasında 32, Eçmiədzin qəzasında 84, Novo-Bəyazid qəzasında 7 və Sürməli qəzasında 75 kəndi – toplam 198 kəndi darmadağın edib, həmin kəndlərdə yaşayan azərbaycanlıları soyqırıma məruz qoyublar. 1918-ci ilin mayında İrəvan mərkəz olmaqla erməni dövlətinin yaradılmasından sonra İrəvan bölgəsində vəziyyət daha da ağırlaşıb, türk-müsəlmanlara qarşı soyqırımı cinayətləri daha intensiz xarakter alıb. 1919-cu ilin sonlarına qədər Zəngibasarın bir neçə kəndi istisna olmaqla, İrəvan qəzasının, o cümlədən Vedibasarın bütün kəndləri məhv edilib, əhalisi vəhşicəsinə öldürülüb, sağ qalanlar canlarını xilas edərək başqa yerlərə qaçıblar.

Qəribədir ki, İrəvan quberniyası ərazisində ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı cinayətləri Azərbaycan Cümhuriyyəti hökumətinin qərarı ilə yaradılmış FTK-nın təhqiqatından kənarda qalıb. İrəvan quberniyası ərazisində ermənilərin törətdiyi soyqırımları zamanı türk-müsəlman əhalinin məruz qaldığı itki və tələfatların tam həcmini müəyyən etmək mümkün deyildir. Bununla belə, Osmanlı hərbi komandanlığının yerli əhali nümayəndələri ilə birgə apardığı təhqiqatların nəticələri üzrə bu bölgədə Azərbaycanın məruz qaldığı itki və tələfatları qismən də olsa müəyyən edə bilirik.

### Şərur və Sədərək soyqırımı

1918-1920-ci illərdə ermənilərin törətdiyi soyqırımına və böyük həcmdə itki və tələfatlara məruz qalan bölgələrimizdən biri də Naxçıvan və Şərur-Dərələyəz qəzaları olub. 1917-ci ilin sonlarından başlayaraq, erməni silahlı birləşmələri Naxçıvan və Şərur-Dərələyəzin 100-dən artıq kəndinə silahlı basqınlar edib, qarşılarına çıxan istənilən müsəlmanı qadın, qoca, uşağa belə fərq qoymadan vəhşicəsinə qətlə yetirib, meyitlər üzərində təhqiramiz hərəkətlər edib, kəndləri tamamilə dağıdıb və yandırıblar.

1920-ci ilin dekabrında Osmanlı hərbi komandanlığının yerli əhali nümayəndələri ilə birgə apardığı təhqiqatların nəticələrinə görə, 1918-1920-ci illərdə Şərur və Sədərək rayonlarının 56 kəndində 506 nəfər vəhşicəsinə öldürülüb, 186 nəfər əsir götürülüb, evlərindən didərgin düşənlərdən 7 min 773 nəfəri aclıq, soyuq və xəstəlikdən ölüb, 9 min 907 nəfər mühacirətdən döndükdən sonra vəfat edib. Ümumilikdə, Şərur və Sədərək bölgəsinin 56 kəndi üzrə ermənilərin törətdiyi soyqırımı qurbanlarının sayı 18 min 400 nəfərdir. Bu ərazi üzrə türk-müsəlman əhaliyə ümumilikdə 1 milyard rubldan çox maddi ziyan vurulub.

### Dərələyəz soyqırımı

Dərələyəz qəzası erməni silahlı birləşmələrinin hücumlarına ən intensiv surətdə məruz qalan ərazi olub. Azərbaycanın digər qəzaları ilə müqayisədə bu bölgədə soyqırımı cinayətləri daha uzun müddət davam edib və insan tələfatı da çox olub. Osmanlı hərbi komandanlığının yerli əhali nümayəndələri ilə birgə 1920-ci ilin dekabrında apardığı təhqiqatların nəticələrinə görə, 1918-1920-ci illərdə təkcə Dərələyəz qəzasının 53 kəndində 9 min 735 ev dağıdılıb və ya yandırılıb, 57 min 240 nəfər türk-müsəlman öldürülüb. Öldürülənlərin əksəriyyəti qadın, qoca və uşaq olmaqla amansız işgəncə ilə öldürülüb, meyitlər üzərində sözlə ifadə edilməsi mümkün olmayan təhqiramiz hərəkətlər və iyrəncliklər həyata keçirilib. Əhalinin əmlakı talan edilib, türk-müsəlman əhaliyə 1 milyard rubldan çox maddi ziyan vurulub.

Bütün bunlardan məlum olur ki, 1918-1920-ci illər ərazində ermənilərin İrəvan quberniyası ərazisində azərbaycanlılara qarşı törətdiyi soyqırımları zamanı qəza mərkəzləri ilə yanaşı, quberniyanın ümumilikdə 307 kəndi tamamilə talan edilib, dağıdılıb və yandırılıb. Osmanlı hərbi komandanlığının yerli əhali nümayəndələri ilə birgə 1920-ci ilin dekabrında apardığı təhqiqatların nəticələrinə görə, İrəvan quberniyası üzrə ümumilikdə 75 min 640 nəfər türk-müsəlman qətlə yetirilib, əhalinin əmlakına 1918-ci ilin qiymətləri ilə 2 milyard rubldan çox maddi ziyan vurulub.

Yüz minlərlə azərbaycanlı əhali qaçqın və məcburi köçkünə çevrilib. 1916-cı ildə İrəvan quberniyasında 373 min 582 nəfər azərbaycanlı qeydə alındığı halda, 1920-ci ilin noyabrında Ermənistanda cəmi 12 min nəfər azərbaycanlı qeydə alınıb.

Beləliklə, bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, FTK-nın apardığı təhqiqatların nəticələrinə görə, 1918-ci ildə ermənilərin törətdiyi soyqırımlar zamanı Bakı quberniyası üzrə 367 kənd talan edilib, dağıdılıb və yandırılıb. FTK-nın təhqiqat və istintaq sənədlərinə görə, ümumilikdə Bakı quberniyası üzrə soyqırımı qurbanları 41 min 300 nəfər (41 min 24 nəfər türk-müsəlman qətlə yetirilib, 276 nəfər (168 kişi, 58 qadın, 50 uşaq) ağır yaralanaraq şikəst edilib) olub, əhalinin əmlakına 1918-ci ilin qiymətləri ilə 3 milyard 322 milyon 829 min 191 rubl maddi ziyan vurulub.

Gəncə quberniyası üzrə 276 kənd talan edilib, dağıdılıb və yandırılıb. FTK-nın təhqiqat və istintaq sənədlərinə görə, ümumilikdə, Gəncə quberniyası üzrə soyqırımı qurbanları 11 min 768 nəfər (9414 nəfər türk-müsəlman amansızlıqla qətlə yetirilib, 2354 nəfər ağır bədən xəsarəti alaraq şikəst edilib) olub, əhalinin əmlakına 1918-ci ilin qiymətləri ilə 1 milyard 360 milyon rubl maddi ziyan vurulub.

İrəvan quberniyası üzrə 307 kəndi talan edilib, dağıdılıb və yandırılıb. Osmanlı hərbi komandanlığının yerli əhali nümayəndələri ilə birgə 1920-ci ilin dekabrında apardığı təhqiqatların nəticələrinə görə, ümumilikdə, İrəvan quberniyası üzrə 75 min 640 nəfər türk-müsəlman qətlə yetirilib, əhalinin əmlakına 1918-ci ilin qiymətləri ilə 2 milyard rubldan çox maddi ziyan vurulub.

Bütövlükdə, Azərbaycan üzrə (Bakı, Gəncə və İrəvan quberniyaları üzrə) ümumilikdə 950 kənd talan edilib, dağıdılıb və yandırılıb, 128 min 708 nəfər azərbaycanlı soyqırımının qurbanı olub. Onlardan 126 min 78 nəfər xüsusi amansızlıqla qətlə yetirilib, 2630 nəfər ağır bədən xəsarəti alaraq şikəst olub, yüz minlərlə insan qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum edilib, əhalinin əmlakına 1918-ci ilin qiymətləri ilə 6 milyard 682 milyon 829 min 191 rubl maddi ziyan vurulub. Onu da qeyd edək ki, 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımların bütün Azərbaycan üzrə nəticələrinin bir xeyli hissəsi aparılan təhqiqatlardan kənarda qalıb. Onları da nəzərə alsaq, o zaman 1918-ci il soyqırımları zamanı Azərbaycanın məruz qaldığı itki və tələfatların miqyasının daha böyük olduğuna şahid olarıq.

Azərbaycanlılara qarşı törədilən soyqırımları araşdıran FTK-nın təhqiqat və istintaq materialları sübut edir ki, 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınlar XX əsrdə törədilmiş ən qatı soyqırımı cinayətidir. FTK-nın sənədlərinin mövcudluğu onu deməyə əsas verir ki, Azərbaycan tərəfinin ermənilərin ötən əsrin əvvəlində törətdiyi soyqırımlar haqqında bəyanatları mücərrəd xarakter daşımır, gerçək tarixi faktlara söykənir. Başqa sözlə desək, azərbaycanlıların soyqırımı faktı təhqiqat və istintaq materialları, ekspertiza protokolları və şahid ifadələri ilə tam sübuta yetirilir.

Türkiyə tarixçilərinin gəldiyi ümumi yekun fikrə görə, Birinci Dünya müharibəsi illərində ermənilərin Şərqi Anadolu bölgələrində törətdiyi soyqırımları zamanı öldürülən türk-müsəlman əhalisinin ümumi sayı 650 min-700 min arasındadır. İran tarixçilərinin gəldiyi ümumi fikrə görə, ermənilərin Cənubi Azərbaycan ərazilərində (Urmiya, Xoy, Səlmas və s.) törətdiyi soyqırımları zamanı öldürülən türk-müsəlman əhalisinin ümumi sayı isə 140 min-160 min arasındadır. Bunlar da nəzərə alındıqda, Birinci Dünya müharibəsi illərində ermənilərin törətdiyi soyqırımları zamanı Şərqi Anadolu, Cənubi Qafqaz və Cənubi Azərbaycan ərazilərində ümumilikdə, 1 milyona yaxın türk-müsəlmanın qətlə yetirildiyi aydın olur.

Bu təkzibedilməz faktlardan çıxış edərək tam qətiyyətlə demək olar ki, ermənilər soyqırımına məruz qalmayıb, soyqırımı törədiblər. Həm də azərbaycanlıları soyqırımına məruz qoyublar.

# Ermənistanda Azərbaycanın mədəni irsi kütləvi vandalizmə məruz qalıb

**Son günlər erməni tərəfi Xankəndidə köhnəlmiş və qəzalı binaların sökülməsini dünyaya saxta “mədəni soyqırımı” kimi təqdim etməyə çalışır. Lakin gerçəklik tamamilə başqadır. Sökülən tikililər tarixi abidə deyil, onların bəziləri 30 illik işğal dövründə Azərbaycanın suverenliyini tapdalamaqla ucaldılmış, şəhərin baş planını pozmuş obyektlərdir. Bu binaların bir neçəsi isə separatçı rejimin rəmzləri olduğu üçün onların ləğvi beynəlxalq hüququn və ədalətin tələbidir.**



Əsl mədəni vandalizmi isə onilliklər boyu Ermənistan özü həyata keçirib. Bu gün saxta “irs” dərdi çəkənlər, qədim Qərbi Azərbaycan torpaqlarında azərbaycanlılara məxsus yüzlərlə tarixi abidəni sistemli şəkildə yer üzündən siliblər. Arxiv sənədləri təsdiq edir ki, vaxtilə İrəvan quberniyasında yüzlərlə məscid, karvansara və mədrəsə fəaliyyət göstərib. Lakin bu gün həmin irsin böyük hissəsi ya dağıdılıb, ya da tanınmaz hala salınıb.

Buna ən bariz nümunə İrəvandakı məşhur Göy məsciddir. 1766-cı ildə İrəvan xanı Hüseynəli xan tərəfindən tikilən bu Azərbaycan memarlıq incisi bu gün dünyaya “fars məscidi” kimi təqdim olunur. Hətta 2015-ci ildə bu məscidin 250 illiyi qeyd olunarkən Ermənistan rəhbərliyi onu UNESCO-ya “İran–Ermənistan abidəsi” kimi təqdim etməyə cəhd göstərib. Ən maraqlısı isə odur ki, həmin tədbirdə bir dəfə də olsun “azərbaycanlı” sözü işlədilməyib.

Bu “etiket dəyişmə” və identiklik əvəzləməsi mexanizmini tanınmış ekspert Tomas de Vaal özünün məşhur “Qara bağ” kitabında aydın şəkildə ifşa edib. Müəllif vurğulayır ki, Ermənistandakı Azərbaycan irsini tarixdən silmək ona görə asan olub ki, XX əsrə qədər Rusiya imperiyası və sovet ədəbiyyatında azərbaycanlılar “tatarlar”, “türklər” və ya sadəcə “müsəlmanlar” kimi təqdim edilirdi. Bu terminoloji qeyri-müəyyənlik imkan verirdi ki, lazım olan anda abidələrin mənsubiyyəti asanlıqla İran, türkmən və ya anonim “müsəlman” etiketi altına yerləşdirilsin. Beləliklə, abidənin fiziki varlığı qorunsa da, onun əsl yaradıcıları olan İrəvan azərbaycanlılarının izi tarixi yaddaşdan məqsədli şəkildə silinir.

Tədqiqatçı Səbuhi Hüseynovun elmi araşdırmaları da bu saxtakarlığı arxiv sənədləri ilə alt-üst edir. Göy məscidin Hüseynəli xan tərəfindən inşa edildiyini və Azərbaycan mədəni irsinə aid olduğunu bildirən tədqiqatçı mühüm bir faktı diqqətə çatdırır: “Son araşdırmalar Hüseynəli xanın məhz bu məsciddə dəfn olunduğunu göstərir. Hətta məscidin həyətindəki 1790-cı ilə aid daş kitabə xanın ailəsindən olan bir qadına məxsusdur. Abidə ilə bağlı bütün əsas sənədlər Azərbaycan arxivlərində qorunur”. Bu faktlar qarşısında Göy məscidin “fars məscidi” kimi təqdim olunması heç bir tarixi reallığa sığmır.

Bu cür interpretasiyalar isə mədəni irsin siyasi məqsədlərlə yenidən çərçivələnməsi cəhdidir. 1917-ci ilin statistik məlumatları da sübut edir ki, o dövrdə İrəvanda fars əhalisinin sayı olduqca az, əhalinin mütləq çoxluğu isə azərbaycanlılar olub. Deməli, mədəni irsin mənsubiyyəti onu bərpa edən tərəfə görə deyil, onu inşa etdirən iradəyə və mənsub olduğu xalqın tarixinə görə müəyyən edilməlidir. Göy məscidin “özgəninkiləşdirilməsi” abidənin fiziki saxlanılmasına rəğmən, onun tarixi kimliyinin necə məqsədli şəkildə dəyişdirildiyini nümayiş etdirir. Bu, bir daha sübut edir ki, Ermənistan təkcə binaları dağıtmır, həm də tariximizi mənimsəyərək izlərimizi silməyə çalışır. Beynəlxalq ictimaiyyət saxta təbliğatlara deyil, arxivlərin dediyi bu acı həqiqətlərə diqqət yetirməlidir. Çünki əsl mədəni cinayət qanunsuz tikililərin sökülməsi deyil, əsrlərin yaddaşını saxtalaşdırmaqdır.

Bu tendensiya Ermənistanın digər ərazilərində daha amansız və geridönüşü olmayan formalarda müşahidə olunur. Azərbaycan memarlığının möhtəşəm nümunələri olan İrəvan qalası və onun daxilindəki Sərdar sarayı buna bariz nümunədir. XIX əsr sənədlərinə, xüsusilə rus hərbi arxivlərinə və məşhur səyyahların (məsələn, Jan Şarden, Fransua Dübua de Monpere) təsvirlərinə nəzər salsaq, İrəvan qalasının nəinki hərbi istehkam, həm də bənzərsiz bir mədəniyyət mərkəzi olduğu aydın görünür. Sarayın daxilindəki məşhur Güzgülü zal və divarları bəzəyən Şərq miniatürləri vaxtilə bütün regionun memarlıq incisi hesab olunurdu. Lakin bu irs 1918-ci ildən sonra, xüsusən də ötən əsrin ortalarında rəsmi İrəvanın şəhərsalma planları adı altında sistemli şəkildə yerlə-yeksan edildi. Məqsəd yalnız daşları deyil, şəhərin əsrlərlə formalaşmış azərbaycanlı simasını tamamilə yox etmək idi. Etdilər də.

Vaxtilə İrəvanın ən qədim və möhtəşəm ibadət yerlərindən sayılan Sərdar məscidi (və ya Şah Abbas məscidi) də həm etnik təmizləmənin, həm də mədəni soyqırımının qurbanına çevrildi. Tarixi qaynaqlar təsdiq edir ki, 1918-ci ildə erməni silahlı dəstələri İrəvanın dinc müsəlman əhalisini bu məscidə dolduraraq, insanları məbədlə birlikdə diri-diri yandırıblar. Bu qanlı hadisə bəşər tarixinə həm insanlıq əleyhinə cinayət, həm də dini abidənin təhqiri kimi həkk olunub. Sovet Ermənistanı dövründə isə bu vəhşilik ideoloji müstəvidə davam etdirilib, Sərdar məscidi “şəhərsalma” bəhanəsi ilə hissə-hissə sökülərək yerində yaşayış binaları inşa edilib. Abidənin qalıqları üzərində ucaldılan bu evlər tarixin izini silmək cəhdi olsa da, vandalizm bununla bitməyib, 2014-cü ilin noyabr ayında məscidin son divar qalıqları da tamamilə yer üzündən silinib.





Qədim İrəvanın ruhunu daşıyan və azərbaycanlıların şəhərdəki varlığının sonuncu maddi sübutu sayılan Təpəbaşı məhəlləsi (ermənilər tərəfindən "Kond" adlandırılır) isə bu gün tamamilə yox olmaq təhlükəsi qarşısındadır. XVII əsrdən bəri İrəvanın tarixi mərkəzi olan bu məhəllə, vaxtilə yüzlərlə azərbaycanlı ailəsinin yaşadığı, məscidlərin, hamamların və bağların yerləşdiyi canlı bir məkan olub. Arxiv sənədləri göstərir ki, XX əsrin əvvəllərinə qədər Təpəbaşında küçə adlarından tutmuş demoqrafik tərkibə qədər hər şey Azərbaycan mədəniyyətini əks etdirirdi. Lakin Ermənistan hakimiyyəti hazırda bu məhəlləni “müasirləşdirmə” adı altında tamamilə sökməyi və yerində hündürmərtəbəli binalar tikməyi planlaşdırır. Bu da yalnız bir yaşayış sahəsinin deyil, İrəvanın tarixi kodunun sistemli şəkildə məhv edilməsi prosesidir.





Azərbaycanın Tehrandakı səfiri Əli Əlizadənin bu məsələ ilə bağlı açıqlaması vandalizmin həm də mənəvi tərəflərini beynəlxalq müstəviyə çıxarıb. Səfirin qeyd etdiyi kimi, Təpəbaşı məscidində turistlərə spirtli içkilərin təklif olunması faktı nəinki Azərbaycan mədəniyyətinə, ümumilikdə, İslam dünyasının dini dəyərlərinə qarşı ciddi hörmətsizlikdir. Bu vəziyyət təkcə bir məscidin fiziki vəziyyəti ilə məhdudlaşmır, bütöv bir tarixi yaddaşın sistemli şəkildə silinməsi strategiyasının tərkib hissəsidir.

Tarixi mənbələrə görə, Təpəbaşı ərazisində yerləşən məscidin minarəsi hələ 1960-cı illərdə uçurulmuş, sonradan abidənin ətrafında və daxilində qeyri-qanuni yaşayış tikililəri inşa edilmişdir. Hazırda məscidin bəzi hissələrində erməni ailələrinin məskunlaşması faktı mədəni irsin həm memarlıq, həm də funksional cəhətdən necə ağır deformasiyaya uğradılmasının bariz nümunəsidir. Eyni vəziyyətlə Qərbi Azərbaycanda mövcud olmuş digər məscidlər də qarşılaşıb. Dəmirbulaq, Sərtib xan, Hacı Novruzəli bəy və digər məscidlər də zamanla ya sökülmüş, ya da istifadəsiz vəziyyətə düşərək dağılıb. Bu abidələr təkcə dini ibadət yerləri deyil, həm də şəhərin tarixi memarlıq strukturunun mühüm tərkib hissəsi olub. Bu proseslər İrəvanın tarixi dini memarlıq xəritəsinin tədricən dəyişdirildiyini göstərir.

Onu da qeyd edək ki, Azərbaycan irsinin izlərini silmək cəhdləri bəzən daha radikal formalar alıb. Buna ən bariz nümunə Lori mahalında yerləşən XII əsrə aid Loru qala məscididir (Lore-Gerd). Azərbaycan memarlığının bütün konstruktiv xüsusiyyətlərini özündə daşıyan bu qədim müsəlman ibadətgahı, daxilində aparılan süni dəyişikliklər və kənar müdaxilələr nəticəsində, faktiki olaraq, erməni kilsəsinə çevrilib. Bu faktlar sübut edir ki, Ermənistan ərazisindəki Azərbaycan irsi ya fiziki olaraq yer üzündən silinib, ya da mövcud qalan nümunələr saxta elmi tezislərlə başqa xalqların və ya dinlərin adına çıxarılaraq tarixi kimliyindən zorla qoparılıb.

Beləliklə, məscidlərin təhqir olunması, onların təyinatının dəyişdirilərək heyvan saxlanılan məkanlara çevrilməsi təkcə fiziki vandalizm deyil, həm də İslam dünyasının dini dəyərlərinə qarşı açıq hörmətsizlik və nifrət aktıdır. Bu cür əməllər “Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyasının və mədəni irsin toxunulmazlığına dair digər beynəlxalq sənədlərin kobud şəkildə pozulması deməkdir.

***

Ermənistanda həyata keçirilən bu siyasət yalnız dini ibadətgahlarla məhdudlaşmayıb. Bu proses həm də tarixi yaddaşın coğrafi səviyyədə silinməsinə yönəlmiş toponimik soyqırımı ilə müşayiət olunub. Bu, bütöv bir sivilizasiya qatını yox etməyə yönəlmiş siyasətinin tərkib hissəsidir. Bununla yanaşı, mənəvi əhəmiyyətli məkanların hədəf alınması da Azərbaycan xalqının tarixi köklərini bu torpaqlardan silmək məqsədi daşıyıb. Bu prosesin daha uzunmüddətli və sistemli forması Qərbi Azərbaycanın müxtəlif bölgələrində, xüsusən Aşağı Şorca, Gülübulaq və Səral kimi tarixi yaşayış, məskənlərində müşahidə olunur. XX əsr boyunca bu kəndlər bir neçə dəfə süni demoqrafik müdaxilələrə məruz qalıb. 1918-ci il qırğınları ilə başlayan, 1948–1953-cü illər köçürmələri və 1988-ci ilin kütləvi deportasiyası ilə yekunlaşan etnik təmizləmə nəticəsində bu ərazilərdə azərbaycanlıların yaratdığı zəngin folklor, toponimika və dini-mədəni irs, faktiki olaraq, “sahibsiz” qalıb. Deportasiyadan dərhal sonra azərbaycanlılara məxsus qədim qəbiristanlıqlar ağır texnika ilə şumlanıb, məzar daşları isə ya tikinti materialı kimi istifadə olunub, ya da bədnam “erməni izi” yaratmaq üçün saxtalaşdırılıb.

Güllübulaq kəndi bu çərçivədə Azərbaycan mədəni yaddaşının necə hədəf alındığını göstərən nümunədir. Bu ərazidəki Koroğlu mağarası, Nigar dərəsi, Nəbi yaylağı kimi toponimlər Azərbaycan xalq yaradıcılığının və tarixinin coğrafi möhürü idi. 2007-ci ildə kəndin adının süni şəkildə “Bürüakn” olaraq dəyişdirilməsi sadəcə inzibati qərar deyil, xalqın kollektiv yaddaşını silmək cəhdidir. Eyni aqibəti paylaşan Səral kəndi də “Nor Xaçakar” adlandırılaraq, əsrlərlə burada yaşamış azərbaycanlıların izləri tarixdən kənarlaşdırılıb. Addəyişdirmə prosesi yalnız bu kəndlərlə məhdudlaşmayıb. Ermənistan Dövlət Kadastr Komitəsinin rəsmi məlumatları bunun sübutudur. 1924–1988-ci illər ərzində 600-dən çox tarixi Azərbaycan adı dəyişdirilsə də, 1991-ci ildə Ermənistanın müstəqillik elanından sonra bu siyasət daha aqressiv və sürətli xarakter alıb. Təkcə 1978-ci ildə bir qərarla 93 Azərbaycan kəndinin adı xəritələrdən silinib, 2006-cı ildə isə daha 57 toponim erməniləşdirilib. Ümumilikdə, Qərbi Azərbaycan ərazisində 2000-ə yaxın tarixi toponimin dəyişdirildiyi faktlarla təsdiq olunur.

Bu sistemli fəaliyyət nəticəsində əsrlər boyu formalaşmış tarixi adlar uydurma adlarla əvəzlənib: Basarkeçər–Vardenis, Yeni Bəyazid–Qavar, Dərələyəz–Vayots Dzor, Göyçə–Sevan kimi təqdim edilərək tarixi kimliyindən qoparılmışdır. Bu kütləvi addəyişdirmə kampaniyası sadəcə texniki yenilənmə deyil, regionun tarixi-mədəni simasını saxtalaşdırmaq və gələcək ərazi iddialarını “elmi” şəkildə əsaslandırmaq üçün istifadə edilən strateji alətdir. Əsas məqsəd azərbaycanlıların bu torpaqlardakı çoxəsrlik izlərini rəsmi sənədlərdən və kollektiv yaddaşdan silməklə, bölgəni “əzəli erməni torpağı” kimi dünyaya təqdim etməkdir.

Ermənistan bu yolla regionun tarixi mənzərəsini tamamilə dəyişməyə çalışsa da, arxivlərdə qalan köhnə xəritələr və sənədlər bu torpaqların əsl sahiblərinin kim olduğunu təsdiqləyən ən möhkəm sübutlar kimi qalmaqdadır. Bəli, maddi abidələri dağıtmaq, adları dəyişmək olar, lakin tarixin və xalqın yaddaşındakı izləri silmək əsla mümkün olmayacaq.

***

Mədəni irsin mənsubiyyətinin yenidən yazılması siyasəti bəzən daha “yaradıcı” manipulyasiyalarla müşayiət olunur. İrəvan yaxınlığındakı Cəfərabad (Arqavand) kəndində yerləşən, 1413-cü ildə ucaldılmış Əmir Səad məqbərəsi buna bariz nümunədir. Qaraqoyunlu sülaləsinə, yəni birbaşa Azərbaycanın orta əsr dövlətçilik tarixinə məxsus bu abidənin “türkmən memarlıq abidəsi” kimi təqdim olunması elmi cinayətdir. Erməni katolikosunun iştirakı ilə keçirilən “xeyir-dua mərasimləri bu saxtakarlığa dini don geyindirmək cəhdidir. Halbuki abidənin yerləşdiyi bölgə tarixən Azərbaycanın Çuxursəd bəylərbəyliyinin mərkəzi olmuşdur.

Abidənin ətrafında quraşdırılmış məlumat lövhələrində və əsas stenddə türbənin Qaraqoyunlu türkmənlərinin tarixi irsi olduğu qeyd edilsə də, bu, abidənin Azərbaycan mədəni mühitindən qoparılması və mənsubiyyətinin saxtalaşdırılması cəhdidir.

Bənzər kimlik oğurluğu Dərələyəz mahalındakı Səlim karvansarası (Şah Abbas karvansarası) ilə bağlı da davam edir. 1988-ci ildə sonuncu azərbaycanlı ərazidən çıxarıldıqdan sonra, bu möhtəşəm abidə dünya ictimaiyyətinə "erməni orta əsr memarlığı" kimi sırınır. Lakin abidənin girişindəki epiqrafik kitabələr bu saxtakarlığı ifşa edir. Karvansaranın giriş qapısı üzərindəki ərəbdilli kitabələr və memarlıq üslubu onun birbaşa İslam sivilizasiyasının məhsulu olduğunu sübut edir. Abidənin tikilmə tarixi (1332-1333-cü illər) və sifarişçisi haqqındakı məlumatlar onun bölgədə hökm sürən müsəlman sülalələrinin və ticarət yollarının (İpək Yolu) bir parçası olduğunu göstərir. Ermənistanın apardığı siyasət yalnız fiziki dağıntı deyil, həm də tarixin intellektual səviyyədə işğalıdır. Beynəlxalq konvensiyalar, xüsusən 1954-cü il Haaqa Konvensiyası mədəni mülkiyyətin mənsubiyyətinin dəyişdirilməsini qadağan etsə də, Ermənistan hələ də bu cinayətləri davam etdirir.

Beləliklə, dağıdılan məscidlər, kilsəyə çevrilən ibadətgahlar, xarabalığa çevrilən məqbərələr və saxtalaşdırılan toponimlər tək bir mərkəzdən idarə olunan sistemli yoxetmə siyasətinin təzahürüdür. Ermənistanın həyata keçirdiyi bu “kultursid” (mədəni soyqırımı) təkcə bir xalqın keçmişinə deyil, bəşəriyyətin ortaq irsinə və beynəlxalq hüquqa qarşı törədilmiş ağır cinayətdir. Bu acı reallıq isə tez-tez səsləndirilən əsassız “Azərbaycan erməni irsini məhv edir” iddiaları ilə ört-basdır edilməyə çalışılır. Buradakı məntiq sadədir: diqqəti törədilmiş real cinayətlərdən yayındırmaq. Lakin faktlar təkzibolunmazdır: Ermənistan ərazisindəki 310 məsciddən yalnız biri qalıb, 120-dən çox qala tikilisindən əsər-əlamət yoxdur, minlərlə toponim dəyişdirilib və yüzlərlə qəbiristanlıq yerlə-yeksan edilib.

Maddi abidələri dağıtmaq, adları dəyişmək olar, lakin arxivlərin və xalqın yaddaşının qoruduğu həqiqətləri silmək mümkün deyil. Beynəlxalq ictimaiyyət artıq səssizliyini pozmalı, Ermənistanın sistemli vandalizm siyasətinə hüquqi və siyasi qiymət verməlidir. Çünki ədalətin bərpası yalnız tarixi irsin öz gerçək sahiblərinə və ilkin kimliyinə qaytarılması ilə mümkündür. Tarix unudulmur, o, yalnız öz həqiqi sahiblərini gözləyir.

Baş verənlər sadəcə vandalizm deyil, birbaşa mədəni soyqırımı aktıdır. Məscidlərin təhqir olunaraq heyvan saxlanılan məkanlara çevrilməsi və tarixi Təpəbaşı məhəlləsinin məqsədli şəkildə məhv edilməsi 1954-cü il Haaqa Konvensiyasının kobud şəkildə pozulmasıdır. Azərbaycan bu cinayətləri beynəlxalq məhkəmələrdə, o cümlədən Beynəlxalq Ədalət Məhkəməsində qaldıraraq, vurulmuş mənəvi və maddi ziyana görə Ermənistandan kompensasiya tələb etmək hüququna malikdir. Bu, həm beynəlxalq hüquq normaları baxımından tam əsaslıdır, həm də Azərbaycanın artan siyasi-hüquqi çəkisi fonunda Ermənistanı tarixi cinayətlərinə görə cavabdehlik daşımağa məcbur edən ən real yoldur.

*Pünhan ƏFƏNDİYEV*

*XQ*

*Biz deməsək...*

# Tikilməmiş binanın mənzilləri necə satışa çıxarılır?

## *Bu dələduzluq ovlanmamış ayının dərisinə müştəri axtarmağa bənzəyir*

**Son illər ölkənin mənzil bazarında "təməl mərhələsində satış" anlayışının doğurduğu narahatlıq daha çox diqqət çəkir. Söhbət mövcud olmayan, hüquqi baxımdan hələ formalaşmayan bir əmlakın satılmasından gedir. Bu isə həm alıcıların hüquqlarını zəiflədir, həm də bazarda qeyri-şəffaflıq və fırıldaqçılıq hallarını artırır.**

### "Təməldən satış" biznesinin iç üzü

Təməl mərhələsində mənzil satışı dedikdə, tikinti obyektinin ya tam başlanılmadığı, ya da yalnız ilkin mərhələdə olduğu halda, gələcəkdə istifadəyə veriləcək binadakı mənzillərin vətəndaşlara "sifariş" və ya "müqavilə" əsasında satılması nəzərdə tutulur. Bu satış forması əsasən reklam platformalarında "ən ucuz qiymət", "ilkin mərhələ", "indi al, sonra bahalaşacaq" kimi cəlbedici ifadələrlə təqdim edilir.



Bu modelin geniş yayılması, əslində, tikinti şirkətlərinin maliyyə ehtiyacından irəli gəlir. Çünki bu istiqamətdə fəaliyyət göstərən bir çox qurumların tikintini tam maliyyələşdirmək üçün kifayət qədər sərmayəsi olmur. Başqa sözlə, bank kreditlərinin bahalı, investisiya resurslarının məhdudluğu şəraitində tikintinin vətəndaşların ödədiyi vəsait hesabına aparılmasına çalışılır. Beləliklə, alıcıya tikinti şirkətinə "kredit verən tərəf" kimi yanaşılır.

Amma burada mühüm bir fərq var: bank kredit verərkən girov, təminat, audit və risk təhlilləri aparır. Sadə vətəndaş isə çox vaxt yalnız reklama və şirkətin vədlərinə inanaraq müqavilə imzalayır. Bəs bu satışlar nə dərəcədə qanuni hesab edilir? **Əmlak eksperti Qulu Qasımovun** sözlərinə görə, burada əsas məqam hüquqi problemin mahiyyəti ilə bağlıdır. Yəni çıxarış (dövlət reyestrindən qeydiyyat sənədi) olmayan daşınmaz əmlakın alqı-satqısı qanunla nəzərdə tutulmur.

Q.Qasımov diqqəti bu məsələnin ciddiliyinə yönəldərək çıxarış alınmayan əmlakın hüquqi mənada hələ "daşınmaz əmlak" kimi tam formalaşmış hesab edilmədiyini, başqa sözlə, ortada real mülkiyyət hüququnun olmadığını bildirir. Eyni zamanda, xatırladır ki, vətəndaşın aldığı yalnız "gələcəkdə həmin mənzili əldə etmək ümidi" və "şirkətin öhdəliyi"dir. Belə müqavilələr isə, adətən, mənzil-tikinti kooperativi ilə ilkin satış, payçı müqaviləsi, mənzil bronlaşdırılması haqqında sənəd, yaxud qəbz və ya ödəniş arayışı kimi formalarda hazırlanır.

Lakin bu sənədlərin çoxu notariat qaydasında təsdiqlənmir, dövlət reyestrində qeydiyyata alınmır və nəticədə, hüquqi təminatı zəif olur. Təcrübədə bu cür razılaşmalar daha çox mülki öhdəlik müqaviləsi kimi qiymətləndirilir. Yəni alıcı hüquqi olaraq mənzil almır, sadəcə, vəsait ödəyir, qarşı tərəf isə bunun müqabilində gələcəkdə binanı tikib təhvil verəcəyinə əminlik ifadə edir.

Lakin bu məsələdə ən böyük narahatlıq alıcının mülkiyyət hüququnun yaranmaması ilə bağlıdır. Başqa sözlə, hündürmərtəbəli binanın təməl mərhələsində ödəniş edən şəxs çox vaxt düşünür ki, artıq müqavilədə vurğulanan mənzil ona məxsusdur. Amma hüquqi baxımdan bu, belə deyil. Belə ki, əgər alıcının adına çıxarış yoxdursa, deməli, o mənzil onun mülkiyyəti sayılmır. Həmin mənzili satmaq, bağışlamaq və girov qoymaq olmur. Hətta tikinti şirkət mənzili başqa bir şəxsə də sata bilər. Yaxud şirkət müflis olarsa, alıcı hüquqi cəhətdən zəif mövqedə qalır. Bu, alıcını həm hüquqi, həm də maliyyə baxımından "zəmanətsiz investor" vəziyyətinə salır.

Bu sahədə ən çox rast gəlinən problemlərdən biri tikinti şirkətinin öhdəliyi yerinə yetirməməsidir. Yəni vətəndaş ödəniş edir, bir müddət sonra tikinti dayandığından bina yarımçıq qalır. Beləliklə, inşaat prosesi uzanır və illərlə gecikir. Şirkət başqa layihəyə keçdiyindən borclanma baş verir və qurum iflasa uğrayır. Bu halda alıcı hüquq-mühafizə orqanlarına müraciət etsə də, çox vaxt problem illərlə məhkəmələrdə müzakirə mövzusuna çevrilir. Şirkət "biz tikəcəyik, sadəcə, gecikir" arqumentindən yararlanır, alıcı isə real nəticə əldə edə bilmir. Bu isə cəmiyyətdə artıq geniş yayılmış sosial narazılıq yaradır, yüzlərlə ailə illərlə həm kirayə pulunu, həm də "aldığı" mənzilin kreditini ödəməyə məcbur olur.

### Hüquqi boşluğa yıxılanlar...

**Əmlak eksperti Həsən Vəliyev** qeyd edir ki, bu sahədə ciddi problemlərdən biri tikinti başa çatdıqdan sonra ortaya çıxır. Belə ki, çox vaxt alıcı müqavilədə göstərilən kvadratmetrə görə pul ödəyir. Amma bina təhvil veriləndə məlum olur ki, əslində, mənzilin sahəsi daha azdır. Layihə planı dəyişdirildiyindən otaqların ölçüsü fərqlidir. Eyni zamanda, layihədə sonradan eyvanların əlavə edilməsi və ya çıxarılması, eləcə də kommunal xətlərin fərqli çəkilməsi də məlum olur. Bəzi hallarda isə tikinti aparılarkən keyfiyyət amilinin diqqətdə saxlanılmaması nəticəsində divar çatlarının üzə çıxması, ucuz materiallardan istifadə edilməsi, səs izolyasiyasının zəif olması, lift və kommunikasiya problemləri və s. kimi hallar narazılıqla qarşılanır.

Bu zaman alıcı yenidən şirkətlə mübahisəyə girir. Lakin müqavilələrdə çox vaxt elə maddələr olur ki, şirkət öz məsuliyyətini minimuma endirir. Məsələn, razılaşmaların çoxu notarial qaydada təsdiqlənmir. Bu isə gələcəkdə hüquqi mübahisələr zamanı alıcının sübut imkanlarını zəiflədir. Halbuki notariat təsdiq müqaviləyə daha ciddi hüquqi status qazandırır, tərəflərin məsuliyyətini artırır. Hətta bu cür razılaşma belə, necə deyərlər, çıxarışın yerini tutmur, amma alıcının hüquqi müdafiəsini nisbətən gücləndirir. Ən azı, alıcının ödədiyi məbləğ, müqavilə şərtləri və tərəflərin öhdəlikləri daha dəqiq şəkildə rəsmiləşdirilir.

Ekspert daha sonra bildirir ki, respublikada mənzil-tikinti kooperativləri uzun illərdir ki, daşınmaz əmlak bazarında fəal rol oynayır. Formal olaraq bu qurumlar vətəndaşların birləşərək bina tikməsi prinsipi üzərində qurulub. Amma təcrübədə kooperativlər bir çox hallarda tikinti şirkətlərinin alternativ hüquqi mexanizminə çevrilib. Belə ki, kooperativ adı altında fəaliyyət göstərən bəzi strukturlar vətəndaşlardan pul yığır, müqavilələri qeyri-şəffaf tərtib edir, tikinti sənədlərinin təqdimatını tam şəkildə həyata keçirmir, nəhayət, dövlət qeydiyyatı olmadan satışı gerçəkləşdirir. Bu da bazarda hüquqi qeyri-müəyyənliyi dərinləşdirir. Vətəndaş kooperativdən aldığı sənədi "rəsmi sənəd" hesab edir, amma sonradan görür ki, bu razılaşma yalnız kooperativin möhürü ilə təsdiqlənmiş daxili kağızdır.

Ekspertlərin fikrincə, çıxarış olmadan satış əməliyyatının aparılması qeyri-qanunidir. Başqa sözlə, çıxarış daşınmaz əmlak bazarının əsas hüquqi dayağını göstərir, yəni belə bir sənədi olmayan mənzilin bazarda hüquqi mövcudluğu ciddi narahatlıqla qarşılanır. Təqdim edilən mənzil isə, sadəcə, layihədə nəzərdə tutulan sahə kimi qiymətləndirilir. Əslində, burada iki fərqli mərhələ var: birincisi, torpaq sənədləri tikintiyə icazə ilə bağlıdırsa, digəri isə inşaat prosesi başa çatdıqdan sonra mənzillərə çıxarışların verilməsidir. Əgər tikinti şirkəti torpağa sahiblik sənədlərinə və tikintiyə icazəyə malik deyilsə, o zaman vətəndaşın ödədiyi vəsait hüquqi baxımdan daha böyük risk altına düşür. Çünki sabah dövlət qurumları tikintini qanunsuz sayarsa, bina sökülə və ya istifadəyə verilməyə bilər.

### Mənzil bazarında "ümid satışı"

**Əmlak eksperti Abdulla Abdullayevin** sözlərinə görə, hündürmərtəbəli binaların təməl mərhələsində satışı təkcə hüquqi pozuntu deyil, həm də sosial problemdir. Çünki bu model alıcıya ucuz qiymət və gələcək qazanc vədi ilə təqdim olunur. Vətəndaş isə bazarda qiymət artımından qorxaraq "indi almasam, sabah baha olacaq" fikrinə düşür. Bu psixoloji təzyiq fonunda alıcı sənədləri dərindən yoxlamır, müqaviləni oxumadan imzalayır, şirkətin tarixçəsini araşdırmır və hüquqşünasla məsləhətləşmir. Nəticədə, bazarda "ümid satışı" genişlənir – mənzil real əmlak kimi deyil, gələcək vəd kimi satılır.

Bu cür satışlar çox vaxt hüquq-mühafizə orqanlarına qədər gedib çıxır. Bunun səbəbi sadədir: vətəndaş pulu ödəyir, amma ya bina tikilmir, ya gecikir, ya da mənzil başqa şəxsə satılır. Belə hallarda artıq məsələ mülki mübahisədən çıxaraq dələduzluq elementləri daşıyır. Xüsusilə də şirkətin əvvəlcədən niyyətli şəkildə alıcıları aldadıb vəsait toplaması daha çox narahatlıqla qarşılanır.

Amma problem ondadır ki, bir çox proseslərdə hüquqi sübutlar yetərli olmur. Bu, müqavilələrin qeyri-dəqiq tərtib edilməsində, ödənişlərin nağd şəkildə həyata keçirilməsində, bank köçürməsi və rəsmi sənədləşmənin aparılmamasında özünü qabarıq büruzə verir ki, nəticədə hüquq-mühafizə orqanlarının fəaliyyəti çətinləşir.

Bəs belə hallarda alıcı nə etməlidir? Narahatlığı necə azaltmaq olar? Bu məsələdə üzləşilən çətinlikləri sıfıra endirmək mümkün olmasa da, minimum həddə salmaq mümkündür. Bunun üçün alıcı tikinti şirkətinin əvvəlki layihələrini araşdırmaq, şirkətin vergi və hüquqi qeydiyyat məlumatlarını yoxlamaq, inşaat meydançasının yerləşdiyi torpaq sahəsinin sənədlərini tələb etmək, tikintiyə icazə sənədlərinə baxmaq, müqaviləni hüquqşünasa yoxlatmaq kimi addımları atmalıdır.

Bu zaman ödənişləri yalnız bank vasitəsilə həyata keçirməyi, müqavilədə gecikmə və cərimə mexanizmlərinin olmasına diqqət yetirməyi, razılaşmanın notarial təsdiqini tələb etməyi də unutmamalıdır. Ən önəmlisi isə vətəndaş "çıxarış yoxdursa, deməli, o mənzil hüquqi mülkiyyət deyil" anlayışını başa düşməlidir.

Dövlət bu məsələnin həlli istiqamətində müəyyən layihələr həyata keçirməlidir. Bu zaman, ilk növbədə, tikinti şirkətlərinin satışa başlaması üçün minimum hüquqi tələblərin müəyyən edilməsi, yalnız tikintiyə rəsmi icazə və torpaq sənədləri olan layihələrə satış hüququnun verilməsi, vətəndaşlardan toplanan vəsaitin necə xərcləndiyini izləmək məqsədilə maliyyə nəzarət mexanizminin qurulması diqqətdə saxlanılmalıdır.

Eyni zamanda, tikinti gecikmələri üçün hüquqi sanksiyaların sərtləşdirilməsi, reklam platformalarında qeyri-qanuni tikinti satışlarının qarşısının alınması və vətəndaşların məlumatlandırılması üçün maarifləndirici proqramların gerçəkləşdirilməsi kimi məsələlər önə çəkilməlidir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Vüqar ORUC,**
**Qiymətləndiricilər Cəmiyyətinin sədri**

Respublikada dövlət reyestrindən çıxarış alınmadan, yəni dövlət qeydiyyatı reallaşdırılmadan daşınmaz əmlakın alqı-satqısı qanunla qadağandır. Bu, vətəndaşlar üçün ciddi narahatlıqlar yaradır. Belə ki, bir çox tikinti şirkətləri maliyyələşdirmə cəlb etmək məqsədilə əvvəlcədən satışlara başlayır. Bu halda alıcı və tikinti şirkəti arasında müqavilələr bağlanır və bu razılaşmar çox vaxt notariat qaydasında təsdiqlənmir.

Ümumiyyətlə, qanun müvafiq dövlət qurumu tərəfindən verilmiş qeydiyyat çıxarışı olmadan daşınmaz əmlakın alqı-satqısı imkanını nəzərdə tutmur. Bu, o deməkdir ki, çıxarışı olmayan mənzil üçün satış əməliyyatı mövcud ola bilməz. Fərqli bir vəziyyət yalnız tikinti başa çatdıqdan sonra binadakı mənzillər üçün çıxarışlar verildikdə və tikinti şirkəti bütün torpaq sahəsi üçün sənədləri əvvəlcədən aldıqda mümkündür. Bu halda qeydiyyat prosesi hüquqi maneələr olmadan davam edir.

Bu cür hallarda tez-tez hüquq-mühafizə orqanlarına üz tutulur. Çünki təməl mərhələsində imzalanan razılaşmanın əksinə olaraq tikinti şirkətinin öz öhdəliklərini yerinə yetirməməsi və mənzili şəxsə təhvil verməməsi ilə nəticələnən hallara çox rast gəlinir. Bu cür risklərin qarşısını almaq üçün alıcılara tikinti şirkətinin fəaliyyətini diqqətlə yoxlamaq, mütəxəssislərlə məsləhətləşmək və mülkiyyəti və ya tikintinin qanuniliyini təsdiqləyən sənədlər tələb etmək tövsiyə olunur. Bu cür sənədlər potensial riskləri minimuma endirməyə kömək edir.

Təməl mərhələsində alınan əmlaklar, eyni zamanda, mülkiyyət hüququnu alıcıya keçirmir. Bu, yalnız tərəflərin qarşılıqlı öhdəliklərinə əsaslanır. Bir tərəf ödənişi edir, digər tərəf isə tikinti başa çatdıqdan sonra mənzili razılaşmada göstərilən müddətdə təhvil verməyi öhdəsinə götürür. Mənzil kooperativləri tərəfindən verilən sənədlər, adətən, şirkətin möhürü ilə təsdiqlənir və onun razılığı ilə verilir. Lazım gələrsə, bu cür sənədlər borc öhdəlikləri və ya digər müqavilə zəmanətləri kimi notarial qaydada təsdiqlənə bilər.

Mənzil satışı tikinti başa çatdıqdan sonra başlanmalıdır. Lakin təcrübədə tez-tez alıcının əvvəlcədən ödəniş etdiyi, lakin inşaat prosesi başa çatdıqdan sonra mənzilin mövcud sahəsinin göstəriləndən kiçik olduğu və ya təmir işlərinin keyfiyyətinin standartlara cavab vermədiyi hallar yaranır. Ən ciddi problem isə tikinti gecikmələri ilə bağlı olur. Bu cür çətinliklərin qarşısını almaq üçün dövlət qurumları vahid standartlar hazırlamalı və bu sahədə nəzarəti gücləndirməlidir.

---

*Ərzaq bolluğuna töhfə*

# 50 yaşlı Hacıqabul Quşçuluq Şirkəti

**Bu il Hacıqabul Quşçuluq Şirkətinin yaradılmasının 50 ili tamam olur. Müəssisə 1976-cı ildə Adışirin Babaşovun rəhbərliyi ilə Hacıqabul rayonunun Ağacanlı kəndində qurulub. İlk illərdə məhdud imkanlarla fəaliyyət göstərməsinə baxmayaraq, düzgün idarəetmə, zəhmətkeş kollektiv və strateji yanaşma nəticəsində qısa müddətdə inkişaf edib. Müstəqillik dövründə təsərrüfat şirkətə çevrilərək təkcə regionda deyil, bütövlükdə, ölkədə kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində qabaqcıl istehsalçılardan birinə çevrilib.**



**Hacıqabul Quşçuluq Şirkətinin təsisçisi və direktoru Nemət Babaşov** bildirdi ki, müəssisənin inkişafında xüsusi mərhələ ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlayıb. Məhz həmin illərdə ölkədə kənd təsərrüfatına göstərilən dövlət qayğısı, sahibkarlığın dəstəklənməsi və iqtisadi sabitliyin təmin olunması nəticəsində kollektiv öz istehsal gücünü əhəmiyyətli dərəcədə artırıb, texnoloji yeniliklər tətbiq edib və öz fəaliyyətini müasir standartlara uyğun qurmağa nail olub.





Hazırda ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayan müəssisə Hacıqabulda və ətraf rayonlarda məşğulluğun təminatına mühüm töhfələr verir, yüzlərlə insanı daimi iş yeri ilə təmin edir. Ümumilikdə isə, şirkət təkcə istehsal sahəsində deyil, həm də sosial məsuliyyət layihələrində də fəal iştirak edir, ümumi inkişafa töhfə verir.

Azərbaycanda yumurta istehsalı sahəsində ilk beynəlxalq sertifikat əldə edən Hacıqabul Quşçuluq Şirkəti keyfiyyət və təhlükəsizlik standartlarına xüsusi önəm verir. Müəssisənin nəzdində fəaliyyət göstərən müasir laboratoriyada beynəlxalq standartlara uyğun analizlər aparılır, məhsulların keyfiyyəti daim nəzarətdə saxlanılır.

**Şirkətin direktoru Nemət Babaşov dedi:**

– Hazırda müəssiənin istehsal gücü gündəlik 2 milyon ədəd, illik isə 720 milyon ədəd yumurta təşkil edir. Bu göstəricilər onu təkcə ölkənin deyil, bütövlükdə, Qafqazın ən iri istehsal müəssisələrindən birinə çevirir. Müasir texnologiyaların tətbiqi, innovativ yanaşmalar və davamlı inkişaf strategiyası şirkətin gələcəkdə də uğurla fəaliyyət göstərəcəyini təsdiqləyir. Burada qurulan laboratoriyada beynəlxalq standartlara uyğun analizlər həyata keçirilir. Quşun sağlamlığına ELİSA və PZR müayinələri ilə nəzarət olunur. Laboratoriya 7 ay hazırlıq müddəti ərzində AZAK tərəfindən akkreditasiya edilib və ölkədə quşçuluq sənayesində İSO 17025:2020 sertifikatını alaraq ilkə imza atıb.

Şirkət daxili bazarda 6 satış deposu vasitəsilə fəaliyyət göstərir və istehsalat imkanlarını daha da genişləndirir. Tezliklə burada yumurta pasterizə mərkəzi istifadəyə veriləcək. Müəssisə müasir qida sənayesində innovativ yanaşmanı təmsil edir və yüksək texnologiyalarla təchiz olunub. Pasterizə olunmuş yumurtanın saxlama müddəti soyudulmuş şəraitdə 4–6 aya qədər artır.

Hacıqabul Quşçuluq Şirkəti öz fəaliyyətində ekoloji davamlılıq və "yaşıl enerji" texnologiyalarının tətbiqi istiqamətində də mühüm addımlar atmaqdadır. Şirkət 2024-cü ildən etibarən müəssisənin istehsalat sahəsində bərpaolunan enerji mənbəyi kimi günəş enerjisindən istifadə etməyə başlayıb. Ötən müddətdə müəssisənin istehsalat ərazisində ümumi gücü 2,4 meqavat olan günəş panelləri sistemi quraşdırılıb və istifadəyə verilib.

Son illər ölkənin aqrar sektorunda yeni texnologiyaların tətbiqi, suvarma sistemlərinin yenilənməsi və ixrac potensialının genişləndirilməsi nəticəsində məhsuldarlıq əhəmiyyətli dərəcədə artıb. Dövlət başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılan iri fermer təsərrüfatları kənd yerlərində məşğulluğun artmasına və regionların sosial-iqtisadi inkişafına ciddi töhfə verir. Bu siyasət nəticəsində Azərbaycan aqrar sahədə özünü təminetmə səviyyəsini yüksəltməklə yanaşı, beynəlxalq bazarlarda da rəqabət qabiliyyətini gücləndirir.

Müəssisədə müasir yumurta çeşidləmə mərkəzləri fəaliyyət göstərir. Bu mərkəzlərdə yumurta emalı prosesi tam avtomatlaşdırılmış və beynəlxalq standartlara uyğun şəkildə təşkil olunur. Çeşidləmə prosesi Niderland istehsalı olan son model MOBA FT 500 avadanlığı vasitəsilə həyata keçirilir. İstehsal və təchizat prosesində innovativ texnologiyalara, sanitariya standartlarına və məhsul izlənəbilərliyinə xüsusi önəm verilir. Bütün bunlardan əsas məqsəd həm yerli, həm də xarici bazarlara yüksək keyfiyyətli və etibarlı məhsul təqdim etməkdir.

**Hacıqabul Quşçuluq Şirkəti 2025-ci ildən etibarən beynəlxalq bazarlara çıxış imkanı qazanıb. Hazırda müəssisədə istehsal olunan məhsullar dünyanın bir sıra ölkələrinə ixrac edilir. N.Babaşov bu barədə bildirdi:**

– Müəssisəmiz ilk dəfə olaraq Amerika Birləşmiş Ştatlarının Corciya ştatına yumurta ixracını uğurla həyata keçirib. Artıq məhsullarımız Afrika bazarlarına da yol tapıb. Cari ilin ötən dövründə Qambiya Respublikasına 770 min ədəd yumurta ixrac edilib. Aprelin sonunadək əlavə 820 min ədəd yumurtanın göndərilməsi planlaşdırılır. Hazırda Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, İraq və Əfqanıstan bazarlarına müntəzəm yumurta ixrac olunur. Təkcə ötən il Birləşmiş Ərəb Əmirliklərinə 26 milyon 543 min yumurta ixrac olunub ki, bu da ölkədə daxili yumurta balansının qorunub saxlanmasına öz müsbət töhfəsini verib. Heç şübhəsiz, bu göstəricilər Azərbaycanın quşçuluq sektorunda beynəlxalq etimada və məhsul keyfiyyətinə verilən dəyərin bariz nümunəsidir…

Şirkət strateji inkişaf planları çərçivəsində həm ölkə daxilində, həm də beynəlxalq arenada Azərbaycan məhsulunun keyfiyyətli və etibarlı siması kimi fəaliyyətini davam etdirir. Şirkət istehsal etdiyi məhsulları ISO və beynəlxalq keyfiyyət standartlarına uyğun şəkildə, avtomatlaşdırılmış çeşidləmə və qablaşdırma sistemləri, eləcə də soyuduculu nəqliyyat vasitələri ilə satış nöqtələrinə çatdırır.

2025-ci il iyulun 26-da CARCAS–Xəzəryanı Ölkələrin Aqrar Tədqiqatlar Mərkəzində Cənubi Qafqazın lider toyuq yumurtası istehsalçısı olan "Hacıqabul Quşçuluq Şirkəti ilə əməkdaşlıq haqqında" Memorandum imzalanıb.

Yubiley ili ərəfəsində Dövlət Vergi Xidməti Hacıqabul Quşçuluq Şirkətini kənd təsərrüfatı sahəsi üzrə məşğulluğun inkişafına verdiyi əvəzsiz töhfələrə görə xüsusi mükafata layiq görüb. "Təcrübəmiz təminatımızdır" missiyasını həyata keçirən şirkət fəaliyyətini qeyri-neft sektorunun davamlı inkişafı siyasətinə uyğun şəkildə həyata keçirərək keyfiyyətli məhsulu ilə dünya bazarında rəqabətini genişləndirməyə çalışır.

***M.NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# “Əsas missiyamız, Estoniyanın bir parçası kimi, azərbaycanlı olaraq qalmaqdır”

**Bu günlərdə Estoniyadakı Azərbaycan diasporunun fəal təşkilatçılarından olan “Birlik” icmasının rəhbəri Zakir Miriyevlə Bakıda görüşdük. Vətəndə olduğunu eşidib redaksiyaya dəvət etdik. Qürbətdəki soydaşlarımız üçün Vətənin isti bir ocağına çevrilən bu icmanın missiyası, həyata keçirdiyi işlər barədə fikirlərini və düşüncələrini bölüşməyi xahiş etdik.**

***– Zakir müəllim, Vətənə xoş gəlmisiniz. Bildiyim qədər rəhbərlik etdiyiniz “Birlik” diaspor təşkilatı Estoniyanın paytaxtında azərbaycanlıları birləşdirən ikinci cəmiyyətdir. İkinci bir diaspor icmasının yaradılmasına ehtiyac nədən yarandı?***

– Söhbətə başlamazdan əvvəl istərdim “Xalq qəzeti”nin kollektivinə Estoniyadakı bütün azərbaycanlıların salamlarını çatdırım. “Birlik” cəmiyyətinə, ümumiyyətlə, xarici ölkələrdə yaşayan azərbaycanlılara daim diqqət ayırdığınıza, bizi unutmadığınıza görə, sizə cəmiyyətimiz adından minnətdarlığımızı bildirirəm.

Sualınıza cavab olaraq bildirim ki, Estoniyada fəaliyyət göstərən diaspor təşkilatlarının sayı çoxdur. Lakin bəzi təşkilatların yetərincə fəal olmaması üzündən ötən il Estoniyada yaşayan azərbaycanlı soydaşlarımız bir araya gələrək mövcud vəziyyəti müzakirə etdilər. Nəticədə qərara gəldik ki, daha fəal olan, bu ölkədə Azərbaycanı yetərincə təmsil etmək imkanları və potensialı olan yeni bir təşkilat formalaşdıraq. “Birlik” icması belə yarandı. Məqsədimiz bütün soydaşlarımızı vahid platformada birləşdirmək və bu ölkədə yaşayan hər bir azərbaycanlını bu təşkilatın tədbirlərində fəal iştirakını təmin etməkdir.

***– “Birlik” diaspor təşkilatının Estoniyada əsas missiyası nədən ibarətdir?***

– Estoniyadakı Azərbaycan diasporunu təmsil edən “Birlik” təşkilatının əsas missiyası milli-mədəni irsimizi qorumaq və dövlətlərarası humanitar əlaqələri gücləndirmək məqsədlərini ardıcıl olaraq həyata keçirməkdir. Əsas diqqət həmvətənlərimizin bu missiya ətrafında birləşdirilməsi və onların Estoniya cəmiyyətinə inteqrasiyasının asanlaşdırılmasıdır. Gənclərlə işləməyə, mədəni layihələrin genişləndirilməsinə və Estoniyanın dövlət qurumları ilə qarşılıqlı əlaqəyə xüsusi diqqət yetiririk.

Əsas məqsəd Azərbaycanın milli-mədəni dəyərlərini, adət-ənənələrini və ölkəmizi Estoniyada layiqincə tanıtmaqdan ibarətdir. Bu istiqamətdə həm Estoniyada böyüyən gənc nəslə milli kimliyimizi tanıtmağı, həm də yaşadığımız cəmiyyətdə Azərbaycan haqqında daha geniş və dolğun məlumatın yayılmasını qarşıya məqsəd qoymuşuq.

***– Rəhbərlik etdiyiniz icma nə qədər fəaldır və zamanla onun fəaliyyəti necə dəyişir?***

– Ümumiyyətlə, Estoniyadakı Azərbaycan icması nisbətən kiçik olmasına baxmayaraq, davamlı inkişaf və artan vətəndaş fəallığı nümayiş etdirir. Əvvəldə qeyd etdiyim kimi, təşkilatımız yeni yaradılıb, amma qısa müddətdə bu ölkədə fəallığımızla diqqət çəkə bilmişik. Prioritetlərimizə kütləvi mədəni tədbirlərin keçirilməsi, təhsil proqramları və Azərbaycan haqqında obyektiv məlumatların beynəlxalq səviyyədə təbliği daxildir.

Bu müddətdə Azərbaycanın bir sıra mühüm bayramlarını – Zəfər Günü, Dünya Azərbaycanlılarının Həmrəylik Günü, 20 Yanvar faciəsi və Novruz bayramını soydaşlarımızla birlikdə qeyd etmişik. Sevindirici haldır ki, tədbirlərimizə maraq getdikcə artır və daha çox soydaşımız bu tədbirlərə qoşulur. Məsələn, ilk dəfə təşkil etdiyimiz Zəfər Günü tədbirində təxminən 80 nəfər iştirak etdiyi halda, Novruz bayramını artıq 300-dən çox soydaşımızla birlikdə qeyd etdik. Bu da icmamızın qısa müddətdə böyüdüyünü və soydaşlarımızın maraqlarını təmin etdiyini göstərir.

Diasporumuz artıq ölkəmizin müsbət imicinin formalaşmasında və mədəniyyətlərarası dialoqun inkişafında mühüm rol oynamağa başlayır.

***– Yaxın illər üçün planlarınız və hədəfləriniz nədən ibarətdir?***

– Əsas hədəfimiz Estoniyadakı Azərbaycan diasporunun “Birlik” icmasını tədricən mədəni bir təşkilatdan inteqrasiyaya, identikliyə və beynəlxalq imicə təsir göstərən tamhüquqlu bir sosial instituta çevirməkdir. Əlbəttə, əsas dilemma inteqrasiyanı balanslaşdırmaq və milli kimliyi qorumaqdır.

Bir tərəfdən, azərbaycanlılar Estoniyanın sosial-iqtisadi həyatına uğurla inteqrasiya olunurlar: həmvətənlərimiz təhsil alır, bizneslərinin inkişaf etdirir və ictimai həyatda fəal iştirak edirlər. Digər tərəfdən də, xüsusən gənc nəsil arasında assimilyasiya riski artır. Festivallar, dil proqramları və ictimai tədbirlər kimi mədəni və təhsil təşəbbüsləri bu çağırışa cavab verir.

İnformasiya işi isə ayrıca bir sahədir. Qlobal media mühitində diaspor getdikcə daha çox ünsiyyət vasitəsi kimi xidmət göstərir və xaricdə Azərbaycan haqqında təsəvvürləri formalaşdırır.

***– Bu yöndə hansı çətinliklər və problemlərlə qarşılaşırsınız?***

– Əlbəttə, hər bir başlanğıcın özünəməxsus çətinlikləri olur. Amma bunlardan da çətini sistemli problemlərin qalmasıdır: məhdud resurslar, yeni iştirakçıların cəlb edilməsinə ehtiyac və gənclərlə effektiv iş formalarının axtarışı.

Bunlarla yanaşı, əsas çətinliklərdən biri də şəxsi işlərimlə paralel olaraq diaspor fəaliyyətini idarə etməkdir. Bu, zaman baxımından müəyyən çətinliklər yaradır. Lakin səmimi komanda işi və yaxın dostlarımın dəstəyi ilə bu çətinliyin öhdəsindən gəlirəm.

***– Bakıya səfər zamanı, yəqin ki, Azərbaycan Diaspor Komitəsinə baş çəkməmiş deyilsiz. Kimlərlə görüşdünüz, problemlər və gələcək əlaqələr barədə söhbətləriniz oldumu?***

– Bakıya gəlmək, bu qurumun rəhbərliyi ilə görüşməmək məqbul olmazdı. Əksinə, bu, çox gözəl bir fürsət oldu. Çünki Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndələri fəaliyyətimizi yaxından izləyirlər. Bakıya səfərimdən xəbər tutduqdan sonra məni komitəyə dəvət etdilər. Komitənin sədri, hörmətli Fuad Muradovla və digər rəsmi şəxslərlə – Vaqif Seyidbəyov, Əkrəm Abdullayev, Əli Əliyevlə görüşlərim oldu. Görüşlərdə fəaliyyətimiz, mövcud məsələlər və gələcəkdə daha sıx əməkdaşlıq imkanları ətrafında geniş fikir mübadiləsi apardıq.

***– Ümumiyyətlə, Azərbaycanın dövlət strukturları ilə əlaqə saxlayırsınızmı? Azərbaycan səfirliyinin dəstəyini hiss edirsinizmi?***

– Biz yeni təşkilat olduğumuz üçün, ola bilsin ki, bəzi qurumlar bizi hələ yeni tanımağa başlayırlar. Bununla belə, dövlət strukturları ilə əlaqələr qurmağa çalışırıq. O sıradan Azərbaycanın Estoniyadakı səfirliyi və xüsusilə hörmətli səfirimiz Anar Məhərrəmov bizimlə bir neçə dəfə görüşüb və dəyərli tövsiyələrini verib, dəstəyini əsirgəməyib. Eyni zamanda, təşkil etdiyimiz mədəni-kütləvi tədbirlərdə səfirliyin nümayəndələri dəvətimizi qəbul edib iştirak ediblər ki,




bu da vacib dəstəkdir. Onlar da yaxşı başa düşürlər ki, diaspor sadəcə bir icma deyil, həm də Azərbaycanın xaricdəki səsidir.

***– Azərbaycanlıların Estoniya cəmiyyətinə inteqrasiyasını uğurlu hesab etmək olarmı?***

– Əminliklə deyərdim ki, Estoniya cəmiyyətinə azərbaycanlıların inteqrasiyası kifayət qədər uğurludur. Demək olar ki, əksər soydaşlarımız eston dilini bilirlər, bir çoxu biznes və digər fəaliyyət sahələrində uğurla təmsil olunurlar.

Önəmli məsələlərdən biri də Estoniyada böyüyən gənc nəslin elmli, savadlı və yüksək perspektivlər vəd edən səviyyədə yetişməsidir. Bu işdə Estoniya dövlətinin həyata keçirdiyi Dövlət proqramları çox mühüm rol oynayır.

***– Estoniyada dövlət səviyyəsində azərbaycanlılara və diaspor təşkilatına münasibəti necə qiymətləndirirsiniz?***

– Yüksək qiymətləndirirəm. Qısaca deyim ki, Estoniyada azərbaycanlılara və diaspor təşkilatımıza hörmət və normal münasibət var. Estoniya dövləti ölkədə yaşayan azsaylı xalqlara, o cümlədən azərbaycanlıların cəmiyyətə inteqrasiyasına mənəvi və maddi dəstək göstərir. Diaspor təşkilatımıza gəldikdə isə tam sərbəst fəaliyyət göstəririk. Mədəni-kütləvi tədbirlərimizdə Estoniya dövlətinin rəsmi nümayəndələri belə iştirak edir. Qarşılıqlı hörmət və əməkdaşlıq münasibətlərimizin özəyini təşkil edir. Əsas odur ki, ölkənin qanunlarına və birgəyaşayış qaydalarına hörmətlə yanaşasan.

***– Estoniyada anadan olan, bu ölkədə böyüyən gənc nəsil arasında milli-mədəni dəyərlərin və dilin qorunmasına nail ola bilirsinizmi? Bu istiqamətdə hansı mədəni-kütləvi tədbirlər həyata keçirirsiniz?***

– Vətəndən uzaqda yaşamaq həmişə çətinlik yaradır. Dilini, mədəniyyətini və adət-ənənələrini qorumaqla yanaşı, eyni zamanda, yeni bir cəmiyyətin bir hissəsi olmaq asan məsələ deyil. Estoniyadakı azərbaycanlıların “Birlik” diaspor təşkilatı bu gün özünü bu kəsişmədə təsdiq edir.

Təşkilatımız “gənc” olsa da, sıralarındakı insanlar sıx və həmrəydirlər. Bu təşkilatdakı azərbaycanlılar bir-birinə sıx bağlıdır, layihələr hazırlayıb həyata keçiririk, mədəni axşamlara toplaşır, ən əsası, uşaqlarımıza ana dilini öyrədir və ona sevgi aşılayırıq.

Təbii ki, bütün bunların arxasında gündəlik iş və heç də sadə olmayan problemlər dayanır. Onlardan ən vacibi kənar mühitdə, başqa bir mədəniyyətdə əriyib yoxa çıxmamaqdır. Bu, daha çox yeniyetmələrimiz və gənclərimiz üçün olan problemdir. Əriyib itməkdən müdafiənin ən tutarlı cavabı əməldədir: festivallar, görüşlər, təhsil təşəbbüsləri. Gənclərimizə kim olduqlarını və haradan gəldiklərini xatırlatmağa kömək edən hər şeyi etməyə hazırıq. Ona görə də gələcək planlarımızda ən önəmli yeri məhz gənclər tutur.

Əsas məqsədimiz Estoniyada yaşayan gəncləri bir-biri ilə tanış etmək, onlar arasında milli ruhu gücləndirmək və Azərbaycanımızın milli-mənəvi dəyərlərini daha yaxından tanıtmaqdır. Hazırda gənclər arasında ünsiyyəti və birlik hissini artırmaq məqsədilə bir neçə idman tədbiri təşkil etmişik. Gələcəkdə isə bu proqramları daha da genişləndirməyi və müxtəlif mədəni-kütləvi layihələrlə davam etdirməyi planlaşdırırıq.

***– Azərbaycanla bağlı olan hadisələrə diasporunuz necə reaksiya verir?***

– Vətəndən uzaqda yaşasaq da, Azərbaycanda baş verən bütün hadisələri yaxından izləyir və daim məlumatlı olmağa çalışırıq. Hər zaman Vətənimiz üçün əlimizdən gələn dəstəyi göstərməyə hazırıq. Ən çətin məqamlarda da həmrəylik nümayiş etdiririk.

***– Ümumiyyətlə, xarici ölkədə Azərbaycanın imicinin formalaşmasında diasporun rolunu necə qiymətləndirirsiniz?***

– Düşünürəm ki, istər biznes sahəsi olsun, istərsə də diaspor təşkilatları, hər bir sahədə nəticə onun necə yaradılmasından və ictimaiyyətə necə təqdim olunmasından çox asılıdır. Bu baxımdan, diaspor təşkilatı olaraq bacardığımız qədər Estoniyada yaşayan azərbaycanlılar arasında birliyə və həmrəyliyə çalışır, burada yaşayan digər xalqlara Azərbaycan xalqının necə mehriban və mənəvi dəyərlərinə bağlı olduğunu göstərməyə çalışırıq. Bu da xaricdə ölkəmizin müsbət imicinin formalaşmasına öz töhfəsini verir.

Yaxın gələcəyə planlarımız mövcud istiqamətlərdə fəaliyyətimizi daha da gücləndirmək və sistemli şəkildə inkişaf etdirməkdir. Xüsusilə gənclərlə işin genişləndirilməsinə, onların daha fəal şəkildə diaspor fəaliyyətinə cəlb olunmasına önəm vermək istəyirik.

***– Qəzetimiz vasitəsilə xaricdəki Azərbaycan diasporlarına hansı tövsiyələri verərdiniz?***

– Xaricdə yaşayan Azərbaycan diasporlarına əsas tövsiyəm birlik və həmrəyliyin daha da gücləndirilməsidir. Eyni zamanda, hər bir diaspor nümayəndəsi çalışmalıdır ki, yaşadığı ölkədə Azərbaycanı layiq olduğu səviyyədə ləyaqətlə təmsil etsin, millətimizin, dövlətimizin adını uca tutsun. Çünki milli dəyərlərimizin, mədəniyyətimizin və dilimizin qorunması, eləcə də başladığımız işlərin daha fəal şəkildə davam etdirilməsi baxımından, gənclərimiz əsas qüvvədir.

Əsas missiyamız, Estoniyanın bir parçası kimi, azərbaycanlı olaraq qalmaqdır. Bunu heç zaman unutmamalıyıq.

***Müsahibəni qələmə aldı:***
***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

***24 Aprel Gənclərin Beynəlxalq Həmrəylik Günüdür***

**Gənclik zamanın dinamik, çevik və eyni zamanda, ən məsuliyyətli dövrüdür. Gənc yaşda formalaşan düşüncə tərzi, dünyagörüşü ilə gələcək həyatın təməli qoyulur. Gənclər milli kimliyin daşıyıcısı, həm də müasir çağırışların əsas hərəkətverici qüvvəsidir.**

# Gənclərimizin dünya sorağı

Tarixin bütün mərhələlərində gənc nəsil cəmiyyətin inkişafında xüsusi rol oynayır. Buna görə də gənclərlə bağlı beynəlxalq təşəbbüslər böyük əhəmiyyət kəsb edir. Ümumdünya Demokratik Gənclər Federasiyası tərəfindən 1957-ci ildən təsis edilən Gənclərin Beynəlxalq Həmrəyliyi Günü məhz bu məqsədə xidmət edir. Hər il aprelin 24-də qeyd olunan bu gündə dünya ictimaiyyətinin diqqəti gənclərin problemlərinə yönəldilir, onların hüquqlarının qorunması, sosial rifahının yaxşılaşdırılması və cəmiyyətə inteqrasiyasının gücləndirmək üçün çağırışlar edilir.

Müasir dünyada gənclərin sosial-iqtisadi proseslərdə iştirakı, onların məşğulluq imkanlarının artırılması, keyfiyyətli təhsil və peşə bacarıqlarına çıxışının təmin olunması inkişaf strategiyasının əsasını təşkil edir. Çünki rəqabətədavamlı və dayanıqlı cəmiyyət qurmaq üçün savadlı, təşəbbüskar və məsuliyyətli gənc nəslin yetişdirilməsi zərurətdir.

Ölkəmizdə bu istiqamətdə geniş imkanlar yaradılıb, gənclər təşkilatlarının fəaliyyəti, müxtəlif dövlət proqramları və beynəlxalq layihələr çərçivəsində həyata keçirilən təşəbbüslər gənclərin potensialının üzə çıxarılmasına xidmət edir. Bu da, öz növbəsində, gənc nəslin layiqli vətəndaş kimi formalaşmasına, ölkənin gələcək inkişafında aktiv rol oynamasına zəmin yaradır. Gənclərin Beynəlxalq Həmrəylik Günündə dünyanın hər yerində ölkəmizi layiqincə təmsil edən soydaşlarımızla əlaqə yaratdıq.

**Nihat ƏLİYEV,**
**Lüksemburq Universitetinin doktorantı, “Glacies biome” biotexnoloji şirkətin həmtəsisçisi və baş icraçı direktoru:**



– 13 yaşımdan taleyimə uzaq üfüqlərin yolu yazılıb. Həmin vaxtdan bəri elmin sorağında vətənin hüdudlarından kənarda yaşayıram.

Peşəkar fəaliyyətim biomühəndislik sahəsi ilə bağlıdır və bu istiqamətdə gənc yaşlarımdan Azərbaycanı müxtəlif mötəbər müsabiqələrdə təmsil etmişəm. Yaponiya, Koreya, Nigeriya, Türkiyə, Rusiya və Kanada kimi ölkələrə səfərlərim məhz peşəkar inkişaf və elmi nailiyyətlər naminə gerçəkləşib. Qürbətdə, doğmalarından uzaqda yaşamağın öz çətinlikləri var. Amma bütün bunlara baxmayaraq, yolumdan dönmədim.

Koreyada keçirilən Beynəlxalq Biologiya Olimpiadasında dünya üzrə medal qazanan ən gənc azərbaycanlı iştirakçı olmağım həm ölkə daxilində, həm də beynəlxalq elmi müstəvidə sonrakı uğurlarım üçün, bir növ, bələdçi rolunu oynadı.

Dövlət Proqramı çərçivəsində Toronto Universitetində təhsil almışam və bu mərhələ sonrakı illərdə müxtəlif ölkələri və elmi mərkəzləri əhatə edən akademik fəaliyyətimin başlanğıcı olub. Kanadada qazandığım təcrübənin ardınca Estoniyada biomühəndislik və robotika üzrə ikinci ixtisasa yiyələnmişəm. Bu mərhələ mənə biologiya ilə texnologiyanın vəhdətini daha dərindən anlamaq, eləcə də müasir elmin tətbiqi aspektlərini yaxından mənimsəmək imkanı yaradıb.

Elmi fəaliyyətimi daha geniş müstəviyə daşımaq məqsədilə Amerika Birləşmiş Ştatlarında Notr Dam Universitetində kök hüceyrə mühəndisliyi sahəsində tədqiqatlara başlamışam. Fərqli coğrafiyalarda keçdiyim akademik yol məni müxtəlif yanaşmalarla tanış edib və peşəkar dünyagörüşümün formalaşdırıb.

Hazırda isə illər ərzində topladığım bilik və təcrübəni Lüksemburqda üz dərisi biomühəndisliyi sahəsində apardığım tədqiqatlarda cəmləşdirirəm.

Elmi fəaliyyətimin təməlində canlı orqanizmlərin mürəkkəb bioloji mexanizmlərini mühəndislik həlləri ilə vəhdət halına gətirmək dayanır. Xüsusilə hüceyrə regenerasiyası və toxuma mühəndisliyi istiqamətində apardığım tədqiqatlar çərçivəsində əvvəllər ürək toxumasının bərpası və süni kardiomiositlərin yetişdirilməsi üzərində çalışmışam. Bu sahədə əldə etdiyim bir neçə uğurlu patentdən sonra, elmi kəşflərimi real tətbiqə çevirmək məqsədilə öz şirkətimi təsis etmək qərarına gəldim.

Üz dərisi biomühəndisliyi, yəni zədələnmiş dəri toxumalarının molekulyar səviyyədə bərpası istiqamətində çalışıram. Şirkət üçün mərkəz seçərkən Cənubi Koreya və Lüksemburq kimi iki nəhəng texnoloji qütb arasında qaldım. Lakin innovativ tibbi texnologiyaların hüquqi tənzimlənməsi, etik standartların yüksəkliyi və beynəlxalq bazarlara inteqrasiya baxımından Lüksemburqun təqdim etdiyi şəffaf biznes mühiti bizim üçün daha cəlbedici oldu. Müvafiq dövlət strukturları ilə elmi-iqtisadi müzakirələrdən sonra innovasiyaları Avropanın məhz bu mərkəzində inkişaf etdirməyə qərar verdim.

Şirkətdə azərbaycanlı tərəfdaşlarım da var. Komandamızın böyük bir hissəsi beynəlxalq mütəxəssislərdən ibarət olsa da, həmvətənlərimlə bir arada çalışmaq mənim üçün mənəvi dayaqdır. Ana dilində danışmaq, ortaq yumoru və dəyərləri bölüşmək mənə dünyanın harasında olsam da, özümü vətənimdəki kimi güclü və rahat hiss etdirir.

İdarəetmədə rasional və soyuqqanlı qərarlar vermək prinsipim olsa da, bu, həm də tərəfdaşlarımıza və ölkəmizə olan məsuliyyətimdən irəli gəlir. Azərbaycan bazarına daxil olarkən apardığımız geniş araşdırmalar göstərdi ki, ölkəmizdə bu sahədə ciddi tənzimləmələrin aparılması və peşəkarlara həvalə edilməsi diqqətəlayiqdir. Biz də, öz növbəmizdə, bu inkişafa töhfə vermək üçün məhsullarımızın yalnız yüksək səviyyəli klinikalara təqdim edirik .

Lüksemburqda fəaliyyət göstərən “LuxAz” diaspor təşkilatı ilə əməkdaşlıq çərçivəsində Belçika, Niderland və Lüksemburqun daxil olduğu Benelüks arealı boyunca təşkil olunan müxtəlif layihələrə qoşulur, həmin ölkələrdə keçirilən tədbirlərdə mütəmadi iştirak edirəm. Milli maraqlarımızın qlobal aləmdə daha effektiv təbliği məqsədilə buradakı səfirimizlə də tez-tez bir araya gəlir, fikir mübadiləsi aparırıq.

Ötən ilin noyabrında ümumilikdə 40 minə yaxın ziyarətçinin qatıldığı, 63 stendin iştirak etdiyi tədbirdə Lüksemburqun xarici işlər naziri Xavier Bettel Azərbaycan stendini ziyarət etmişdi. Nazirə ölkəmizdə istehsal olunan məhsullar və milli mədəniyyətimiz haqqında ətraflı məlumat verdik.

Layiqli vətəndaş olmağa çalışan hər kəs kimi mənim də əsas məqsədim qazandığım beynəlxalq təcrübəni gələcəkdə ölkəmizin elmi inkişafına və biomühəndislik sahəsinin tərəqqisinə həsr etməkdir.

**Sevinc ÖMƏRLİ,**
**marketinq üzrə fəlsəfə doktoru:**



– 2008–2012-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Türk Dünyası İşlətmə fakültəsində bakalavr, 2012–2015-ci illərdə Türkiyənin nüfuzlu Gazi Universitetində MBA proqramı üzrə magistr təhsili almışam. 2016–2023-cü illərdə Macarıstanın Corvinus University of Budapest universitetində marketinq üzrə fəlsəfə doktoru (PhD) dərəcəsinə yüksəlmiş, təhsilimi Macarıstanın nüfuzlu Stipendium Hungaricum (Tempus İctimai Fondu) təqaüd proqramı çərçivəsində uğurla tamamlamışam.

12 elmi məqalənin müəllifi kimi London, Budapeşt və Bratislava şəhərlərində keçirilən beynəlxalq konfranslarda çıxış etmişəm. Xüsusilə, Qlazqo şəhərində keçirilən 47-ci EMAC Doctoral Colloquium tədbirində yeganə azərbaycanlı kimi ölkəmizi təmsil etmişəm.

Peşəkar fəaliyyətimin ilk illəri magistratura dövrünə təsadüf edir. Bu illərdə Türkiyənin Avropa Birliyi Nazirliyində fond müraciətlərinin analizi ilə məşğul olaraq, Erasmus proqramı ilə İngiltərənin “Eurosolar” şirkətində təcrübə keçmişəm. 2015-ci ildə BMT-nin COP12 konfransında qrup lideri kimi, həmçinin G20 Antalya Zirvəsinin təşkilat komandasında dünya liderlərinin (Barack Obama, Angela Merkel və s.) iştirak etdiyi beynəlxalq platformada təcrübə qazanmışam.

2023-cü ildən etibarən Lüksemburq şəhərində yaşayıram. Hazırda LuxAz ASBL assosiasiyasının kommunikasiya meneceri kimi Azərbaycan mədəniyyətinin Avropada tanıdılması istiqamətində layihələr icra edirik. Eyni zamanda, Azərbaycanı ilk dəfə CLAE platformasında fərdi stendlə təmsil etmişik.

Lüksemburq parlamenti və şəhər şurası ilə əlaqələrin qurulmasında, ictimai münasibətlərin inkişafında da fəal iştirak etməyə çalışırıq. Burada yaşayan həmyerlilərimizlə birgə ölkəmizin daha geniş auditoriyaya tanıdılmasına səy göstəririk. Lüksemburqda keçirilən “Miqrasiyalar, mədəniyyətlər və vətəndaşlıq festivalı” hər il fərqli xalqları bir araya gətirən mühüm platformadır. Bu il 43-cü dəfə keçirilən festivalda Azərbaycanın ilk dəfə bu stendlə təmsil olunması isə diaspor fəaliyyətinin yeni mərhələyə keçidinin göstəricisi oldu. İki gün davam edən tədbirdə 400-dən çox stend quruldu və müxtəlif xalqların stendləri arasında biz də öz ölkəmizin məhsullarını təqdim etdik.

Azərbaycan stendi festival iştirakçılarında xüsusi maraq doğurdu, burada milli musiqi, rəqs, ornamentlər və zəngin mətbəximiz təqdim olundu. Milli mətbəximizin dolma, plov və şəki halvası kimi nəfis təamları nümayiş olundu. Lüksemburqda yaşayan azərbaycanlılar bu kimi tədbirlər vasitəsilə bir-birilərinə daha sıx bağlanırlar. Birgə təşkil olunan oyunlar, yarışlar və sosial fəaliyyətlər icma daxilində həmrəyliyi artırır və milli kimliyin qorunmasına xidmət edir.

Bütün bunların mühüm tərəfi isə Azərbaycanın beynəlxalq imicinin formalaşdırılmasıdır. Multikultural dəyərlərin ön planda olduğu belə tədbirlərdə Vətənimizi tanıtmaq tolerantlıq və müxtəlifliyə açıq siyasətinin praktik nümayişidir. Bu, xüsusilə Avropa ictimaiyyətində Azərbaycan haqqında daha obyektiv və dolğun təsəvvürün yaranmasına töhfə verir.

***Fidan ƏLİYEVA,***
***Ləman TƏHMƏZ***
***XQ***

*"Azərbaycan Mədəniyyəti – 2040"*

# Kitab sərvətimiz misilsiz mənəvi xəzinədir

**"Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyası respublikanın mədəni quruculuq sahəsindəki perspektiv inkişaf xəttini formalaşdıran, dövlətin mənəvi, ictimai və elmi potensialının yüksəldilməsinə xidmət edən fundamental strateji proqramdır. Bu konseptual sənəd, sadəcə, sahəvi islahatları deyil, ümumilikdə, cəmiyyətin struktur etibarilə yenilənməsini və təkmilləşməsini nəzərdə tutan milli inkişaf platforması mahiyyəti daşıyır.**



Konsepsiyada əksini tapan məsələlər sırasında Azərbaycan dili, davranış mədəniyyəti, ədəbiyyat, incəsənət, mədəni irs kimi mədəniyyətin əsas sahələri də var. Sənədin 4-cü bəndində ədəbiyyat və incəsənətlə bağlı çağırışlardan bəhs edir. Bu çağırışlar içərisində 4.4-cü bənd "kitabxana sistemində nəticələrə hesablanmış yeni idarəetmə və maliyyələşdirmə modellərinin yaradılması, infrastrukturun təkmilləşdirilməsi və xidmətlərin keyfiyyətinin artırılması"na həsr olunmuşdur. Müddəa kitabxana-informasiya sahəsinin müasir inkişaf istiqamətlərini əks etdirən kompleks və çoxşaxəli strateji yanaşmanı ifadə edir.

Bu fikir, ilk növbədə, kitabxana fəaliyyətinin ənənəvi idarəetmə modelindən uzaqlaşaraq nəticəyönümlü və səmərəliliyə əsaslanan idarəetmə sisteminə keçidi nəzərdə tutur. Belə yanaşma idarəetmədə fəaliyyətin formal icrasından daha çox əldə olunan real nəticələrin, oxucu məmnunluğunun, informasiya xidmətlərinin effektivliyinin və resurslardan istifadə səviyyəsinin qiymətləndirilməsini ön plana çıxarır. Bu isə kitabxanaların cəmiyyətin informasiya tələbatına daha çevik və adekvat reaksiya verən sosial institutlara çevrilməsini şərtləndirir.

Konsepsiyada vurğulanan yeni maliyyələşdirmə modelləri kitabxana sisteminin iqtisadi əsaslarının möhkəmləndirilməsinə xidmət edir. Müasir dövrdə kitabxanaların yalnız dövlət büdcəsindən asılı vəziyyətdə fəaliyyət göstərməsi onların inkişaf imkanlarını məhdudlaşdırır. Bu baxımdan, çoxmənbəli maliyyələşdirmə mexanizmlərinin tətbiqi, o cümlədən qrant layihələri, beynəlxalq əməkdaşlıq proqramları, sponsorluq və innovativ xidmətlər vasitəsilə əlavə vəsaitlərin cəlb edilməsi kitabxanaların maliyyə dayanıqlılığını artırmaqla yanaşı, onların fəaliyyətində rəqabət qabiliyyətini də gücləndirir. Belə yanaşma kitabxana sisteminin bazar iqtisadiyyatı şəraitinə uyğunlaşmasını və daha çevik idarə olunmasını təmin edir.

Müddəada xüsusi yer tutan infrastrukturun təkmilləşdirilməsi məsələsi isə kitabxana fəaliyyətinin maddi-texniki və texnoloji bazasının yenilənməsini əhatə edir. Burada söhbət yalnız kitabxana binalarının müasirləşdirilməsindən deyil, həm də informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqindən, elektron kataloqların, rəqəmsal kitabxanaların və avtomatlaşdırılmış idarəetmə sistemlərinin yaradılmasından gedir. İnfrastrukturun bu şəkildə inkişafı informasiya resurslarına çıxış imkanlarını genişləndirir, xidmətlərin operativliyini artırır və ölkənin qlobal informasiya məkanına inteqrasiyasını sürətləndirir.

Digər mühüm aspekt isə xidmət keyfiyyətinin artırılması ilə bağlıdır ki, bu da kitabxana fəaliyyətində istifadəçiyönümlü yanaşmanın gücləndirilməsini nəzərdə tutur. Müasir kitabxana yalnız informasiya saxlayan məkan deyil, eyni zamanda, biliklərin yayılması, sosial ünsiyyətin təşkili və mədəni inkişafın təmin edilməsi funksiyalarını yerinə yetirən dinamik mərkəzdir. Bu baxımdan xidmətlərin keyfiyyətinin yüksəldilməsi oxucuların fərdi ehtiyaclarının nəzərə alınması, yeni xidmət formalarının tətbiqi, rəqəmsal xidmətlərin genişləndirilməsi və kitabxanaçıların peşəkar səviyyəsinin artırılması ilə sıx bağlıdır.

Beləliklə, qeyd olunan müddəa kitabxana sistemində paralel şəkildə idarəetmə, maliyyələşdirmə, infrastruktur və xidmət sahələrində kompleks islahatların həyata keçirilməsini nəzərdə tutur. Bu yanaşma kitabxanaların yalnız mədəni irsin qorunması funksiyasını deyil, həm də informasiya cəmiyyətinin tələblərinə cavab verən, innovativ və dayanıqlı inkişaf edən institutlara çevrilməsini təmin edir.

Nəticə etibarilə, bu müddəa Azərbaycanın mədəniyyət siyasətində kitabxana sahəsinin modernləşdirilməsinə yönəlmiş konseptual və strateji baxışın ifadəsi kimi çıxış edir.

Konsepsiyanın "Gözlənilən nəticə və nəticə indikatorları" yarımbölməsində qeyd olunur: "Kitabxanaların fəaliyyəti təkmilləşdiriləcək, o cümlədən fiziki və rəqəmsal kitabxana resursları zənginləşdiriləcəkdir". Müddəa müasir kitabxana-informasiya sisteminin inkişaf istiqamətlərini əks etdirən mühüm konseptual yanaşmanı ifadə edir. Bu fikir kitabxana fəaliyyətinin yalnız ənənəvi çərçivədə deyil, həm də innovativ və texnoloji əsaslar üzərində yenidən qurulmasını nəzərdə tutur. İlk növbədə, "kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi" ifadəsi bu sahədə struktur, funksional və təşkilati dəyişikliklərin həyata keçirilməsini ehtiva edir.

Bu, kitabxanaların idarəetmə mexanizmlərinin yenilənməsi, xidmət spektrinin genişləndirilməsi və istifadəçiyönümlü fəaliyyət modelinin gücləndirilməsi kimi aspektləri özündə birləşdirir. Müasir dövrdə kitabxanaların fəaliyyəti yalnız fondların qorunması və təqdim olunması ilə məhdudlaşmır, eyni zamanda, informasiya mübadiləsinin təşkili, elmi-kommunikasiya proseslərinin dəstəklənməsi və biliklərin yayılması kimi funksiyaları da əhatə edir. Bu baxımdan təkmilləşdirmə prosesi kitabxanaların cəmiyyətin intellektual inkişafında daha fəal rol oynamasına şərait yaradır.

Burada xüsusi vurğulanan "fiziki və rəqəmsal kitabxana resurslarının zənginləşdirilməsi" isə kitabxana fondlarının ikili strukturda inkişaf etdirilməsini nəzərdə tutur. Fiziki resursların zənginləşdirilməsi ənənəvi çap məhsullarının – kitabların, jurnalların, arxiv materiallarının və digər informasiya daşıyıcılarının say və keyfiyyət baxımından artırılması ilə bağlıdır. Bu, milli-mədəni irsin qorunması, elmi və bədii ədəbiyyatın sistemli şəkildə toplanması və oxucuların müxtəlif informasiya ehtiyaclarının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda, rəqəmsal resursların zənginləşdirilməsi kitabxana fəaliyyətində keyfiyyətcə yeni mərhələnin göstəricisidir. Bu, elektron kitabxanaların yaradılması, rəqəmsal kolleksiyaların formalaşdırılması, elektron kataloqların inkişafı və onlayn informasiya xidmətlərinin genişləndirilməsi kimi istiqamətləri əhatə edir. Rəqəmsal resursların artırılması informasiyaya məkan və zaman məhdudiyyəti olmadan çıxışı təmin edir, istifadəçi auditoriyasını genişləndirir və kitabxanaların qlobal informasiya mühitinə inteqrasiyasını sürətləndirir.

Bu iki istiqamətin – fiziki və rəqəmsal resursların paralel inkişafı kitabxana sistemində balanslı və davamlı inkişaf modelini formalaşdırır. Belə ki, fiziki resurslar milli yaddaşın və mədəni irsin qorunmasını təmin etdiyi halda, rəqəmsal resurslar bu irsin daha geniş auditoriyaya çatdırılmasını və müasir texnoloji mühitdə istifadəsini mümkün edir.

Bu müddəa özlüyündə kitabxana fəaliyyətinin modernləşdirilməsinə yönəlmiş strateji baxışdır və bu sahədə həm ənənəvi, həm də innovativ komponentlərin inteqrasiyası əsasında inkişafın təmin edilməsini nəzərdə tutur. Bu yanaşma kitabxanaların informasiya cəmiyyətində rolunun gücləndirilməsinə, onların sosial və mədəni funksiyalarının daha səmərəli şəkildə həyata keçirilməsinə xidmət edir.

Bu yanaşma sübut edir ki, müasir dünyada dövlətlərin gücü yalnız makroiqtisadi göstəricilər və ya hərbi qüdrətlə deyil, həm də cəmiyyətin informasiya resurslarına çıxış imkanları və bu resurslardan səmərəli istifadə mədəniyyəti ilə ölçülür. Bu kontekstdə kitabxanalar artıq sadəcə kitab saxlanılan statik məkanlar deyil, milli inkişafın intellektual mühərriki, strateji bilik mərkəzləri kimi çıxış edir. Bilgi mədəniyyətinin mərkəzində dayanan müasir kitabxana şəbəkəsi cəmiyyətin innovasiyalara adaptasiyasını sürətləndirən, eyni zamanda, milli-mənəvi irsi rəqəmsal yaddaşa köçürərək qoruyan ən mühüm platformadır. Kitabxanaların rəqəmsal transformasiyası və canlı bilik məkanı konsepsiyasına keçidi Azərbaycanın qlobal rəqabətdə intellektual üstünlüyünü təmin edəcək əsas amildir.

"Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyası çərçivəsində yenidən formalaşan kitabxana sistemi gələcəyin intellektual cəmiyyətini quran mənəvi fundamentdir. Bu strateji sənəd kitabxanaların funksional hüdudlarını genişləndirərək, onları bilginin istehsal olunduğu və paylaşıldığı dinamik ekosistemlərə çevirir. Konsepsiyanın uğurla icrası 2040-cı ilə qədər Azərbaycanın kitabxana şəbəkəsini yüksək texnoloji imkanlara malik, etik dəyərlərin və elmi təfəkkürün rəhbər tutulduğu bir bilgi mədəniyyəti mərkəzinə çevirəcək. Bu yolda müasir kitabxanalar bizim intellektual bələdçimiz, milli fondundakı zəngin irsimiz isə dövlətçilik təfəkkürümüzün möhkəm dayağıdır.

***Şəhla TAHİRQIZI,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Akademik Zərifə Əliyevanın 103 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans təşkil ediləcək

**Aprelin 28-də Səhiyyə Nazirliyi, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşəbbüsü ilə akademik Zərifə Əliyevanın 103 illiyinə və Milli Oftalmologiya Mərkəzinin 80 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans keçiriləcək.**




Ənənəvi xarakter daşıyan bu konfrans oftalmologiya sahəsində əldə olunan son elmi nailiyyətlərin və müasir tibbi texnologiyaların müzakirəsi, yerli və xarici mütəxəssislər arasında təcrübə mübadiləsinin aparılması üçün mühüm platformadır. Konfransın əsas məqsədi oftalmologiyanın aktual problemlərinin müzakirəsi, yeni diaqnostika və müalicə metodlarının təhlili, həmçinin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsidir.

Tədbirdə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimləri, ölkənin müxtəlif bölgələrindən olan oftalmoloqlar və alimlər elmi məruzələrlə çıxış edəcəklər. Bununla yanaşı, Rusiya, Türkiyə, İtaliya, Özbəkistan və digər ölkələrdən də tanınmış mütəxəssislər konfransda iştirak edərək öz təcrübələrini bölüşəcəklər.

Konfrans çərçivəsində Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində Göz Bankının təntənəli açılışı da keçiriləcək.

Akademik Zərifə xanım Əliyeva "Gözün və görmə siniri yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik və fizioloji xüsusiyyətləri", "İridodiaqnostika", "Şəkərli diabet zamanı gözün patologiyası", "Oftalmologiyanın aktual problemləri" kimi fundamental əsərlərin müəllifidir. Ümumilikdə, 150-dən çox elmi işin, 14 monoqrafiyanın və 12 səmərələşdirici təklifin müəllifi olan akademik Zərifə xanım Əliyeva Azərbaycan tibb elminə əvəzolunmaz töhfələr verib.

***XQ***

# Türk Akademiyası ali məktəblərlə əməkdaşlığı genişləndirir



**Astanadakı Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev və Ankara Sosial Elmlər Universitetinin (ASEU) rektoru Musa Kazım Arıcan qarşılıqlı əlaqənin inkişaf etdirilməsinə və birgə tədqiqatların genişləndirilməsinə həsr olunan əməkdaşlıq protokolu imzayıblar.**

İmzalanma mərasimi Türk Akademiyası və ASEU-nin təşkilatçılığı ilə Ankarada keçirilən Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş elmi və mədəni tədbirlər çərçivəsində də baş tutub.

Sənəd tərəflərin türkologiya sahəsində tərəfdaşlığın dərinləşdirməsi, birgə elmi layihələrin həyata keçirilməsi, elm və təhsil müəssisələri arasında institusional əlaqələri gücləndirilməsini nəzərdə tutur.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Astana**

*Unutsaq, unudularıq*

# Klarnet ifaçılığının Şəmsi zirvəsi

**Sosial şəbəkələrdə ustad klarnet ifaçısı, ifaçılıq sənətində öz dəst-xəttini yaratmış Vaqif Mirzəyevin bir söhbəti rastıma çıxdı. Şəmsi İmanovdan danışırdı. O Şəmsi İmanovdan ki, öz ifaları ilə yaddaşlarda silinməz iz qoyub. Vaqif Mirzəyev deyir ki, Şəmsi İmanov nadir klarnet ifaçısı olub. Belə sənətkarlar az-az yetişir.**

Xəyal məni uşaqlıq illərinə aparıb çıxardı. Bakı kəndlərində mağar toyları olardı, bu toylar sübh açılana qədər çəkərdi. O toyların səsi-sədası uzun müddət qulaqlardan çəkilməz, yaddaşlardan silinməzdi. Şəmsi İmanov o məclislərin yaraşığı idi, onun klarnetinin səsi yeri-göyü lərzəyə gətirərdi. Klarnet sanki bülbül kimi cəh-cəh vururdu. Nağılçılar sözü, ruzigarın gözü belə sədalar eşitməmişdi.

Şəmsi klarnetin dərvişi idi. Bu alət, onun üçün səmaya bir nərdivan idi. Barmaqlarıyla qalxırdı o nərdivanı. O, klarnetin Səttar Bəhlulzadəsi idi...

Bir gün barmaqları ondan üz döndərdi. O, daha klarnetə nəfəs verə bilmədi. Əziz dostundan – klarnetdən ayrı düşmək onu damla-damla əridirdi. Bu məhrumiyyət rahatlığını əlindən alır, həyatı onun gözündə cəhənnəm əzabına çevirirdi. Vaxt gələcəkdi, bu amansız hökmlə barışacaq, taleyə verdiyi bütün sualların ağzını birdəfəlik möhürləyəcəkdi... O, diri ikən özünü klarnetin səsində dəfn etmişdi...

Atamı ilk və son dəfə Şəmsinin "Vağzalı"sına qulaq asanda ağlayan görmüşəm. "Klarneti bir də heç kim bu cür dilləndirə bilməyəcək". Atamın dilindən qopan bu təəssüf nidası hələ də qulaqlarımdan çəkilməyib. Atam bu səsi qucaqlayıb ağlayırdı. Çox sonralar bildim ki, kişi həmin gün Şəmsi İmanovun ölüm xəbərini alıbmış. Bu məşum xəbəri ona əvəzolunmaz nağara ifaçısı Gülağa Quliyev çatdırmışdı. O üzüntülü yay gecəsi atam maqnitofonun düyməsini dəfələrlə geri fırladıb o möcüzəli avazları dinlədi. Klarnet, doğrudan da, bülbül kimi cəh-cəh vururdu. Sanki külək də bu səsdən məst olub çöldə qıvrıla-qıvrıla qalmışdı. O gün uşaq yaddaşımda belə qalıb.

Atam Bakı toylarında Şəmsinin ifasını çox dinləmişdi, onunla yaxın ünsiyyəti vardı. Əmim Məzahirin toyunu o, idarə etmişdi. Həmin toy Şəmsinin misilsiz ifaları ilə yadda qalmışdı. "Sən bir görəydin Şəmsi o toyda nə oyunlar çıxarırdı. Klarnet yerlə-göylə əlləşirdi". Bu heyranlıq dolu sözlər də atamın xatirə mücrüsündən səslənmişdi.

Ömrünün son illərində Şəmsi İmanovun barmaqları yoruldu, o ağırlığa, o ağrılara tab gətirmədi. Amma uzun illər möcüzələr yaratdı o barmaqlar... İndi mən o havaları dinlədikcə, sehrkar barmaqların



açıldığını, yenə də möcüzələr yaratmaqda davam etdiyini görürəm. O, Şəms kimi musiqinin üfüqlərində yenidən doğulur... Barmaqlarından süzülən ecazkar havalar həmişə olduğu kimi, qəlbləri isidir, ehtizaza gətirir...

***Kənan HACI***

*Kitab rəfi*

# "Riyakarın iflası"

**Azərbaycan Yazıçılar Birliyinin 1-ci katibi, Xalq yazıçısı, hüquq elmləri doktoru, "Şöhrət" və "Şərəf" ordenli Çingiz Abdullayevin rus dilindən tərcümə edilmiş "Riyakarın iflası" kitabı Azərbaycan oxucularına təqdim olunub.**




İdeya-məzmun xüsusiyyətləri maraq doğuran əsərdə insan xarakterinin mürəkkəb psixoloji tərəfləri, riyakarlıq və mənəvi seçim kimi mövzular bədii süjet xətti vasitəsilə qələmə alınıb. Detektiv yazıçının məşhur Dronqo xəfiyyəsini oxucu bu kitabda fərqli rakusdan görəcək.

İspaniyanın Çiklana kurortundakı dəbdəbəli oteldə bir-birinin ardınca qətllər və əntiq cavahiratın qarəti baş verir. Cəmiyyətin elit təbəqəsinin nümayəndələrinin istirahət etdiyi, zəngin həyatdan zövq aldıqları məkanda güclü mühafizəyə rəğmən, belə cinayətlərin törədilməsi görünməmiş hadisədir.

Qeyd edək ki, "Riyakarın iflası" əsərinin Azərbaycan dilində nəşri müəllifin yaradıcılığının yerli oxuculara daha yaxından təqdim olunmasına xidmət edir.

***Əli NƏCƏFXANLI***
***XQ***

# BDU-da "Professor Nəsir İmanquliyev dərsləri"

*Növbəti məşğələni Əməkdar jurnalist Dağbəyi İsmayılov aparıb*






**Aprelin 23-də Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin Jurnalistika fakültəsi üzrə üzvlərinin təşkilatçılığı ilə Azərbaycanın görkəmli jurnalisti, tanınmış ictimai xadim, professor Nəsir İmanquliyevin 115 illik yubileyinə həsr olunmuş "Professor Nəsir İmanquliyev dərsləri" layihəsinin növbəti görüşü keçirilib.**

Layihənin ikinci dərsinin qonağı Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının sədri, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyəti sədrinin müavini, Əməkdar jurnalist Dağbəyi İsmayılov olub. O, "İnformasiya agentliklərinin iş prinsipi. Redaksiya işinin təşkili" mövzusunda geniş təqdimatla çıxış edərək müasir media mühitində informasiya axınının idarə olunması, operativlik və dəqiqlik balansının qorunması, eləcə də redaksiya proseslərinin effektiv qurulması ilə bağlı praktik bilik və təcrübəsini bölüşüb.

Dağbəyi İsmayılov çıxışında informasiya agentliklərinin fəaliyyət mexanizmlərindən danışıb. Qeyd edib ki, informasiya agentliklərinin əsas missiyası cəmiyyətə etibarlı, yoxlanılmış və sürətli informasiya təqdim etməkdir. Redaksiya daxilində düzgün koordinasiya, məsuliyyət bölgüsü və peşəkar etik prinsiplərə sadiqlik keyfiyyətli jurnalistikanın əsas sütunlarını təşkil edir. Dağbəyi İsmayılov xüsusilə rəqəmsal transformasiya dövründə jurnalistlərin çevik düşüncə tərzinə malik olmasının vacibliyini vurğulayıb. O, jurnalistika ixtisası üzrə təhsil alan tələbələrə daim öz üzərilərində işləməyi tövsiyə edib.

Əməkdar jurnalist görüş çərçivəsində Nəsir İmanquliyevlə bağlı xatirələrini də bölüşüb. O, Nəsir İmanquliyevin tələbələrinə yanaşmasından, jurnalistikaya gətirdiyi yeniliklərdən və milli mətbuat tarixindəki müstəsna rolundan bəhs edib.

Görüş müzakirələrlə davam edib.

Qeyd edək ki, aprel və may aylarını əhatə etməklə həftədə bir dəfə 90 dəqiqəlik mühazirələr formatında təşkil edilən "Professor Nəsir İmanquliyev dərsləri"nin məqsədi Azərbaycan jurnalistika tarixində mühüm iz qoymuş professor Nəsir İmanquliyevin zəngin elmi-pedaqoji irsinin sistemli şəkildə öyrənilməsi, təhlili və gənc nəsil jurnalistlər arasında təbliğidir.

Layihədən 300-dən çox tələbənin faydalanması nəzərdə tutulub. Yekunda isə layihə iştirakçılarının professor Nəsir İmanquliyevlə bağlı mediada dərc olunan yazıları üzrə "Professor Nəsir İmanquliyev dərsləri - yazı müsabiqəsi" keçiriləcək və qaliblər təltif ediləcək.

***XQ***

# Qərbi Azərbaycan həqiqətlərinin Quba təqdimatı

**Dünən Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba filialında Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, Dərələyəz mahalının Keşkənd rayon icmasının sədri, ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın təqdimatında "Qərbi Azərbaycan əzəli və əbədi Azərbaycan torpağıdır" mövzusunda açıq dərs keçirilib.**

ADPU-nun Quba filialının direktoru, professor Yusif Alıyev açıq dərsi giriş sözü ilə açaraq qeyd edib ki, Qərbi Azərbaycan mövzusu bu gün dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bugünkü açıq dərs sadəcə elmi bir mühazirə deyil, həm də gənc nəslin milli kimlik şüurunun formalaşması və tarixi həqiqətlərin gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Professor Mahirə Hüseynova açıq dərsin əvvəlində doğma yurd həsrətindən, xalqımızın əsrlər boyu üzləşdiyi deportasiya və etnik təmizləmə siyasətinin acı nəticələrindən bəhs edib. O vurğulayıb ki, Qərbi Azərbaycanın hər bir daşı, hər bir toponimi bizim qədim tariximizin möhürüdür. Qərbi Azərbaycan həqiqətlərinin araşdırılması probleminə toxunan professor sonra deyibdir: "Bu, sadəcə bir nisgil deyil, həm də beynəlxalq müstəvidə hüquqi və elmi əsaslarla sübut olunmalı olan haqq işimizdir. Bizim mənəvi borcumuzdur ki, uydurma tarixlərə qarşı faktlarla, sənədlərlə və elmi tədqiqatlarla çıxış edək".



Məruzəçi Qərbi Azərbaycanla bağlı elmi tədqiqatlarının və xatirələrinin yer aldığı kitabları barədə də məlumat verərək qeyd edib ki, belə əsərlər saxtalaşdırılmış tarixin ifşasında mühüm rol oynayır.

Açıq dərsdə digər qonaqlar və rayon ziyalıları da iştirak ediblər. Çıxış edənlər Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının milli hədəflərimizdəki önəmli yerindən danışaraq, bu cür tədbirlərin regionlarda keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndiriblər.

Sonda professor Mahirə Hüseynova tələbələrin mövzu ilə bağlı çoxsaylı suallarını cavablandırıb. İştirakçılara Qərbi Azərbaycan tarixi və mədəni irsi ilə bağlı kitablar hədiyyə edilib.

***Məsaim ABDULLAYEV***
***XQ***

# "Yaşayan yaddaş, sönməyən ümid"



**Qax "Şəhərsalma və Memarlıq İli" ilə əlaqədar Qərbi Azərbaycana qayıdış konsepsiyası çərçivəsində rayon icra hakimiyyətinin və Qərbi Azərbaycan İcmasının (QAİ) birgə təşkilatçılığı ilə "Yaşayan yaddaş, sönməyən ümid" mövzusunda elmi-praktik konfrans keçirilib.**

Heydər Əliyev Mərkəzində təşkil edilən tədbirin iştirakçıları əvvəlcə Qərbi Azərbaycanın tarixini, mədəniyyətini, mətbəxini özündə əks etdirən sərgi ilə tanış olublar. Sonra erməni vandalizmindən bəhs edən videoçarx nümayiş etdirilib.

RİH başçısı Elvin Paşayev bildirib ki, Azərbaycan xalqının tarixi yaddaşında və milli şüurunda əzəli yurd yerimiz olan Qərbi Azərbaycan torpaqlarının xatirəsi hər zaman yaşayır. Atalarımızın əzəli yurd yeri – indiki Ermənistan ərazisindəki kəndlər, şəhərlər və məzarlar hələ də canlı yaddaşımızda yaşayır və hər birimizdə sönməyən qayıdış ümidini artırır. 44 günlük Vətən müharibəsi nəticəsində düşmən tapdağından azad edilmiş Qarabağda məskunlaşma proseslərinin başlanmasından sonra qarşıda duran ən mühüm məsələlərdən biri Qərbi Azərbaycan torpaqlarına da qayıdışı təmin etməkdir. Hər kəsin öz əzəli Vətənində yaşamaq hüququ var və bu hüquq beynəlxalq konvensiyalarda təsbit edilib.

Bildirilib ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Qərbi Azərbaycandan qaçqın düşmüş soydaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq müstəviyə çıxarılıb. Dövlət başçısı Qərbi azərbaycanlı soydaşlarımızın tarixi torpağı olduğunu nüfuzlu beynəlxalq kürsülərdən dəfələrlə bəyan edib və edir. Bu gün azərbaycanlılar Qarabağa qayıtdığı kimi, Qərbi Azərbaycana da qayıdacaq. Ancaq bu proses sülh yolu ilə ədalətli və ləyaqətli qayıdış kimi reallaşacaq.

Konfransda Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova, İcmanın İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı Hikmət Babaoğlu, QAİ-nin rayon üzrə nümayəndəsi Həsən Tarverdiyev və digər natiqlər də çıxış ediblər. Son iki əsrdə azərbaycanlılara qarşı yürüdülən etnik təmizləmə və deportasiya siyasətinin ağır nəticələri diqqətə çatdırılıb. Vurğulanıb ki, beynəlxalq hüquqa və tarixi faktlara əsaslanan "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası" tarixi ədalətin bərpası və sülhün təmin olunması üçün strateji əhəmiyyət daşıyır.

Konfrans ədəbi-bədii, musiqili proqramla davam edib.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*Beynəlxalq həyat*

# Yaxın Şərq sülh və savaş arasında

**Beynəlxalq medianın son məlumatları Yaxın Şərqdə qarşıdurma risklərinin diplomatik təşəbbüslərlə paralel inkişaf etdiyini göstərir. İran ətrafında artan təhlükəsizlik təhdidləri, İsrailin hərbi hazırlığını genişləndirməsi, ABŞ müdafiə strukturlarında baş verən dəyişikliklər və Tehranla müxtəlif aktorlar arasında intensivləşən diplomatik təmaslar geosiyasi mənzərənin mürəkkəbliyini daha da artırır. Bir tərəfdən Cənubi Koreya, Pakistan və regional oyunçuların gərginliyin yumşaldılmasına yönəlik mesajları ön plana çıxırsa, digər tərəfdən Livanda hərbi gərginlik, "Hizbullah"la bağlı açıqlamalar və İsrailin silahlanma qərarları yeni eskalasiya ehtimalını gündəmdə saxlayır.**



**"CNN":** ABŞ Müdafiə Nazirliyi Con Felanın Hərbi Dəniz Qüvvələrinin naziri vəzifəsindən istefasını elan edib. Bu barədə Pentaqon rəhbərinin kommunikasiya üzrə köməkçisi Şon Parnell "X" sosial şəbəkəsində yazıb. Felanın vəzifədən istefasının səbəbləri açıqlanmır. Hərbi Dəniz Qüvvələri naziri vəzifəsi müvəqqəti olaraq Felanın birinci müavini Hanq Kaoyə həvalə edilib. Qeyd edək ki, Felan bir neçə investisiya şirkətinin təsisçisi və həmtəsisçisidir. Onun Hərbi Dəniz Qüvvələri naziri vəzifəsinə namizədliyi 25 mart 2025-ci ildə ABŞ Senatı tərəfindən təsdiqlənmişdi.

**"Axios":** ABŞ-ın Hərbi Dəniz Qüvvələri (HDQ) naziri Con Felan müdafiə naziri Pit Heqsetlə ziddiyyətlər səbəbindən istefa verib. Felanın istefa verəcəyi barədə məlumatı daha əvvəl Pentaqonun rəsmi nümayəndəsi Şon Parnell paylaşmışdı. Nəşrin mənbəyinin sözlərinə görə, Felan prezidentlə işgüzar münasibətləri saxlasa da, onunla Heqset arasında gərginlik yaranıb.

**"Mizan":** İranda İsrailə casusluqda ittiham olunan daha bir nəfər edam edilib. Edam edilən Soltani Şirzadi Fəxr müxalif "Mücahidin-e Xalq" təşkilatının üzvü olub. İran hökumətinin məlumatına görə, Fəxr, həmçinin İsrail xüsusi xidmət orqanları ilə əməkdaşlıqda təqsirli bilinib.

**"The Times of Israel":** İsrailin Müdafiə Nazirliyi "Elbit Systems" müdafiə şirkətinə 200 milyon dollar məbləğində əlavə aviasiya sursatı partiyası sifariş verib. Qeyd olunur ki, uzunmüddətli müqavilə yaxın perspektivdə mümkün döyüş əməliyyatları ssenarilərinə hazırlığın gücləndirilməsi və təhlükəsizlik sahəsində intensiv fəaliyyət hazırlaşma proqramının tərkib hissəsidir. Aviasursatlara İsrail HHQ-nin təyyarələri tərəfindən zərbələrin endirilməsi və hədəflərin ələ keçirilməsi üçün istifadə olunan raketlər və bombalar daxildir.

**"Yonhap":** Cənubi Koreyanın İran üzrə xüsusi nümayəndəsi Çon Byon Ha bu ölkənin xarici işlər naziri Abbas Əraqçi ilə Tehranda görüşüb. Görüş Yaxın Şərqdə gərginliyin artması fonunda Hörmüz boğazında çətin vəziyyətdə qalan Cənubi Koreya gəmiləri və dənizçilərinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində Seulun səyləri fonunda baş tutub. Çon Byon diplomatik səylərin münaqişəyə son qoymağa imkan verəcəyinə və regionda sülh və sabitliyə gətirib çıxaracağına ümidvar olduğunu bildirib. O, həmçinin Seul və Tehran arasında ikitərəfli münasibətlərin inkişafının vacibliyini vurğulayıb.

**"TRT World":** ABŞ-ın Beyrutdakı səfirliyi Amerika vətəndaşlarını kommersiya uçuşları davam edərkən dərhal Livanı tərk etməyə çağırıb. Diplomatik missiya Livanda qalmaq qərarına gələn Amerika vətəndaşlarına əvvəlcədən hərəkət planı hazırlamağı və mövcud məlumatları diqqətlə izləməyi tövsiyə edib. Bundan əvvəl İsrailin Müdafiə Ordusu Livanın cənubundakı Livan radikal "Hizbullah" hərəkatına məxsus obyektə zərbələr endirildiyini bildirib.

**"Al Jazeera":** "Hizbullah" qruplaşmasını təmsil edən livanlı deputat Həsən Fədlallah bildirib ki, təşkilat İsraillə atəşkəs rejiminin davam etdirilməsini istəyir. Fədlallah, həmçinin vurğulayıb ki, əgər İsrail də bu şərtə əməl edərsə, qruplaşma atəşkəsə razılaşacaq. Daha əvvəl Fədlallah bildirmişdi ki, qruplaşmanın döyüşçüləri İsraillə "sarı xətti yarmaq niyyətindədir və "Hizbullah" Livanın cənubunda bufer zonasının yaradılması ilə bağlı heç bir şərtə razı olmayacaq.

**"Dawn News":** Pakistan Yaxın Şərqdə vəziyyətin normallaşdırılması üzrə İranın konstruktiv addımlar atacağına ümid edir. Bu barədə Pakistanın daxili işlər naziri Möhsün Nakvi ABŞ-ın müvəqqəti işlər vəkili Natali Beykerlə görüşündə bildirib. Görüş zamanı tərəflər Tehranın öz nümayəndə heyətini göndərəcəyini təsdiqləməməsi səbəbindən təxirə salınmış ABŞ–İran danışıqlarının ikinci raundu ətrafında diplomatik səyləri müzakirə ediblər. Nakvinin sözlərinə görə, Pakistanın Baş naziri Şahbaz Şərif və feldmarşal Asim Munir sülh yolu ilə nizamlanmanı dəstəkləmək üçün bütün səviyyələrdə səylər göstərir və tərəflərin diplomatiyaya üstünlük verəcəyinə ümid edirlər.

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***


# Odlar Yurdu Universiteti

*"İngilis dilində tədrisin təşkili" fakültəsinin dekanı vəzifəsinə*

**VAKANSİYA ELAN EDİR**

**Namizədə aid tələblər:**
• Profilə uyğun ali təhsil, elmi dərəcə və elmi ad.
• Ali təhsil müəssisəsində minimum 5 il elmi-pedaqoji təcrübə.
• Rəhbər vəzifədə iş təcrübəsi.
• Akademik və inzibati idarəetmə bacarığı.
• Kollektivlə işləmə və qərarvermə qabiliyyəti.

**Tələb olunan sənədlər:**
• Şəxsiyyət vəsiqəsinin surəti.
• Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
• Elmi və elmi-metodiki işlərin siyahısı.
• Kadrlar uçotunun şəxsi vərəqəsi.
• Tərcümeyi-hal.
• Fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

**Müraciət qaydası:**
Namizədlər sənədlərini Odlar Yurdu Universitetinin rektorunun adına yazılmış ərizə ilə birlikdə info@oyu.edu.az elektron poçt ünvanına göndərə və ya universitetin inzibati binasında (Bakı, Koroğlu Rəhimov küçəsi 13) İnsan Resursları Departamentinə təqdim edə bilərlər.

**Son müraciət tarixi elan dərc olunduğu tarixdən etibarən 30 gündür.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 70 (31039) 24 aprel 2026-cı il, cümə

## İDMAN

### Yunan-Roma güləşçilərimiz Avropa çempionu olublar



**Albaniyanın paytaxtı Tiranada keçirilən Avropa çempionatında 2 qızıl, 3 bürünc medal qazanan yunan-Roma güləşi üzrə millimiz 133 xalla 2-ci dəfə Avropa çempionu olub.**

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, Türkiyə (121) 2-ci, Gürcüstan (118) isə 3-cü yeri tutub.

Millinin heyətində Həsrət Cəfərov (67 kq) və Qurban Qurbanov (82 kq) qızıl, Rəşad Məmmədov (55 kq), Nihat Məmmədli (60 kq), İslam Abbasov (87 kq) bürünc medal qazanıblar.

***

Dünən Azərbaycanın iki qadın güləşçisi – Jalə Əliyeva (57 kq) və Birgül Soltanova (65 kq) yarımfinala vəsiqə qazanıb.

Qeyd edək ki, Avropa çempionatı aprelin 26-da başa çatacaq.

### Soydaşımız beynəlxalq idman qurumunda



**Azərbaycan Badminton Federasiyasının prezidenti Taleh Ziyadov Danimarkanın Horsens şəhərində keçirilmiş Avropa Badminton Konfederasiyasının (BEC) İllik Ümumi Yığıncağında keçirilən seçkilərin nəticələrinə əsasən, 2026–2030-cu illər üçün təşkilatın İdarə Heyətinin üzvü seçilib.**

Seçkilər yüksək rəqabət şəraitində baş tutub – Avropanın müxtəlif ölkələrini təmsil edən 8 namizəd 3 direktor vəzifəsi uğrunda mübarizə aparıb. Səsvermədə təşkilatın 50 üzvündən 47-si iştirak edib. Ziyadovun seçilməsi BEC üzv assosiasiyalarının onun liderlik keyfiyyətlərinə, təcrübəsinə və Avropada badmintonun inkişafına verdiyi töhfələrə olan etimadının göstəricisidir.

Qeyd edək ki, Taleh Ziyadov 2021-ci ildən Azərbaycan Badminton Federasiyasının prezidenti, 2025-ci ildən isə Badminton Dünya Federasiyasının (BWF) Şura üzvüdür.

### Berlində qitə Kuboku



**Almaniyanın paytaxtı Berlində aprelin 25-26-da təşkil olunacaq yeniyetmələr arasında Avropa Kuboku turnirində ümumilikdə 36 ölkədən 774 idmançı (472 oğlan, 302 qız) mübarizə aparacaq.**

Azərbaycan Cüdo Federasiyasından (ACF) verilən məlumata görə, Avropa Cüdo Birliyinin (EJF) təşkilatçılığı ilə reallaşacaq yarışda ölkəmiz 16 çəki dərəcəsində 39 cüdoçu (20 oğlan, 19 qız) ilə təmsil olunacaq.

Yeniyetmə oğlanlardan ibarət yığmaya baş məşqçi Emin İskəndərov, məşqçi Nicat Şıxəlizadə, qızlardan ibarət komandaya isə baş məşqçi Elnur İsmayılov və məşqçi Əmrah Əhmədov rəhbərlik edəcək.

Yarışın ədalət təmsilçiləri arasında ACF-nin hakimlər heyətinin üzvləri, B kateqoriyalı beynəlxalq dərəcəli hakimlər Mehman İmamquliyev və Pərviz Hüseynov da yer alacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

✓ *2014-cü il oktyabrın 20-də "Gəncə-4000" MMC-yə verilmiş FHN seriyalı 54-01690 nömrəli lisenziya itdiyi üçün etibarsız sayılır.*

✓ *Məhərləmov Rüzgar Rza oğluna məxsus AA6415924 nömrəli şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

*Ombudsmanın həyəcan siqnalı*

# "Şirin zəhərlər"in aldadıcı gücü

## *Belə içkilər uşaqların sağlamlığı üçün ciddi təhlükə törədir*

**Müasir dövrdə gənc və yeniyetmələrin energetik içkilərə meyillərinin artması müşahidə olunur. Parlaq qablaşdırma, cəlbedici reklamlar və "enerji verən" vədlər bu məhsulları uşaqlar üçün də cəlbedici edir. Lakin mütəxəssislər xəbərdarlıq edirlər ki, bu içkilər, sadəcə, müvəqqəti enerji hissi yaratmaqla kifayətlənmir, eyni zamanda, sağlamlıq üçün ciddi təhlükə doğurur.**

Aparılan beynəlxalq araşdırmalar göstərir ki, yeniyetmələrin, təxminən, 30–50 faizi energetik içkilərdən istifadə edir və bu göstərici problemin geniş yayıldığını təsdiqləyir. Eyni zamanda, kofein tərkibli məhsullarla bağlı zəhərlənmə hallarının əhəmiyyətli hissəsi məhz 18 yaşdan aşağı şəxslərin payına düşür ki, bu da məsələnin ciddiliyini daha da artırır.

Enerji içkilərinin istifadəsi ilə bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı da narahatlığını ifadə edən məlumat yayıb. Ombudsmanın apardığı monitorinqlər göstərib ki, energetik içkilərin yetkinlik yaşına çatmayanlar tərəfindən istifadəsi geniş yayılıb və satış zamanı yaş məhdudiyyətlərinə kifayət qədər nəzarət olunmur.

Xüsusilə vendinq aparatlarında və pərakəndə satış məntəqələrində bu mexanizmlər, faktiki olaraq, tətbiq edilmir. Bu vəziyyət uşaqların sağlamlığına mənfi təsir göstərir və onların konstitusion hüquqlarının qorunmasına maneə yaradır. Təhlillər mövcud qanunvericilik və nəzarət mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac olduğunu göstərir.

Ombudsman cərimələrin artırılması, vendinq aparatlarında yaş identifikasiyası sisteminin tətbiqi və ya satışın məhdudlaşdırılması, reklam qaydalarının sərtləşdirilməsi, sağlamlıq xəbərdarlıqlarının məcburi edilməsi və maarifləndirmə kimi tədbirlərinin gücləndirilməsini təklif edir.

Bu açıqlama ilə bağlı qida üzrə mütəxəssislər də məsələni aktuallıq baxımından yüksək qiymətləndi-



rirlər. **Qida təhlükəsizliyi hərəkatının rəhbəri, sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova** bu cür xəbərdarlıqların cəmiyyət üçün ciddi siqnal rolunu oynadığını bildirərək dedi: "Ümumiyyətlə, enerji içkilərinin 18 yaşdan aşağı şəxslərə satışı Azərbaycan qanunvericiliyinə əsasən qadağandır. Lakin təəssüf ki, praktikada bu qaydalara hər kəsin əməl etdiyini demək mümkün deyil. Xüsusilə təhsil müəssisələrinin yaxınlığında yerləşən satış nöqtələrində, marketlərdə və vendinq aparatlarında satış zamanı əksər hallarda alıcının yaşı yoxlanılmır. Bu isə enerji içkilərinin uşaqlar və yeniyetmələr üçün əlçatanlığını daha da artırır.

Mövcud vəziyyət göstərir ki, qanunvericilikdə müəyyən təkmilləşdirmələrə və cəza tədbirlərinin sərtləşdirilməsinə ehtiyac var. Bununla yanaşı, məşhur şəxslərin – idmançıların, müğənnilərin iştirakı ilə aparılan reklamların geniş yayılması da bu məhsullara marağı artırır. Bu səbəbdən reklamların məhdudlaşdırılması, xüsusilə gənclərə yönəlmiş təşviqatın qarşısının alınması və məhsullar üzərində sağlamlıqla bağlı açıq xəbərdarlıqların yerləşdirilməsi vacibdir. Eyni zamanda, bu sahədə mütəmadi maarifləndirmə işlərinin aparılması zəruridir".

Mütəxəssisin sözlərinə görə, enerji içkilərinin tərkibində yüksək miqdarda kafein, şəkər və sintetik mənşəli maddələrin olması insan sağlamlığı üçün ciddi risklər yaradır. "Bu maddələr xüsusilə inkişaf dövründə olan uşaq və yeniyetmələrdə fiziki və əqli inkişafın ləngiməsinə, ürək-damar problemlərinə səbəb ola bilər.

Əlavə olaraq, energetik içkilərin təsiri qısamüddətli olur – qısamüddətli enerji artımından sonra kəskin enerji düşüşü baş verir ki, bu da təkrar istifadəyə meyili artırır. Bu isə zamanla həm fiziki, həm də psixoloji asılılıq yaradır.

Nəticə olaraq deyə bilərik ki, energetik içkilərin istifadəsi artıq kütləvi xarakter aldığından bu sahədə həm qanunvericilik baxımından yeniliklər edilməli, cərimə mexanizmləri sərtləşdirilməli, həm də nəzarət və monitorinq daha güclü şəkildə həyata keçirilməlidir. Bununla yanaşı, ictimai maarifləndirmə tədbirləri genişləndirilməlidir ki, xüsusilə gənc nəsil bu məhsulların potensial zərərləri barədə daha məlumatlı olsun", - deyə M.Hüseynova vurğuladı.



Mövzu ilə bağlı **həkim-pediatr Şəlalə Poluxovanın** da fikirlərini öyrəndik. Pediatr energetik içkilərin uşaqlar tərəfindən istifadəsinin tibbi baxımdan tövsiyə olunmadığını və potensial zərərli olduğunu bildirdi. "Bu içkilərin tərkibində yüksək miqdarda kofein, şəkər və digər stimullaşdırıcı maddələr (taurin, guarana və s.) mövcuddur. Bu komponentlər uşaqların hələ tam formalaşmamış sinir və ürək-damar sisteminə mənfi təsir göstərə bilər.

Uşaqlarda kofeinə qarşı həssaslıq daha yüksək olduğundan, energetik içkilərin qəbulu nəticəsində əsəbilik, hiperaktivlik, yuxu pozğunluğu, diqqət zəifliyi və davranış dəyişiklikləri müşahidə oluna bilər. Bundan əlavə, bu içkilər ürək döyüntülərinin sürətlənməsi, arterial təzyiqin yüksəlməsi və ritm pozğunluqları kimi kardiovaskulyar təsirlərə səbəb ola bilər".

Ş.Poluxova onu da əlavə etdi ki, energetik içkilərin tərkibində olan yüksək şəkərin miqdarı piylənmə, insulin müqaviməti və diş çürüməsi riskini də artırır. Araşdırmalar göstərir ki, hətta bir dəfə qəbul belə uşaqlarda qan təzyiqinin artmasına və sinir sistemi üzərində mənfi təsirlərə səbəb ola bilər.

Nəzərə almaq lazımdır ki, bu içkilər "enerji mənbəyi" deyil, yalnız qısamüddətli stimullaşdırıcı təsir göstərir və sonradan yorğunluğun daha da artmasına səbəb ola bilər. Uşaqlarda enerji ehtiyacının düzgün qarşılanması balanslı qidalanma, adekvat yuxu və fiziki aktivlik vasitəsilə təmin olunmalıdır. Xüsusilə uşaqların sağlam inkişafı baxımından energetik içkilərin istifadəsi məhdudlaşdırılmalı və valideynlər bu mövzuda maarifləndirilməlidir.

Rəsmi statistik göstəricilər və mütəxəssis rəyləri bir daha təsdiqləyir ki, bu içkilər uşaqlar üçün uyğun deyil. Uşaqlara düzgün qidalanma vərdişlərinin aşılanması, ailədə və məktəbdə sağlam həyat tərzinin təşviqi bu kimi risklərin azalmasına kömək edə bilər. Odur ki, sağlam gələcək naminə valideynlər və cəmiyyət uşaqları bu cür zərərli vərdişlərdən qorumağa çalışmalı, onların düzgün və balanslı qidalanmasına xüsusi diqqət yetirməlidir.

*Nurəngiz ADİLQIZI*
*XQ*

# Mil düzünün qədim üzü…



**Beyləqan Rayon İcra Hakimiyyətinin və Mil-Muğan Regional Mədəniyyət İdarəsinin Beyləqan rayonu üzrə mədəniyyət müəssisələrinin birgə təşəbbüsü ilə Aşağı Çəmənli kəndi ərazisində yerləşən qədim I–IV Çardaxlı yaşayış yerinə səfər təşkil olunub.**

Ziyafət zamanı Tarix-Diyarşünaslıq Muzeyinin nümayəndələri iştirakçılara abidənin tarixi əhəmiyyəti barədə ətraflı məlumat veriblər. Bildirilib ki, "Yeddi təpə" adlandırılan bu qədim yaşayış məskəni ilk Tunc dövrünə aid edilir. Aparılan arxeoloji qazıntılar zamanı ərazidə küp qəbirlər, saxsı çıraqlar, şirli saxsı qablar və digər maddi-mədəniyyət nümunələri aşkar olunub. Qeyd edilib ki, bu tapıntılar ərazinin zəngin tarixini, eləcə də burada yaşamış insanların həyat tərzi və məişətini əks etdirən mühüm elmi mənbələrdir.

Eyni zamanda, ərazidə təşkil olunan sərgidə nümayiş etdirilən eksponatların bir hissəsinin məhz Çardaxlı yaşayış yerindən, digər hissəsinin isə rayonun müxtəlif qədim yaşayış məntəqələrində aparılmış arxeoloji qazıntılar zamanı əldə olunduğu diqqətə çatdırılıb.

Səfərə yekun vuran Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov ölkəmizdə tarixi-mədəni irsin qorunması və təbliği istiqamətində həyata keçirilən dövlət siyasətindən söhbət açıb, bu sahədə görülən işlərin əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, belə tanışlıqlar gənc nəslin milli-mənəvi dəyərlərə bağlılığının gücləndirilməsi, tariximizin dərindən öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından mühüm rol oynayır.

*M.QULUYEV,*
*XQ-nin bölgə müxbiri*

# "Qaraca qız" Koreya dilində




**Azərbaycan nasiri Süleyman Sani Axundovun məşhur "Qaraca qız" hekayəsi Cənubi Koreyanın "Boşluqları olan kitab rəfi" nəşriyyatının dəstəyi ilə Koreya dilində nəşr edilib.**

Hekayəni Koreya dilinə bu ölkədə yaşayan həmvətənimiz Leyla Məsimli tərcümə edib. Nəşrin elmi redaktoru Koreyanın Hanyanq Universitetinin Koreya dili və ədəbiyyatı fakültəsinin professoru So Qyonq Soqdur.

*XQ*

## HAVA

# Bakıda buludlu, dağlarda yağış, dolu və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Şimal-qərb küləyi əsəcək.**



Havanın temperaturu gecə 8-12, gündüz 15-19 dərəcə isti olacaq. Atmosfer təzyiqi 756 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi, duman olacağı ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclü olacaq.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3129
SİFARİŞ 515
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00